# AZƏRBAYCANDA MƏHKƏMƏLƏRİN MONİTORİNQİ LAYİHƏSİ ÜZRƏ HESABAT 2003-2004

*Qeyri-rəsmi tərcümə*

ATƏT
Bakı Ofisi

ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosu (DTİHB) və ATƏT-in Bakı Ofisi 2003-2004-cü illər ərzində Məhkəmələrin Monitorinqi Layihəsinin həyata keçirilməsində əməkdaşlığa görə Azərbaycan Hökumətinə minnətdarlıq bildirirlər.

## Mündəricat

**XÜLASƏ**

**ÖN SÖZ**

**I HİSSƏ**
1. ATƏT-in Məhkəmələrin Monitorinqi Proqramı
2. Seçkisonrası hadisələrin xülasəsi
3. Məqsəd və metodologiya

**II HİSSƏ**
4. Seçkisonrası hadisələrlə bağlı işlərə dair ümumi məlumat
5. Nəticələr və təhlil
   A. Tutulma və həbs zamanı gücdən istifadə
   B. Həbsdə saxlanılan şəxslərin məlumat almaq hüququ
   C. Məhkəmə prosesində müdafiəçinin köməyindən istifadə etmək hüququ
   D. Tutulma və həbs barədə digərlərinə məlumat vermək hüququ
   E. Dərhal hakimin yanına gətirilmək hüququ
   F. Müdafiənin hazırlanması üçün kifayət qədər vaxta və imkanlara malik olmaq hüququ
   G. İşgəncələrin və pis rəftarın qadağan edilməsi; ifadələrin verilməsinə və ya təqsirin etiraf edilməsinə məcbur edilməmək hüququ
   H. Dövlətin işgəncə və pis rəftara dair iddiaları araşdırmaq öhdəliyi
   I. İşgəncə və ya digər pis rəftar nəticəsində alınan ifadələrin sübut qismində qəbuledilməzliyi
   J. Açıq məhkəmə araşdırması hüququ
   K. Müstəqil və qərəzsiz məhkəməyə olan hüquq
   L. Ədalətli məhkəmə araşdırması hüququ
   M. Açıq elan edilən və əsaslandırılmış hökm almaq hüququ

**III HİSSƏ**
6. Nəticə və tövsiyyələr

**1-ci əlavə: Məhkəmə hökmlərinin siyahısı**
**2-ci əlavə: İnzibati xətaların və cinayətlərin törədilməsinə dair ittihamların mətni**
**3-cü əlavə: Seçilmiş beynəlxalq standartlar**
**4-cü əlavə: 15-ci Məhkəmə Prosesindən müfəssəl müşahidələr**
**5-ci əlavə: 15-ci Məhkəmə Prosesi ilə bağlı sorğu formaları**
**6-cı əlavə: Vəkilliyin islahatına dair Konfransın tövsiyyələri**

**XÜLASƏ**

Qanununun aliliyi və insan hüquqlarının həyata keçirilməsini təmin etmək məqsədilə ATƏT-ə üzv olan dövlətlər yerli məhkəmə proseslərində iştirak etmək üçün beynəlxalq müşahidəçilərə imkan yaratmaq öhdəliyini üzərlərinə götürmüşlər. Buna əsasən, 2003-cü ilin noyabr ayından 2004-cü ilin noyabr ayınadək ATƏT/DTİHB və ATƏT-in Bakı Ofisi tərəfindən Azərbaycanda Məhkəmə Proseslərinin Monitorinqi Proqramının birinci mərhələsi həyata keçirilib.

Bu proqram həm də 2003-cü ilin oktyabr ayında keçirilən prezident seçkiləri ilə bağlı həyata keçirilən fəaliyyət idi. Həmin seçkilər Bakıda seçki saxtakarlıqlarına etiraz edən nümayiş iştirakçıları ilə təhlükəsizlik qüvvələri arasında zorakı toqquşmalara təkan verdi. Toqquşmalar nəticəsində 600-ə yaxın insan saxlanılsa da, son nəticədə 125 nəfər, o cümlədən, müxalif siyasi partiyaların bir sıra liderləri həmin toqquşmalarla bağlı cinayət əməlləri törətməkdə təqsirləndirilərək mühakimə edildilər. Yerli qanunvericiliyə və beynəlxalq öhdəliklərə nə dərəcədə əməl edilməsini yoxlamaq məqsədilə proqram çərçivəsində bütün məhkəmə prosesləri müşahidə edildi.

Azərbaycan qanunvericiliyi məhkəmə proseslərinin beynəlxalq standartlara uyğun olaraq ədalətli keçirilməsi üçün hüquq və təminatlar nəzərdə tutur. Lakin sözügedən işlər üzrə aparılmış məhkəmə araşdırması heç də bütün hallarda bu hüquqlara riayət edilməsini təmin edəcək yolla həyata keçirilməyib. Bundan əlavə, müşahidəçilərin qeydlərinə görə, hüquq-mühafizə orqanları işçiləri tutulmanı həyata keçirərkən bəzən həddən artıq güc tətbiq etmiş, həbsdə saxlanılan şəxslərin hüquqları lazımi səviyyədə təmin edilməmişdir.

Həbs edilənlərə qarşı işgəncə və pis rəftara yol verilməsi barədə çoxlu sayda inandırıcı iddiaların olması, həmin ciddi iddialarla bağlı adekvat məhkəmə araşdırmasının və ya vasitələrin olmaması, həmçinin işgəncə və məcburetmə yolu ilə əldə edildiyi söylənilən sübutların məhkəmə tərəfindən qəbul edilməsi xüsusilə dərin narahatlıq doğurur.

Məhkəmə proseslərinin bəziləri vacib hüquq və təminatlara, o cümlədən vəkilin köməyindən istifadə etmək hüququ, müstəqil və qərəzsiz məhkəmə hüququ, ədalətli məhkəmə araşdırması hüququ və əsaslandırılmış qərar almaq hüququna dair ATƏT-in standartlarına və digər beynəlxalq standartlara əhəmiyyətli dərəcədə cavab verməyib.

Müvafiq hakimiyyət orqanları bu nöqsanları tezliklə aradan qaldırmaq üçün addımlar atmalıdır. Ədalətsiz və yaxud Azərbaycanın beynəlxalq öhdəliklərinə əhəmiyyətli dərəcədə cavab verməyən məhkəmə prosesləri nəticəsində məhkum edilmiş şəxslərə təyin edilən cəza ləğv edilməli və ya daha yüngül cəza ilə əvəz edilməli, onların işlərinə yenidən baxılmalı və ya onlar azad edilməlidirlər.

Hakimiyyət orqanları işgəncə və pis rəftara dair bütün iddiaları, habelə 2003-cü ilin oktyabrın 15-də və 16-da və sonrakı dövrdə şübhəli şəxslərin tutulması zamanı təhlükəsizlik qüvvələri tərəfindən həddən artıq gücün tətbiq edilməsi hallarını qısa müddətdə ciddi, geniş və müstəqil şəkildə araşdırmalıdır.

Sözügedən işlərdən çoxuna hələ ki, yuxarı instansiyarlarda baxılır və bu səbəbdən yuxarı instansiyalar məhkəmə proseslərində baş vermiş nöqsanları aradan qaldırmaq imkanına hələ də malikdirlər.

**ÖN SÖZ**

Müstəqil və qərəzsiz məhkəmə tərəfindən ədalətli və açıq məhkəmə araşdırması hüququ Ümumdünya İnsan Hüquqları Bəyannaməsində (ÜİHB), Birləşmiş Millətlər Təşkilatının və həmçinin Avropa Şurasının məcburedici sənədlərində öz əksini tapıb.

ATƏT bu hüququ yarandığı andan, Helsinki Yekun Aktı onu imzalamış dövlətlərin üzərinə ÜİHB-nə əsasən hərəkət etmək öhdəliyini qoyduğu zaman tanıyıb. Ədalətli məhkəmə araşdırması və onunla bağlı məsələlərə dair ATƏT-in öhdəlikləri ATƏT-in sonrakı sənədlərində daha dəqiq işlənilmiş, genişləndirilmiş və yenidən öz təsdiqini tapmışdır. 1990-cı ildə ATƏT-ə üzv olan dövlətlər öz aralarında etimadın yaranmasına yönəldilən bir addım kimi və ədalətli məhkəmə araşdırmasına dair öhdəliklərin həyata keçirilməsində şəffaflığı artırmaq məqsədilə digər üzv dövlətlərdən və qeyri-hökumət təşkilatlarından məhkəmə müşahidəçilərini qəbul etmək öhdəliyini öz üzərlərinə götürdülər.[1] ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosu (ATƏT/DTİHB) Məhkəmələrin Monitorinqi Proqramını bu öhdəliklərə uyğun olaraq başlayıb.

2003-cü ilin oktyabrın 15-də keçirilən və çoxlu pozuntularla müşahidə edilən prezident seçkilərindən dərhal sonra Bakıda nümayiş iştirakçıları və hökumət qüvvələri arasında iki silahlı toqquşma baş verdi. Bu zorakı toqquşma ilə bağlı cinayətlərin törədilməsində ittiham edilən bütün şəxslərin məhkəmə prosesləri ATƏT-in Məhkəmələrin Monitorinqi Proqramı çərçivəsində müşahidə edilib. Proseslər ədalətli məhkəmə araşdırmasına dair milli və beynəlxalq hüquq və öhdəliklərə əməl olunması perspektivindən müşahidə edilib.

**Hesabatın 1-ci Hissəsi** ATƏT-in Məhkəmələrin Monitorinqi Proqramına və seçkisonrası hadisələrlə bağlı məhkəmə işlərinə dair ümumi məlumatı əhatə edir. Bundan əlavə, bu hissədə hesabatın məqsədi və metodologiyası izah edilir.

**Hesabatın 2-ci Hissəsi** monitorinqin nəticələri və analizi ilə bərabər işlər haqqında əsas məlumatı əhatə edir. Hər bölmə ədalətli məhkəmə araşdırması standartları və öhdəliklərə dair milli və beynəlxalq hüququn müəyyən müddəalarına istinad edir. Nəticələr tutulma anından işin yuxarı instansiyalarda baxılmasınadək ədalətli məhkəmə araşdırması hüququnu təşkil edən ayrı-ayrı, lakin bir-biri ilə bağlı olan hüquqlara uyğun olaraq tərtib edilib.

**Hesabatın 3-cü Hissəsi** hesabatın nəticələrini və Azərbaycan hökumətinə tövsiyyələri nəzərdə tutur.

**Əlavələrdə** ətraflı əlavə məlumat nəzərdə tutulub.

ATƏT/DTİHB və ATƏT-in Bakı Ofisi Məhkəmələrin Monitorinqi Proqramının həyata keçirilməsi üçün şərait yaratdığına görə Azərbaycan hökumətinə öz minnətarlığını bildirir. ATƏT qanunun aliliyi və ədalət mühakiməsini gücləndirmək üçün dövlət orqanları və mülki cəmiyyətlə işləməyə hazırdır.

---

[1] 12-ci bənd, Kopenhagen sənədi, 1990-cı il. Bax: 3-cü Əlavə

## I HİSSƏ

### *1. ATƏT-in MƏHKƏMƏLƏRİN MONİTORİNQİ PROQRAMI*

Ədalətli Məhkəmə araşdırması hüququnun vacibliyini tanıyaraq, ATƏT-ə üzv çıxan dövlətlər milli və beynəlxalq müşahidəçilər tərəfindən məhkəmə proseslərinin izlənilməsinə şərait yaratmaq öhdəliyini öz üzərlərinə götürüblər. ATƏT/DTİHB və ATƏT-in Bakı Ofisi Azərbaycanda Məhkəmələrin Monitorinqi Proqramını bu öhdəliklərə uyğun olaraq həyata keçirilib.

Məhkəmələrin Monitorinqi Proqramının ümumi məqsədi ədalətli məhkəmə araşdırması hüququna hörməti artırmaqdadır. Bu baxımdan, Məhkəmələrin Monitorinqi Proqramının məqsədi üçtərəflidir:

- Ədalət mühakiməsi, hakimlərin müstəqilliyi və adilliyinə inamın bərqərar edilməsi və artırılması;

- Məhkəmə proseslərinin milli və beynəlxalq ədalətli məhkəmə araşdırması standartlarına uyğun olmasının yoxlanılması və bu haqda hesabatların hazırlanması üçün yerli müşahidəçiliyin əsaslarının yaradılması. Bu məqsədlə, müşahidəçilərə milli və beynəlxalq ədalətli məhkəmə araşdırması standartlarına və məhkəmə monitorinqi və hesabatların hazırlanması üsullarına dair mütəmadi təlimlər keçirilir və məlumat verilir;

- Milli və beynəlxalq ədalətli məhkəmə araşdırması standartlarına əməl edilməsininin yoxlanılması və buna dair mütəmadi və keyfiyyətli hesabatların və ədalətli məhkəmə araşdırmasına dair müvafiq tövsiyyələrin hazırlanması. Belə məlumatların yayılması şəffaflığın artırılmasına gətirir, hüquqi və institusional islahatın keçirilməsinin vacib olduğu sahələrin müəyyən edilməsinə yardım edir.

Bu hesabat 2003-cü ilin noyabrından 2004-cü ilin noyabr ayınadək həyata keçirilən Məhkəmələrin Monitorinqi Proqramının birinci mərhələsinin kulminasiya nöqtəsidir. Birinci mərhələ çərçivəsində, ATƏT 21 məhkəmə müşahidəçisinə təlim keçib, sonradan isə seçki proseslərinin müşahidəsi və hesabatların hazırlanması üzrə onların sonrakı fəaliyyətlərini əlaqələndirib.

Bundan əlavə, mayın 7-də başlayan son məhkəmə prosesi beynəlxalq ekspert tərəfindən müşahidə edilib.[2]

### *2. SEÇKİSONRASI HADİSƏLƏRİN XÜLASƏSİ*

#### Seçkisonrası zorakılıq

2003-cü ilin 15 oktyabr tarixli seçkilər ATƏT/DTİHB tərəfindən müşahidə edilmiş və 2003-cü ilin noyabrın 12-də son seçki hesabatı dərc edilmişdi.[3] Seçkilər nəticəsində sabiq prezident

---

[2] Pol Qarlik, «Kraliçanın Vəkili» titulunun sahibi, hakim, Birləşmiş Krallıq; 3-cü Bölməyə bax, Məqsəd və Metodologiya.

[3] Azərbaycan Respublikasında 2003-cü ilin oktyabrın 15-də keçirilən prezident seçkiləri, Son Hesabat, ATƏT/DTİHB http://www.osce.org/odihr/index.php?page=elections&div=reports&country=az. Bu bölmədə olan hadisələrin təsviri Son Hesabatın XIII-ci bölməsinə uyğun olaraq yazılıb.

Heydər Əliyevin oğlu İlham Əliyevin seçkilərdə qələbə çalması və onun Azərbaycan Respublikasının prezidenti seçilməsi elan edildi. Seçkidən dərhal sonra, oktyabrın 15 və 16-da Bakıda təhlükəsizlik qüvvələri və nümayişçilər arasında zorakı toqquşma ilə nəticələnən nümayişlər keçdi.

Oktyabrın 15-də axşam vaxtı ATƏT/DTİHB-in Seçki Müşahidəsi Missiyasının üzvləri Musavat partiyasının gərargahı qarşısında müxalifətin dinc tərəfdarlarına polisin hücum etməsinin şahidi oldular. Oktyabrın 16-da bir neçə min nümayişçi və müxalifət tərəfdarı onların hesab etdikləri kimi səslərinin oğurlanmasına etiraz etmək məqsədilə Bakının mərkəzində Azadlıq meydanında toplaşdılar.

Meydana gedərkən nümayişçilərin yol boyu binalara və avtomobillərə xətər yetirmələri və polis qüvvələrinə dəmir parçaları və daşlarla hücum etmələri müşahidə edilmişdi. Meydanda nümayişçilər qısa bir zamanda kütləni dağıtmaq məqsədilə həddən artıq güc tətbiq edən polis və təhlükəsizlik qüvvələri tərəfindən əhatəyə alındı.

Təhlükəsizlik qüvvələri tutulan və artıq heç bir təhlükə yaratmayan və ya hadisə yerindən qaçan nümayişçiləri dubinkalarla döyməkdə davam edirdilər. Videolent yazıları nümayişi dağıtmaq üçün hökumət qüvvələri tərəfindən həddən artıq gücün istifadə edildiyini və qəddarlığa yol verildiyini nümayiş edir.

Zorakılıq həbslər dalğası ilə nəticələndi. Rəsmi məlumatlara əsasən, tutulan şəxslər zorakı fəaliyyətə və ya zorakılığın təşkilinə görə məsuliyyət daşıyırdılar. Lakin, həbslər ölkənin bütün hissələrində baş verirdi və zorakılıqla heç bir aydın əlaqəsi olmayan çoxlu sayda şəxslərə də tətbiq edilirdi. Daxili İşlər Nazirinin dediklərinə əsasən zorakı toqquşmalardan dərhal sonra 600 nəfərdən artıq şəxs saxlanılmışdır. ATƏT/DTİHB bu hadisələrə aidiyyatı olmayan və seçki günü baş verən pozuntulara görə öz seçki məntəqə və dairələri üzrə seçkinin nəticələrini təsdiqləməkdən imtina edən çoxsaylı seçki müşahidəçilərinin tutulmasına dair xüsusi narazılığını bildirdi.

**İnzibati xətaların və cinayətlərin törədilməsinə dair ittihamlar**

Seçkilərlə bağlı tutulan insanların əksəriyyəti ittiham irəli sürülmədən azadlığa buraxıldı. Ümumilikdə, seçkidən sonrakı toqquşmalarla bağlı 129 nəfər cinayətin törədilməsində ittiham edildi və hesabatın yazıldığı dövrdə onlardan 125 nəfərin işinə məhkəmədə baxıldı.

Onlara qarşı aşağıda göstərilən ittihamlar irəli sürülmüşdür:

- Kütləvi iğtişaşların təşkili və ya kütləvi iğtişaşlarda iştirak;
- Hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etmə
- İctimai asayışın pozulması ilə nəticələnən hərəkətlərin təşkili və ya belə hərəkətlərdə aktiv iştirak.[4]

Oktyabrın 15-də və 16-da baş verən hadisələrin ardınca, sonradan cinayətlərin törədilməsində ittiham edilən şəxslərdən ən azı 27 nəfər inzibati pozuntu olan «dövlətin nümayəndəsinə itaətsizlikdə» təqsirləndirilmiş və 15 günədək inzibati həbs cəzasına məhkum edilmişdir.[5]

[4] Cinayət Prosessual Məcələsinin müvafiq müddəaları 2-ci əlavədə göstərilib
[5] İnzibati Xətalar Məcəllәsinin 310-cu maddəsi. Tam mətni 2-ci əlavədə göstərilib

İnzibati qaydada çıxarılmış qərarlar sonradan Apellyasiya məhkəməsi tərəfindən ləğv edilmişdir. Lakin, Apellyasiya məhkəməsi inzibati qaydada çıxarılmış qərarları ləğv edəndən sonra bu şəxslərə qarşı cinayət ittihamları irəli sürülmüşdür.

Cinayətlərin törədilməsində ittiham edilən şəxslər arasında müxalifətin bir neçə tanınmış üzvü də var idi, o cümlədən;

- İqbal Ağazadə, Milli Məclisin üzvü və Ümid partiyasının sədri; [6]
- Rauf Arifoğlu, Musavat partiyasının sədr müavini və Yeni Musavat partiyasının baş redaktoru;
- Etimad Əsədov, Qarabağ Müharibəsi Əlilləri Cəmiyyətinin Sədri;
- Arif Hacılı, Musavat Partiyasının sədr müavini;
- Pənah Hüseynov, Azərbaycanın keçmiş Baş Naziri və Xalq partiyasının sədri;
- İbrahim İbrahimli, Musavat partiyasının sədr müavini;
- Sərdar Cəlaloğlu, Azərbaycan Demokrat Partiyasının keçmiş Baş Katibi [7]

Bundan əlavə, İlqar Allahverdiyev, Beynəlxalq Din Azadlığı Assosiasiyasının Azərbaycan Bölməsinin Baş Katibi və Cümə Məscidinin keçmiş imamı seçkidən sonrakı zorakılıqla bağlı cinayətlərin törədilməsində təqsirləndirilmişdir.

Nümayişçilərə qarşı həddən artıq gücün və ya qəddarlığın tətbiq edilməsinə görə polis işçilərinə və ya digər vəzifəli şəxslərə qarşı ittihamların irəli sürülməsinə dair hər hansı bir fakt hesabatın hazırlandığı dövrdə ATƏT/DTİHB-ə məlum deyildi.

**Beynəlxalq ictimayyətin reaksiyası**

1358 №-li (2004) qətnaməsində Avropa Şurası Parlament Assambleyası (AŞPA) hökumətə tövsiyyə etmişdir ki: [8]

- Seçkidən sonrakı dövrdə həbs olunmuş müxalif siyasi partiya rəhbərləri və onların tərəfdarları azad edilsin və ya qısa bir zamanda onların məhkəmə prosesləri başlanılsın. Bütün həbs olunanların öz vəkilləri ilə görüşmələrinə imkan verilsin və onların ədalətli məhkəmə araşdırması hüququ təmin edilsin. Təqsirsizlik prezumpsiyası prinsipinə hörmətlə yanaşılmalı və verilən cəzalar əmələ mütənasib olmalıdır. Hökumət araşdırılan işlərin yeni siyasi məhbusların yaranmasına gətirib çıxartmaması üçün bütün zəruri tədbirləri görməlidir.

Son seçki hesabatında ATƏT/DTİHB Hökumətə tövsiyyə etmişdir ki:

- Seçkidən sonrakı dövrdə həbs olunmuş müxalif siyasi partiya tərəfdarları, üzvləri və rəhbərləri azad edilsin və ya qısa bir zamanda onların işlərinə məhkəmədə baxılsın. Cinayətlərin törədilməsində bilavasitə və ya dolayısı şəkildə iştirak etməyən siyasi partiyaların liderləri dərhal azad edilsin.
- Bütün təqsirləndirilən şəxslərə qısa bir müddətdə ədalətli və açıq məhkəmə araşdırması və öz seçdikləri vəkillə təmsil edilmək hüququ təmin olunmalıdır. Bütün cəzalar törədilmiş cinayətlərə mütənasib olmalıdır. Məcburi etirafların alınmasına yol verilməməlidir. Hökumət etirafın alınması üçün işgəncəyə əl atmasının yol

[6] 2003-cü ilin oktyabrın 17-də Milli Məclis İqbal Ağazadənin deputatlıq toxunulmazlığını ləğv etdi
[7] Həbs zamanı Sərdar Cəlaloğlu Azərbaycan Demokrat Partiyasının Baş Katibi idi
[8] http://assembly.coe.int/Documents/AdoptedText/ta04/ERES1358.htm#_ftn.

- verilməzliyini və təsir altında verilən etirafların sübut qismində qəbul edilmədiyini təmin etməlidirlər.
- Seçkidən əvvəl və dərhal seçkidən sonrakı dövrdə həddən artıq gücün tətbiq edilməsində təqsirli olan hüquq mühafizə orqanlarının vəzifəli şəxsləri məsuliyyətə cəlb edilməlidir.

### *3. MƏQSƏD VƏ METODOLOGİYA*

ATƏT-in Məhkəmələrin Monitorinqi Proqramı çərçivəsində seçkisonrası zorakılıqla bağlı təqib edilən bütün 125 nəfərin işi mühahidə edilib. Müşahidənin məqsədi bu hesabatın 1-ci Bölməsində göstərildiyindən əlavə ATƏT/DTİHB–in Prezident Seçkilərinə dair Yekun hesabatında edilən tövsiyyələrin həyata keçirilməsinin yoxlanmasından ibarət idi.

Ədalətli məhkəmə araşdırması hüququ tutulma anını, məhkəməyə qədərki mərhələni, məhkəmə prosesini və eləcə də apellyasiya mərhələsini əhatə edən bir sıra ayrı, lakin əlaqəli hüquqlardan ibarətdir. Buna əsasən, işlər aşağıda göstərilən müqavilə və sənədlərdə əksini tapan standart və öhdəliklərə uyğun olması perspektivindən müşahidə edilib.

**Milli qanunvericilik**
- Azərbaycan Respublikası Konstitusiyası (1995-ci il)
- Azərbaycan Respublikası Cinayət Prosessual Məcəlləsi (2000-ci il) (CPM)
- Polis haqqında Qanun (1999)

**Regional vəzifələr və öhdəliklər**
- ATƏT-in Öhdəlikləri [9]
- İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsinə dair Avropa Konvensiyası (İHAK)[10]
- İşgəncə, qeyri-insani və ya insan ləyaqətini alçaldan rəftar və ya cəzanın qarşısının alınması üzrə Avropa Konvensiyası (İQAK)[11]

**BMT qarşısında götürülən vəzifələr və BMT-nin standartları**
- BMT-nin Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktı (MSHBP)[12]
- İşgəncə Əleyhinə BMT Konvensiyası (İƏK)[13]
- Hüquq mühafizə orqanları işçilərinin Davranış Məcəlləsi[14]
- Hüquq mühafizə orqanlarının işçiləri tərəfindən gücün və odlu silahın istifadəsinə dair Əsas Prinsiplər[15]
- Azadlıqdan məhrum edilmiş şəxslərlə davranışa dair Standart Minimal Qaydalar[16]

---

[9] Xüsusilə, işgəncənin qadağan edilməsi və əsassız tutulma və ya həbsə məruz qalmamaq hüququ, ədalətli məhkəmə araşdırması hüququ, və məhkəmənin müstəqilliyinə dair ATƏT-in öhdəlikləri. ATƏT-ə üzv çıxan bütün 55 dövlət tərəfindən qəbul edilən ATƏT-in öhdəlikləri, siyasi məcburi qüvvəyə malikdilər. ATƏT-in öhdəliklərinin tam mətni üçün bax; ATƏT-in İnsan Hüquqlarına dair öhdəlikləri, Varşava, 2001-ci il. http://www.osce.org/odihr/?page=publications&div=intro&subdiv=osce_hdc

[10] Xüsusilə işgəncənin qadağan edilməsinə dair 3-cü maddə, azadlıq hüququna dair 5-ci maddə və ədalətli məhkəmə araşdırmasına dair 6-cı maddə. Azərbaycan AİHK-nı 2002-ci ilin aprelin 15-də ratifikasiya edib.

[11] Azərbaycan İQAK və onun 1-ci və 2-ci protokollarını 2002-ci ilin aprelin 5-də ratifikasiya edib.

[12] Xüsusilə işgəncənin qadağan edilməsinə dair 3-cü maddə, azadlıq hüququna dair 5-ci maddə və ədalətli məhkəmə araşdırmasına dair 6-cı maddə. Azərbaycan MSHBP 1992-ci ilin avqustun 13-də ratifikasiya edib.

[13] Azərbaycan İƏK-nı 1996-cı ilin avqustun 16-da ratifikasiya edib.

[14] 1979-cu ilin dekabrın 17-də qəbul edilən Baş Assambleyanın 34/169 №-li qətnaməsilə ratifikasiya edilib.

[15] Birləşmiş Millətlərin cinayətlərin qarşısının alınması və cinayətkarlarla davranışa dair 8-ci konqresi tərəfindən qəbul edilib, Havana, Kuba, 27 avqust- 7 sentyabr 1990-cı il.

[16] Birləşmiş Millətlərin cinayətlərin qarşısının alınması və cinayətkarlarla davranışa dair 1-ci konqresi tərəfindən qəbul edilib, Cenevrə, 1995-ci il. İqtisadi və Sosial Şuranın 663 C (XXIV) №-li qətnaməsilə təsdiq edilib, 31 iyul 1957-ci il və 2076 (LXII) №-li qətnamə, 13 may 1977-ci il.

- Həbs və yə azadlıqdan məhrum etmənin hər hansı bir növünə məruz qalan bütün şəxslərin müdafiəsinə dair Prinsiplər Toplusu[17]

Müşahidə edilən hər işdə, tutulma məqamından birinci instansiya məhkəmə prosesinin sonunadək milli, regional və beynəlxalq standartlara əməl edilməsini əhatə edən məhkəmə müşahidəsi formaları doldurulub.

ATƏT-in keçirdiyi təlimdə iştirak edən məhkəmə müşahidəçiləri bütün birinci məhkəmə instansiyası proseslərini və iki apellyasiya məhkəmə proseslərini müşahidə ediblər. Məhkəmə müşahidəçiləri milli və beynəlxalq ədalətli məhkəmə araşdırması standartları və məhkəmə monitorinqi üsullarına dair 2003-cü ilin dekabr ayında və 2004-cü ilin mayında keçirilən iki təlimdə iştirak ediblər. Bundan əlavə, beynəlxalq ekspert, Pol Qarlik, Kraliçanın Məsləhətçisi, hakim (Birləşmiş Krallıq), mayın 7-də başlayan son məhkəmə prosesini müşahidə edib. Hesabatda əksini tapan məlumat məhkəmə müşahidəçilərin və beynəlxalq ekspertin birbaşa müşahidələrinə əsaslanır. Eyni zamanda tutulma və həbsdə saxlanılan dövrə aid məlumat təqsirləndirilən şəxslərin və vəkillərin məhkəmədə qaldırılan vəsatətlərinə və təqsirləndirilən şəxslər və vəkillərlə aparılan müsahibələrə əsaslanır.[18] 15-ci məhkəmə prosesində, beynəlxalq ekspert tərəfindən ətraflı suallar hazırlanmış və müdafiəçilər tərəfindən doldurulmuşdur.[19]

[17] Baş Assambleyanın 43/173 №-li qətnaməsilə 1988-ci ilin dekabrın 9-da qəbul edilib
[18] Bu hesabatın məqsədləri üçün, 'təqsirləndirilən şəxs' dedikdə şübhəli şəxs, təqsirləndirilən şəxs və məhkum edilmiş şəxslər başa düşülür
[19] 15-ci Məhkəmə Prosesində doldurulan məhkəmə monitorinqi formaları hesabatın 4-cü əlavəsində göstərilib.

## II HİSSƏ

### *4. SEÇKİSONRASI HADİSƏLƏRLƏ BAĞLI İŞLƏRƏ DAİR ÜMUMİ MƏLUMAT*

Hesabatın hazırlandığı vaxt cinayətin törədilməsində təqsirləndirilən 129 nəfərdən 125 şəxsin işinə məhkəmədə baxılmışdı. Məhkəmədə işlərinə baxılan bütün şəxslərin siyahısı 1-ci əlavədə göstərilib. Bundan əlavə, 2 şəxsə qarşı cinayət təqibinə xitam verilmişdi[20] və digər iki şəxsin işinin araşdırılması davam edirdi.[21]

Məhkəmə qarşısında duran 125 nəfərin işləri 15 prosesə ayrılmışdır. Bu hesabatın məqsədləri üçün bu məhkəmə prosesləri 1-dən 15-dək şərti işarələnmişdir. Hər bir Məhkəmə Prosesində sədrlik edən hakimin adı 1-ci əlavədə göstərilib.

**15 oktyabr hadisələri ilə bağlı məhkəmə prosesləri**

7-ci Məhkəmə Prosesi oktyabrın 15-də Musavat Partiyasının Qərargahı qarşısında baş verən hadisələrlə bağlı idi. Bu Məhkəmə Prosesi Sabayıl rayon məhkəməsində keçirilirdi. Təqsirləndirilən şəxslər ictimai qaydanın pozulmasına səbəb olan hərəkətləri təşkil etmə və ya bu cür hərəkətlərdə fəal iştirak etmədə ittiham edilirdilər.[22]

**16 oktyabr hadisələri ilə bağlı məhkəmə prosesləri**

Bütün digər Məhkəmə Prosesləri oktyabrın 16-da Azadlıq Meydanında baş verən hadisələrlə bağlı idi və bütün bu proseslər Azərbaycan Respublikasının Ağır Cinayətlərə dair İşlər Üzrə Məhkəməsində keçirilirdi. 1-dən 6-dək və 8-dən 14-dək Məhkəmə Proseslərində təqsirləndirilən şəxslər kütləvi iğtişaşlarda iştirak, ictimai qaydanın pozulmasına səbəb olan hərəkətləri təşkil etmə və ya bu cür hərəkətlərdə fəal iştirak və hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etmədə ittiham edilirdi.[23]

Sonuncu, 15-ci Məhkəmə Prosesində təqsirləndirilən şəxslər seçkidən sonrakı zorakılıqla bağlı mühakimə edilən müxalif siyasi partiyaların ən məşhur üzvləri idilər. Bütün digər Məhkəmə Proseslərində təqsirləndirilən şəxslər kütləvi iğtişaşda iştirak etməkdə ittiham edildiyi zaman, 15-ci Məhkəmə Prosesində təqsirləndirilən şəxslər kütləvi iğtişaşın təşkilində ittiham edilirdi. Bundan əlavə, onlar həmçinin hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etmədə ittiham olunurdular.

**Məhkəmə hökmləri**

125 nəfər təqsirləndirilən şəxsdən hamısı cinayətlərin törədilməsində təqsirli hesab edildi. 40 nəfər 2 ildən 6 ilədək müddətə azadlıqdan məhrum etmə cəzasına məhkum edildi; 81 nəfərə 2 ildən 5 ilədək müddətə şərti olaraq azadlıqdan məhrum etmə və təqsirləndirilən şəxslərdən 4-nə 3 il müddətinə azadlığın məhdudlaşdırılması cəzası təyin edildi.

125 nəfər təqsirləndirilən şəxsdən 61 nəfər məhkəmə hökmündən apellyasiya şikayəti verdi, 47 nəfər isə Apellyasiya Məhkəməsinə müraciət etmədi. 17 işdə apellyasiya şikayətinin verilib verilməməsi barədə məlumat yoxdur.

[20] Gülhüseyn Abbasov və Məmmədov Ağamehti
[21] Sülhəddin Əkbər və Məmmədov Seyidəli Mirsaleh o.
[22] Cinayət Məcəlləsinin 233 və 315-ci maddələri.
[23] Cinayət Məcəlləsinin 220 və 315-ci maddələri.

Barələrində azadlıqdan məhrumetmə cəzası təyin edilən 40 nəfərdən hamısı hökmdən apellyasiya şikayəti verdi. Apellyasiya mərhələsinin nəticələrinə əsasən, 7 nəfərin cəza müddəti azaldıldı. Barələrində azadlıqdan məhrum etmə cəzası təyin edilən 40 nəfər təqsirləndirilən şəxslərin hamısı kassasiya şikayətilə Ali Məhkəməyə müraciət etdilər. Bu hesabatın hazırlandığı dövrdə bu işlərdən heç birinə baxılmamışdır.

## 5. NƏTİCƏLƏR VƏ TƏHLİL

### *A. TUTULMA VƏ HƏBS ZAMANI GÜCDƏN İSTİFADƏ*[24]

BMT-nin Hüquq Mühafizə Orqanları İşçilərinin Davranış Məcəlləsinə əsasən Hüquq Mühafizə orqanlarının işçiləri gücdən yalnız ciddi zəruriyyət yarandıqda istifadə edə bilərlər.[25] Tutulma həyata keçirilərkən tətbiq edilən gücün həddi tutulmanın həyata keçirilməsi üçün ağlabatan zərurəti aşmamalıdır.[26] Polis haqqında 1999-cu ilin Qanununa əsasən polis işçisi yalnız son zərurət və ya zəruri müdafiə hallarında və digər vasitələrin tükənməsindən sonra gücdən istifadə edə bilər.[27] Bundan əlavə, Polis haqqında Qanuna əsasən gücdən istifadə təhlükəyə mütənasib olmalıdır.[28]

Seçkilərdən sonra, oktyabrın 15 və 16-da Bakıda baş verən zorakılıqla bağlı, ATƏT/DTİHB-ın Seçkilərin Müşahidəsi Missiyası və ATƏT-in Bakıdakı Ofisi Musavatın Qərargahı qarşısında və Azadlıq Meydanında tutulan və artıq heç bir təhkə yaratmayan nümayişçilərin təhlükəsizlik qüvvələri tərəfindən dubinkalarla döyülməsinin şahidi oldular.

Həddən artıq gücdən istifadə yalnız oktyabrın 15-də və 16-da zorakı toqquşmalar zamanı həyata keçirilən həbslərlə bağlı deyildi. Məsələn, 15-ci Məhkəmə Prosesində, İqbal Fehruz oqlu Ağazadə oktyabrın 17-də Mütəşəkkil Cinayətkarlığa Qarşı Mübarizə Baş İdarəsinin nümayəndələri [29]tərəfindən öz evində həbs olunmuşdu. Yazılı bəyanatında, təqsirləndirilən şəxs öz evinin həyətində başından, boynundan, kürək və ayaqlarından dubinka və avtomatla döyülməsini və əlləri bağlı olarkən yerlə sürütləndirilib avtomobilə tərəf aparıldığını təsvir edir. O, həmçinin bəyan edir ki, Mütəşəkkil Cinayətkarlığa Qarşı Mübarizə Baş İdarəsinə avtomobildə aparılarkən o, dəfələrlə təhqir edilib, döyülüb və onu təpiklə başından, üzündən, qarnından və döş nahiyyəsindən vurublar. Vilayət Eyvazovun başçılıq etdiyi Mütəşəkkil Cinayətkarlığa Qarşı Mübarizə Baş İdarəsi Daxili İşlər Nazirliyi nəznində olan idarədir.

### *B. HƏBSDƏ SAXLANILAN ŞƏXSLƏRİN MƏLUMAT ALMAQ HÜQUQU*

AİHK-sı çərçivəsində və ATƏT qarşısında götürülən öhdəliklərə əsasən tutulan şəxsə onun başa düşdüyü dildə tutulmanın səbəbləri və ona qarşı irəli sürülən ittihamlar haqqında dərhal məlumat verilməlidir.[30] Tutulmanın səbəbləri haqqında verilən məlumat mütləq çox ətraflı olmalı deyil, lakin tutulmanın ən vacib hüquqi və faktiki əsaslarını əhatə etməli, eyni zamanda cinayət ittihamlara dair məlumat daha ətraflı olmalıdır. Həbsdə saxlanılan şəxslərin

---

[24] Bu bölmədə tutulma zamanı gücün tətbiq edilməsi araşdırılır. Tutulma zamanı gücün tətbiq edilməsinə dair əlavə məlumat hesabatın növbəti bölməsidə verilir. Mətndə istidadə edilən 'həbs' anlayışı həmçinin tutulmanı nəzərdə tutur və Azərbaycan qanunvericiliyində müəyyən edildiyi 'həbs' hüquqi terminilə məhdudlaşmır.

[25] BMT-nin Hüquq Mühafizə Orqanlarının İşçilərinin Davranış Məcəlləsinin 3-cü maddəsi. Bax həmçinin ATƏT-in Moskva Sənədi (1991-ci il), 21.1-ci paraqraf.

[26] BMT-nin Hüquq Mühafizə Orqanlarının İşçilərinin Davranış Məcəlləsi. 3-cü maddənin şərhi. http://www.unhchr.ch/html/menu3/b/h_comp42.htm.

[27] Polis haqqında qanunun 27-ci maddəsi.

[28] Polis haqqında qanunun 26-cı maddəsi

[29] Parlament üzvü, Ümüd partiyasının sədri.

[30] AİHK-nın 5(2)-ci maddəsi; ATƏT-in Moskva Sənədi (1991-ci il), bənd 23.1(ii).

belə məlumat almaq hüququ onların tutulmalarının qanuniliyinin yoxlanılması və onlar ittiham edildiyi halda öz müdafiələrinin hazırlanmasının təmin edilməsi üçün olduqca vacibdir.

Bu mənada Azərbaycanın yerli qanunvericiliyi beynəlxalq standartlara tam şəkildə uyğundur. Cinayət Prosessual Məcəlləsinə əsasən, hər kəs onun tutulmasının əsasları və ona qarşı irəli sürülən ittihamlar haqqında dərhal məlumat almalıdır.[31] Lakin, bu hüquqa bütün hallarda əməl olunmayıb. Misal üçün, 15-ci Məhkəmə Prosesində, Sərdar Cəlaloğlu və Natiq Cəbiyevin[32] dediklərinə əsasən onlar şəxsi evdə qara geyimdə olan maskalı şəxslər tərəfindən tutulmuşdular. Həmin şəxslər pəncərəni sındırmış və evə girmişdilər, sonra isə onlardan yerə uzanmağı tələb etmiş, onları vurub, əllərini bağlayıb maşina tərəf yerlə sürütləmişlər. Həmin şəxslər öz hərəkətlərini və onların səbəblərini izah etməmişlər.

Həmçinin Cinayət Prosessual Məcəlləsinə əsasən hər kəsə tutulduğu andan müdafiəçiyə malik olmaq və özünün əleyhinə ifadə verməmək hüququ şifahi şəkildə izah edilməli və bu barədə yazılı bildiriş verilməlidir.[33] Həbsi həyata keçirən şəxs, müstəntiq və ya prokuror tərəfindən verilməli olan bu yazılı bildiriş həbs edilmiş şəxslərin öz fundamental hüquqlarından istifadə edə biləcəyinin təmin edilməsi üçün olduqca vacibdir. Lakin, bu hüquqa bütün hallarda əməl olunmayıb. Məsələn, 15-ci Məhkəmə Prosesində təqsirləndirilən şəxslərdən heç biri tutulma anından bu hüquqlar haqqında yazılı bildiriş almayıb.

## *C. MƏHKƏMƏ PROSESİNDƏ MÜDAFİƏÇİNİN KÖMƏYİNDƏN İSTİFADƏ ETMƏK HÜQUQU*

### Müdafiəçini seçmək hüququ

Avropa İnsan Hüquqları Konvensiyası və ATƏT-in öhdəliklərinə əsasən, cinayətin törədilməsində ittiham edilən hər bir şəxs özünü müstəqil şəkildə və ya öz seçdiyi müdafiəçinin vasitəsilə müdafiə etmək hüququna malikdir. [34] Bu müddəa həmçinin Cinayət Prosessual Məcəlləsində öz əksini tapıb.[35] Cinayət Prosessual Məcəlləsinə əsasən, tutulmuş şəxsin vəkili olmadıqda, cinayət mühakiməsini həyata keçirən orqan ona vəkillərin siyahısını təqdim etməli, seçilmiş vəkillə əlaqə saxlamalı və tutulmuş şəxsə həmin vəkillə görüşmək imkanını yaratmalıdır.[36]

Lakin bu hüquqa bütün hallarda əməl olunmayıb. Məsələn 11-ci Məhkəmə Prosesində 2003-cü ilin oktybrın 21-də müstəntiq şübhəli şəxs qismində saxlanılan Abdullayev Elxan Savalan oqluna müdafiəçi təqdim edərkən onunla müqavilə bağlamasını təklif edib. Şübhəli şəxs qismində saxlanılan bu şəxsə vəkillər siyahısı təqdim edilməyib və ona özünə siyahıdan vəkil seçmək hüququ izah edilməyib.

14-cü Məhkəmə Prosesində, şübhəli şəxs qismində saxlanılan Sadiq İsmaylova əvvəlcə formal olaraq dövlət tərəfindən vəkil təyin edilib və həmin vəkil onun dindirilməsi zaman iştirak edib. Yalnız sonra ona öz seçdiyi vəkillə müqavilə bağlamaq imkanı yaradılıb.

---

[31] CPM-nin 90-cı və 91-ci maddələri.
[32] Natik Cəbiyev həbs edilmiş və Mütəşəkkil Cinayətkarlığa Qarşı Mübarizə Baş İdarəsində saxlanılmışdır. Sonra isə o, azad edilmiş və ona qarşı heç bir cinayət ittihamı irəli sürülməmişdir.

[33] CPM-nin 90-cı maddəsi
[34] AİİK-in 6(3)(C) maddəsi; ATƏT-in Kopenhagen Sənədi (1990-cı il), bənd 15.7.
[35] CPM-nin 90-cı və 91-ci maddələri.
[36] CPM-nin 53-cü maddəsi

Cinayət işlərində müstəqil olaraq vəkil seçmək hüququnun həyata keçirilməsi üçün başqa bir əngəl Azərbaycanda vəkil qismində çıxış etmək hüququ olan vəkillərin sayının azlığı ilə bağlıdır. Hazırda yalnız Vəkillər Kollegiyasının üzvləri cinayət işlərində vəkil qismində çıxış etmək hüququna malikdilər. Köhnə Kollegiyanın cəmi 370 nəfər üzvü var idi. 1999-cu ildən 2004-cü ilədək Vəkillər Kollegiyasına yeni üzv qəbul edilməyib. Lakin az bir müddət bundan əvvəl, 2004-cü ilin avqust ayında Vəkillər və Vəkillik fəaliyyəti haqqında Qanuna dəyişikliklərin qüvvəyə minməsindən sonra, yeni Vəkillər Kollegiyasının təsisi ilə bağlı Vəkillər Kollegiyasına 36 yeni üzv qəbul edilmişdi (lisenziyalı hüquqşünaslar). Təəsüflə qeyd etmək istəyirik ki, Vəkillər və Vəkillik fəaliyyəti haqqında Qanuna edilən dəyişikliklərin keçid müddəaları üzvləri Ədliyyə Nazirliyi tərəfindən təyin edilən yeni Kollegiyanın Təşkilat Komitəsi tərəfindən özbaşına şəkildə şərh edilib.[37] Bunun nəticəsində təxminən 220 nəfər lisenziyalı hüquqşünas Vəkillər Kollegiyasından kənarda qaldı. Hazırda Kollegiyanın təxminən 400 üzvü var və onlardan ən çoxu 50 nəfər mütəmadi olaraq cinayət işlərinə çıxırlar.

**Məhkəməyə qədərki mərhələdə müdafiəçinin köməyindən istifadə etmək hüququ**

Avropa Məhkəməsi müəyyən edib ki, ədalətli məhkəmə araşdırması hüququ adətən tələb edir ki, təqsirləndirilən şəxsə polis araşdırmasının ilk mərhələsində vəkillə görüşmək imkanı yaradılsın. Məhkəməyə qədərki mərhələdə hüquqi yardımın olmaması ümumilikdə araşdırmanın ədalətliyinə təsir edə bilər. Avropa Məhkəməsi müəyyən edib ki, həbsdən sonra 48 saat ərzində vəkillə görüşmək imkanının yaradılmaması Avropa Konvensiyasının 6-cı maddəsinin pozulması sayılır.[38] Avropa Konvensiyasına uyğun olaraq, Cinayət Prosessual Məcəlləsi nəzərdə tutur ki, cinayət təqibini həyata keçirən orqan tutulmadan dərhal sonra vəkilin iştirakını təmin etməlidir.[39]

Lakin, bir neçə halda təqsirləndirilən şəxslər ittihamların irəli sürüldüyü və ya həbs qətimkan tədbiri seçildiyinə qədər onlara vəkillə görüşmək imkanının yaradılmamasını iddia edirdilər. 13-cü Məhkəmə Prosesində, 9 təqsirləndirilən şəxslərdən yalnız 1 nəfər, İlqar İbrahimoğlu Allahverdiyevın dediyinə görə, ona tutulduğu andan öz vəkili ilə görüşmək imkanı verilib. 15-ci Məhkəmə Prosesində, təqsirləndirilən şəxs Pənah Hüseynov tutulduğu andan, 2003-cü ilin oktyabrın 18-dən oktyabrın 23-dək vəkillə görüşmək imkanından məhrum olması barədə yazılı ərizə ilə məhkəməyə müraciət etdi. O, müdafiəçinin köməyindən istifadə etmək hüququndan imtina etməyə məcbur edildiyindən şikayətlənirdi. Bu işdə təqsirləndirilən şəxs məhkəmədə bəyan etdi ki, Qazax rayonu polis idarəsində saxlanıldığı zaman o, vəkilin köməyindən imtina etməsi barədə ərizəni və polis işçilərinə qarşı gücün tətbiq edilməsinə dair yazılı etirafı imzalamağa məcbur edilmişdi.

15-ci Məhkəmə Prosesində, təqsirləndirilən şəxslərdən bəziləri tutulduqları andan vəkillə görüşmək imkanına malik idilər, lakin bəzi hallarda ilk görüşdən sonra belə imkan verilməmişdir. Hesabatın 5-ci Əlavəsində nəzərdə tutulan cavablar müdafiəçilərin öz təmsil

---

[37] Vəkillər haqqında qanuna təzəliklə qəbul edilən dəyişikliklərin müvafiq keçid müddəalarına əsasən lisenziyası olan hüquqşünaslar yeni kollegiyaya qəbul edilməlidirlər. Ümumilikdə təxminən 260 lisenziyalı hüquqşünasın olmasına baxmayaraq, onlardan yalnız 36 nəfər yeni kollegiyaya qəbul edildi. ATƏT-in Bakı Ofisi öz press relizində Azərbaycanın Vəkillər Kollegiyasının təsis yığıncığı ilə bağlı öz narahatçılığını və çoxlu sayda lisenziyalı hüquşünasın kollegiyanın üzvü olmaq hüququnun təsis yığıncaq tərəfindən tanınmamasını bildirdi.
İyunun 23 və 24-də Bakıda ATƏT, Amerika Birləşmiş Ştatlarının Səfirliyi və Amerika Vəkillər Kollegiyasının Mərkəzi Avropa və Avraziya Huquq Təşəbbüsü (ABA-CEELI) tərəfindən maliyyələşdirilən və təşkil edilən konfrans keçirildi. Konfransda Vəkillər haqqında qanuna edilən dəyişikliklərin həyata keçirilməsi mexanizmləri müzakirə edildi. Konfransın tövsiyələri 6-cı Əlavədə öz əksini tapıb.

[38] Mürey Birləşmiş Krallığa qarşı (1996-cı il). http://cmiskp.echr.coe.int/tkp197/view.asp?item=2&portal=hbkm&action=html&highlight=Murray%20%7C%20United%20%7C%20Kingdom&sessionid=281511&skin=hudoc-en

[39] CPM-nin 90-cı və 153-cü maddələri.

etdiyi şəxslərlə görüşməkdə üzləşdikləri çətinliklərə dair daha ətraflı məlumat nəzərdə tutur. Aşağıdakı cədvəl vəkillə təmsil edilmək hüququna dair suallara verilən cavabları qısa şəkildə əks etdirir.

| **Təqsirləndirilən şəxs** | **Tutulma tarixi (2003-cü il)** | **İlk dəfə vəkillə görüşməyə nə vaxt imkan yaradılıb** |
|---|---|---|
| Rauf Arifoğlu | 27 oktyabr | 27 oktyabr |
| Arif Hacılı | 24 oktyabr | 27 oktyabr |
| İbrahim İbrahimli | 17 oktyabr | 18 oktyabr |
| Pənah Hüseynov | 18 oktyabr | 23 oktyabr |
| Etimad Əsədov | 17 oktyabr | 26 oktyabr |
| Sərdar Cəlaloğlu | 18 oktyabr | 18 oktyabr |
| İqbal Ağazadə | 17 oktyabr | 23 oktyabr |

Dindirmə zamanı vəkilin iştirakı olduqca vacib təminatdır və Cinayət Prosessual Məcəlləsinə əsasən müdafiəçinin iştirakını təmin etmək üçün müstəntiq əvvəlcədən tədbirdər görməlidir.[40]

Aşağıda vəkilin ümumiyyətlə dindirmə zamanı iştirak etməməsi və yaxud dindirmə prosesinin yalnız bir hissəsi zaman iştirak etməsinə dair bir misal gətirilir. 5-ci Məhkəmə Prosesində təqsirləndirilən şəxs Oktay Əhmədov ATƏT-in müşahidəçilərinə iki dəfə, birinci dəfə oktyabrın 17-də şahid qismində Xətai rayon polis idarəsində və 2 gün sonra Mütəşəkkil Cinayətkarlığa qarşı Mübarizə Baş İdarəsində dindirildiyini dedi. Onun dediyinə əsasən birinci dindirmə zamanı ona vəkillə təmsil edilmək hüququ haqqında məlumat verilməmişdir və onu dindirən vəzifəli şəxs ona vəkillə görüşmək imkanı yaratmamışdır.[41]

Bundan əlavə, çoxlu saylı müdafiəçilərin dediyinə əsasən onlara tanınmanın keçirildiyi vaxt və günü haqqında xəbər verilməmişdir və bunun nəticəsində onlar bu istintaq hərəkəti zaman iştirak edə bilməmişdilər. Belə hal ibtidai araşdırmanı həyata keçirən vəzifəli şəxs tərəfindən istintaq hərəkətləri zaman vəkilin iştirakının təmin edilməsini nəzərdə tutan milli qanunvericiliyin pozuntusu kimi qiymətləndirilə bilər.[42]

### *D. TUTULMA VƏ HƏBS BARƏDƏ DİGƏRLƏRİNƏ MƏLUMAT VERMƏK HÜQUQU*[43]

Həbsin və ya azadlıqdan məhrum etmənin hər hansı bir növünə məruz qalan bütün şəxslərin müdafiəsinə dair Prinsiplər Toplusu və həmçinin ATƏT-in öhdəliklərinə əsasən həbs edilən hər bir şəxs həbsdən dərhal sonra öz qohumlarına özü və ya vəzifəli şəxslərin vasitəsilə həbs barədə məlumat vermək hüququna malikdir. Belə məlumatda həbs faktı və onun həyata keçirildiyi yer əks edilməlidir.[44]

[40] CPM-nin 232-ci və 233-cü maddələri.
[41] CPM-nin 232-ci və 233-cü maddələri.
[42] CPM-nin 239-cu maddəsi
[43] ATƏT Bayıl Təcridxanasında saxlanılan bütün təqsirləndirilən şəxslərlə mütamadi və maneəsiz görüşmək imkanına malik idi.
[44] Prinsiplər Toplusunun 16-cı prinsipi; ATƏT-in Moskva sənədi, bənd 23.1(iv).

Buna uyğun olaraq, Cinayət Prosessual Məcəlləsi həbsdən sonra qohumlara xəbər vermək hüququnu nəzərdə tutur.[45] Lakin bu hüquqa bütün hallarda əməl olunmayıb. Misal üçün, 8-ci Məhkəmə Prosesində, təqsirləndirilən şəxslərdən ikisinin dediyinə görə həbs ediləndən sonra 10 gün ərzində onların öz qohumlarına məlumat verməsinə icazə verilməyib. 15-ci Məhkəmə Prosesində, təqsirləndirilən Etimad Əsədov oktyabrın 17-də həbs edilib və onun qohumlarına bu haqqda məlumat verilməyib. Yalnız oktyabrın 26-da ona öz vəkilləri ilə görüşmək imkanı yaradılıb. 15-ci Məhkəmə Prosesində digər təqsirləndirilən şəxslərin də tutulma və onun yeri haqqında üçüncü tərəflərə və vəkillərə məlumat vermək hüququ dərhal təmin edilməyib. Daha ətraflı məlumat 5-ci əlavədə əksini tapıb.

### *E. DƏRHAL HAKİMİN YANINA GƏTİRİLMƏK HÜQUQU*

AİHK-na və ATƏT-in öhdəliklərinə əsasən cinayətin törədilməsində şübhəli bilindiyi üçün həbs edilən şəxs qısa müddətdə hakimin yanına gətirilməlidir.[46] Əsassız tutulma və həbsə qarşı vacib təminat olan məhkəmə nəzarətinin məqsədi həbs üçün kifayət qədər hüquqi əsasların olmasının, şəxsin məhkəməyə qədər həbsdə saxlanmasının zəruriliyinin müəyyən edilməsi və həbs edilən şəxsin normal şəraitdə saxlanmasının təmin edilməsidir. Cinayət Prosessual Məcəlləsinə əsasən, cinayətin törədilməsində şübhəli bilinib tutulmuş şəxslər işin araşdırılması və həbs qətimkan tədbirinin zəruriliyinin müəyyən edilməsi üçün 48 saat ərzində məhkəməyə gətirilməlidir.[47]

Bəzi istisnalarla bütün təqsirləndirilən şəxslərin dediyinə görə onlar bu məsələyə dair heç bir problemlə üzləşməyib və tutulmadan sonra 48 saat ərzində hakimin yanına gətiriliblər. Yuxarıda qeyd edildiyi kimi, məhkəmə nəzarətinin məqsədlərindən biri şəxsin məhkəmə prosesinə qədər həbsdə saxlanması zərurətinin qiymətləndirilməsidir. AİHK-na əsasən məhkəmə prosesinə qədər həbsdə saxlamaya yalnız şəxsin cinayət törətməsinə dair əsaslı şübhənin olduğu halda yol verilir.[48] "Əsaslı" dedikdə şübhənin şəxsin cinayətlə əlaqəsini müəyyən edən obyektiv faktlar və ya məlumata əsaslanması nəzərdə tutulur.[49] Cinayət Prosessual Məcəlləsinə əsasən şəxs cinayətlə əlaqələndirilə bildiyi halda həbs qətimkan tədbirinin tətbiq edilməsinə yol verilir.[50]

Lakin, həbs qətimkan tədbirinin əsaslandırılması üçün yalnız əsaslı şübhənin mövcudluğu kifayət etmir. Cinayət Prosessual Məcəlləsinə əsasən, şəxsin qaçıb gizlənəcəyini, istintaqa və ya məhkəmə araşdırmasına müdaxilə edə biləcəyini, cinayətlərin törətməsini, ictimai təhlükə yaratmasını, üzrlü səbəb olmadan rəsmi çağırışla istintaq və ya məhkəmə orqanlara gəlməkdən və ya digər yolla cinayət məsuliyyət və ya cəzadan boyun qaçıracağını ehtimal etmək üçün təqsirləndirilən şəxsin şəxsiyyəti ilə bağlı kifayət qədər əsasın olduğu halda şəxsə qarşı həbs qətimkan tədbiri seçilə bilər.[51] Cinayət Prosessual Məcəlləsinə əsasən həbs qətimkan tədbirinin zəruriliyi müəyyən edilərkən, bir sıra faktorlar, o cümlədən cinayətin ağırlığı, xarakteri, törədilmə şəraiti və müvafiq şəxsin şəxsiyyəti, yaşı, səhhəti, məşğuliyyəti, ailə, maliyyə və sosial vəziyyəti, himayəsində şəxslərin, daimi yaşayış yerinin olması və əvvəllər cinayətin törədilməsi nəzərə alınmalıdır.[52]

---

[45] CPM-nin 90-cı və 153-cü maddələri.

[46] AİHK-nın 6(3) –cü maddəsi; ATƏT-in Kopenhagen Sənədi, paraqraf 5.15.
[47] CPM-nin 15 –ci, 148, və 156-cı maddələri
[48] AİHK-nın 6(3)-cü maddəsi.
[49] Erdagöz Türkiyəyə qarşı (2001)
http://cmiskp.echr.coe.int/tkp197/view.asp?item=1&portal=hbkm&action=html&highlight=Erdagoz%20%7C%20Turkey&sessionid=281511&skin=hudoc-en
[50] CPM-nin 157-ci maddəsi.
[51] CPM-nin 155-ci maddəsi.
[52] CPM-nin 155-ci maddəsi.

Bəzi istisnalarla seçkidən sonrakı zorakılıqla bağlı cinayətlərin törədilməsində ittiham edilən bütün şəxslər barəsində həbs qətimkan tədbiri təyin edilmişdi. 10 müdafiəçinin dediyinə görə həbs qətimkan tədbirinin seçilməsinə dair məhkəmə prosesləri çox qısa olmuş və təqsirləndirilən şəxsə qarşı həbsin tətbiq edilməsi zəruriliyi kifayət qədər qiymətləndirilməmişdir. Bundan əlavə, həbs haqqında 6 məhkəmə qərarının təhlili göstərir ki, qərarlarda ümumi ifadələr istifadə edilmiş və onlar müvafiq şəxsə dair xüsusi məlumata əsaslanmamışdır. Məhkəmə qərarları şəxsə dair xüsusi hallara istinad etmədən təqsirləndirilən şəxsin qaçıb gizlənməyini, istintaqa və ya məhkəmə araşdırmasına müdaxiləsini, cinayətlərin törədilməsini, üzrlü səbəb olmadan rəsmi çağırışla istintaq və ya məhkəmə orqanlara gəlməkdən boyun qaçırmağının qarşısının alınması məqsədilə həbsin seçilməsini müəyyən edir.

Misal üçün, 13-cü Məhkəmə Prosesində, İlqar Allahverdiyevın müdafiəçisi İlqara qarşı həbsin tətbiq edilməsi haqqda qərarın ləğv edilməsi üçün məhkəməyə vəsatət verdi və vəsatəti onunla əsaslandırdı ki, onun təmsil etdiyi şəxs qaçıb gizlənməyəcək və ya Cinayət Prosessual Məcəlləsində nəzərdə tutulan digər hərəkətləri görməyəcək. Vəsatətin əsaslandırılması üçün müdafiəçi qeyd etdi ki, onun təmsil etdiyi şəxs seçki ilə bağlı zorakılıqdan sonra 2 dəfə xaricdə olub və pressada onun həbs edilməsinin mümkünlüyü haqqda məlumatlara baxmayaraq o, Azərbaycana qayıdıb. O, həmçinin təqsirləndirilən şəxsin daimi ünvanının olmasını və hər dəfə çağırışla prokurorluğa gəlməsini qeyd etdi. Lakin, məhkəmə «ağır cinayətlərin törədilməsində ittiham edildiyininə görə» təqsirləndirilən şəxsin həbsdə saxlanılmasının zəruriliyi barədə nəticəyə gəldi.

15-ci Məhkəmə Prosesində, təqsirləndirilən şəxslərə dair həbs qətimkan tədbirinin seçilməsini əssasız hesab etmək olar. Bütün təqsirləndirilən şəxslər yaxşı xasiyyətli və cəmiyyətdə nüfuzu olan şəxslər kimi xarakterizə edilirdi, onların hamısının daimi ünvanları, ailələri və cəmiyyətlə əlaqələri var idi. Həmçinin, təqsirləndirilən şəxslərin qaçıb gizlənmələrini, istintaqa və ya məhkəmə araşdırmasına müdaxilə edə biləcəyini, cinayətlərin törədilməsini, ictimai təhlükə yaratmasını, üzrlü səbəb olmadan rəsmi çağırışla istintaq və ya məhkəmə orqanlara gəlməkdən boyun qaçırmaqları və digər yolla cinayət məsuliyyəti və ya cəzadan boyun qaçırmaqlarına dair real təhlükənin olmasını təsdiq edə bilən heç bir sübut təqdim edilməmişdi.

Cinayət Prosessual Məcəllәsinə əsasən barələrində həbs qətimkan tədbiri seçilən şəxslər məhkəmə qərarının qəbul edilməsindən sonra 24 saat ərzində müvəqqəti saxlama yerlərindən istintaq təcridxanasına keçirilməlidir. Beləliklə, təqsirləndirilən şəxslər istintaq təcridxanasına keçirilənə qədər 3 gün ərzində müvəqqəti saxlama yerlərində saxlanıla bilər.[53] Bir neçə hal istisna olunmaqla bütün təqsirləndirilən şəxslərin dediyinə əsasən bu qaydaya riayət edilib. İbrahim İbrahimovun yazılı bəyanatda yazdığına görə o, oktyabrın 16-da axşam öz evində həbs edilmişdi və yalnız 7 gün sonra oktyabrın 23-də istintaq təcridxanasına keçirilmişdi.

## *F. MÜDAFİƏNİN HAZIRLANMASI ÜÇÜN KİFAYƏT QƏDƏR VAXTA VƏ İMKANLARA MALİK OLMAQ HÜQUQU*

Müdafiə hüququnun effektiv olmasının təmin edilməsi üçün cinayətdə təqsirləndirilən bütün şəxslər və onların vəkilləri müdafiənin hazırlanması üçün kifayət qədər vaxta və imkanlara malik olmalıdırlar[54]

---

[53] CPM-nin 157-ci maddəsi
[54] AİHK, maddə 6(3)(b).

Müdafiənin hazırlanması üçün kifayət qədər vaxta və imkanlara malik olmaq hüququ hər iki tərəfin proses zamanı öz işinin hazırlaması və təqdim edilməsi üçün bərabər imkanlara malik olmasını tələb edən fundamental «bərabər imkanlar» prinsipinin vacib tərəfidir. Müdafiənin hazırlanması üçün kifayət qədər vaxta və imkanlara malik olmaq hüququ cinayət mühakiməsinin bütün mərhələlərində, o cümlədən məhkəmə araşdırması və apellyasiya mərhələsində həm təqsirləndirilən şəxslərə, həm də onların vəkillərinə şamil edilir.

Avropa Məhkəməsinə əsasən, müdafiənin hazırlanması üçün tələb edilən vaxt işin hallarından, o cümlədən işin mürəkkəbliyindən və mərhələsindən asılıdır.[55] Müdafiənin lazımi səviyyədə hazırlanması üçün müdafiəçi vaxtında təyin olunmalıdır.[56] Bu prinsip müdafiəçinin həbsdə saxlandığı müştərisilə işin hərtərfəli müzakirəsi üçün heç bir məhdudlaşdırma qoyulmadan konfidensial şəraitdə görüşmək imkanını nəzərdə tutur. Vəkilin öz təmsil etdiyi şəxslə görüşməsi üçün hakimin və yaxud prokurorun razılığının tələb edilməsini nəzərdə tutan qayda bu prezumpsiyanın poza bilər. Vəkilin öz təmsil etdiyi şəxslə görüşməsinə prokuror icazə vermək səlahiyyətinə malik olduğu halda bütün məhkəmə araşdırmasının ədalətliyi şübhə altına qoyula bilər.

Müstəqil şəkildə müdafiənin hazırlanması üçün təqsirləndirilən şəxsin bəzi məhdudiyyətlərlə (belə məhdudiyyətlər yalnız ciddi zərurət olduqda qoyula bilər və müəyyən edilən təhlükəyə mütənasib olmalıdır) öz vəkili ilə əlaqə saxlamaq hüququ müdafiənin hazırlanması üçün kifayət qədər imkanlara malik olmaq konsepsiyasının vacib hissəsidir.[57]

Təqsirləndirilən şəxslərin məsuliyyətdən azad edilmək və ya cəzanı azaltmaq üçün sübutlarla tanış olmaq hüququ tanınmalıdır. Təqsirləndirilən şəxslərə səlahiyyətli orqanlar tərəfindən toplanılan və ya toplanıla bilən və müdafiənin hazırlamasında köməklik edə bilən bütün sübutlarla tanış olmaq imkanı yaradılmalıdır. İttiham tərəfinin materialları ilə tanış olmaq hüququ AİHK-sı ilə aydın şəkildə təmin edilməsədə, bu hüquq 6-cı maddənin mahiyyəti ilə əhatə edilir.[58]

Cinayət Prosessual Məcəlləsinə əsasən, tutulmuş şəxsə tutulduğu andan öz vəkili ilə ləyaqətli şəraitdə və «nəzarət altında» təklikdə görüşmək və konfidensial ünsiyyət saxlamaq imkanı yaradılmalıdır.[59] Lakin bu müddəaya baxmayaraq, vəkillərin həbsdə saxlanılan şəxslərlə görüşmək praktikası heç də təkmil deyil. Məhkəməyə qədərki mərhələdə müdafiəçi işlədiyi hüquq məsləhatxanasından onun müqavilə əsasında seçilməsi və ya dövlət hesabına təyin edilməsini təsdiqləyən order və istintaq təcridəxanasına təqdim etmək məqsədilə müstəntiq/prokurordan məktub almalıdır. Bu addımlar atılandan sonra, müdafiəçi öz müştərisilə heç bir məhdudiyyət qoyulmadan görüşə bilər. Praktikada müstəntiqdən məktubun alınmasının tələb edən qayda vəkillə maneəsiz və tez bir zamanda görüşməyə mane olur. Bundan əlavə, bu prosedur Cinayət Prosessual Məcəlləsilə tənzimlənmir və əslində onun bir hüquqi əsası yoxdur, bu isə özbaşınalıq üçün imkan yaradır, xüsusilə müstəntiq tərəfindən müvafiq məktubun verilməsində gecikdirməyə yol verilməsilə bağlı. 9-cu Məhkəmə Prosesində vəkil Mübariz Qarayevin ATƏT-in müşahidəçisinə dediyinə görə təqsirləndirilən şəxs təcridxanaya keçirilərkən, o, yalnız bir neçə gündən sonra onunla görüşmək üçün məktub əldə edə bilib. 6-cı Məhkəmə Prosesində, Ehtiram Cəlilovun

[55] Albert və Le Komt Belçikaya qarşı and X Belçikaya qarşı (1983-cü il) . Həmçinin bax; BMT-nin İnsan Hüquqları Komitəsinin 13-cü Ümumi Şərhi, 9-cu paraqraf, http://www.unhchr.ch/tbs/doc.nsf/(Symbol)/bb722416a295f264c12563ed0049dfbd?Opendocument
[56] X and Y Avstriyaya qarşı, 15 DR 160.
[57] Kempbell və Fell Birləşmiş Krallığa qarşı, 28 iyun 1984-ci il.
[58] Cesper Belçikaya qarşı, 27 DR 61.
[59] CPM-nin 91-ci və 153-cü maddələri.

vəkilinin dediyinə görə o, təyin ediləndən sonra 20 gün ərzində tələb edilən məktubu ala bilməmişdi.

15-ci Məhkəmə Prosesində, sübutlar 22 cild cinayət işi materiallarından, şahid ifadələrindən, vurulmuş zərər barədə materiallardan, zərərçəkənlərin ifadələrindən və 22 video kasetdən ibarət idi. Vəkillərə 2004-cü ilin mart ayınadək bu materiallarla tanış olmaq imkanı yaradılmamışdır. Hətta belə imkan yaradılarkən, təqsirləndirilən şəxslərə işin materiallarının yalnız bir nüsxəsi verilmişdir, və beləliklə, onların öz müdafiələrini hazırlamaq imkanı məhdudlaşmışdır, xüsusilə məhkəmə prosesi zaman, təqsirləndirilən şəxslər ayrı-ayrı kameralarda bir birindən ayrı saxlanılarkən. 15-ci Məhkəmə Prosesində təqsirləndirilən şəxslər dəfələrlə ayrılıqda saxlandıqları və işin materiallarının bir nüsxəsinin aralarında bölməli olduqları nəticəsində şahidlərə veriləcək sualların hazırlanmasında çətinlik çəkdiklərindən məhkəməyə şikayətlənirdilər.

Təqsirləndirilən şəxslərə işin materiallarının yalnız bir nüsxəsinin verilməsilə bağlı olan çətinliklərdən əlavə, müdafiəçilər həmçinin məhkəmə prosesinin ilk mərhələlərində məhkəmə tərəfindən qəbul edilən qərarların nüsxələrinin alınmamasından şikayətlənirdilər. Müdafiəçilərin verdiyi məlumata görə müdafiə tərəfinin qaldırdığı 31 vəsatətə dair məhkəmənin qəbul etdiyi qərarlardan yalnız 8 qərar onlara verilib.

## *G. İŞGƏNCƏLƏRİN VƏ PİS RƏFTARIN QADAĞAN EDİLMƏSİ; İFADƏLƏRİN VERİLMƏSİNƏ VƏ YA TƏQSİRİN ETİRAF EDİLMƏSİNƏ MƏCBUR EDİLMƏMƏK HÜQUQU*

### İşgəncənin qadağan edilməsi

Milli və beynəlxalq standartlara əsasən heç kəs işcəncəyə, qəddar, qeyri-insani və ya insan ləyaqətini alçaldan rəftara məruz qala bilməz.[60] Bu qadağa mütləqdir; işgəncə və ya digər qəddar, qeyri-insani və ya insan ləyaqətini alçaldan rəftara heç bir halda haqq qazandırıla bilməz.

«İşgəncə» dedikdə vəzifəli şəxslər tərəfindən, onların razılığı və ya xəbəri olduğu halda müəyyən məqsədlə ciddi mənəvi və ya fiziki ağrının yetirilməsi nəzərdə tutulur.[61]

«Qəddar, qeyri-insani və ya insan ləyaqətini alçaldan rəftar» dedikdə isə vəzifəli şəxslər tərəfindən, onların razılığı, və ya xəbəri olduğu halda işgəncədən daha yüngül əzablarla nəticələnən hərəkətlər nəzərdə tutulur.[62] Cinayətin törədilməsində təqsirləndirilən şəxsin bilavasitə və ya dolayısı yolla işgəncə və ya digər fiziki və ya psixoloci təsir nəticəsində ifadə verməyə və ya cinayətin törətməsini etiraf etməyə məcbur edilməsinin qadağan olunması fundamental bir hüquqdur. Ehtimal edilən cinayətin hallarından asılı olmayaraq cinayətin törədilməsinə dair etirafın alınması məqsədilə işgəncənin və ya digər qəddar, qeyri-insani və ya insan ləyaqətini alçaldan rəftarın tətbiq edilməsi tamamilə yolverilməzdir.

---

[60] AİHK-nın 3-cü maddəsi, MSHBP-ın 7-ci maddəsi

[61] BMT-nin İşgəncə Əleyhinə Konvensiyasına əsasən, «işgəncə» termini hər hansı bir şəxsə ondan və ya üçüncü şəxsdən məlumat, yaxud etiraf almaq, onu, yaxud üçüncü şəxsi törətdiyi, yaxud törədilməsində şübhələnilən hərəkətə görə cəzalandırmaq, həmçinin onu, yaxud üçüncü şəxsiqorxutmaq və ya məcbur etmək, yaxud hər hansı xarakterli ayrı-seçkiliyə əsaslanan hansısa səbəbə görə dövlətin vəzifəli şəxs, yaxud rəsmi şəxs kimi çıxış edən başqa bir şəxs tərəfindən, yaxud onların təhriki əv ya onların baxəbərliyi, yaxud göz yumması ilə qəsdən güclü fiziki, yaxud əmnəvi ağrı və ya əzab yetirən hərəkətlər deməkdir. Bu tərifə yalnız qanuni sanksiyalar nəticəsində törəyən, bu sanksiyaların ayrılmaz tərkib hissəsi olan, yaxud onların təsadüfən doğurduğu ağrı və əzablar daxil edilmir.

[62] İrlandiya Birləşmiş Krallığa qarşı, 167-1681-ci bəndlər

Azərbaycanda Cinayət Məcəlləsi işgəncənin hüquqi anlayışını nəzərdə tutur və şübhəli və ya təqsirləndirilən şəxs, zərərçəkən və ya şahidin dindirilməsi zamanı məcburi ifadə almaq məqsədilə prokuror, müstəntiq və ya ibtidai araşdırmanı həyata keçirən vəzifəli şəxs tərəfindən və ya onların göstərişi ilə işgəncənin törədilməsini qadağan edir.[63] Cinayət Prosessual Məcəlləsi işgəncənin və fiziki və ya psixoloci gücün tətbiq edilməsini, o cümlədən tibbi vasitələrin istifadəsi yolu ilə, qidadan və tibbi yardımdan məhrum etməklə və digər qəddar, qeyri-insani və ya insan ləyaqətini alçaldan rəftarı qadağan edir.[64] Bundan əlavə, Cinayət Prosessual Məcəlləsi zoru, hədə-qorxunu, aldatmanı və ya sübutların alınmasına yönələn digər qeyri-qanuni hərəkətləri qadağan edir və ifadə verməkdən imtina etmək və həmçinin özünə qarşı ifadə verməmək hüququnu nəzərdə tutur.[65]

**İşgəncənin qarşısının alınması**

Birləşmiş Millətlər Təşkilatının İşgəncə Əleyhinə Konvensiyası işgəncənin qarşısının alınması və onu törətmiş şəxslərin cəzalandırılmasına dair dövlətlərin pozitiv öhdəliyini vurğulayır. İşgəncənin qarşısının alınmasının vacibliyi ATƏT-in dövlətlər üzərinə qoyduğu öhdəliklərdə və İşgəncənin Qarşısının Alınmasına dair Avropa Konvensiyasında qeyd edilib.[66] İşgəncənin qarşısının alınmasına dair Avropa Komitəsi müəyyən hüquq sistemində hansı formada öz əksini tapmaqdan asılı olmayaraq polis tərəfindən saxlanılan şəxslərin tutulduğu andan malik olduğu 3 fundamental hüququ müəyyən edib. [67]

- Saxlanılan şəxsin öz seçdiyi üçüncü şəxsə məlumat vermək hüququ (yuxarıdakı D bölməsinə əsasən ailə üzvü, dost, konsulluq işçisi)

- Yuxarıda əksini tapan C bölməsində göstərildiyi kimi ibtidai araşdarma zamanı müdafiəçinin köməyindən istifadə etmək hüququ;

- Həkimlə görüşmək hüququ, istənilən həkim tərəfindən istədiyi halda müayinə edilmək hüququ daxil olmaqla (polis və ya cəzaçəkmə müssisəsi tərəfindən təyin edilmiş həkim tərəfindən aparılan tibbi müayinədən əlavə)

İnsan Hüquqları Komitəsi - BMT-nin Mülki və Siyasi Hüquqlara dair Beynəlxalq Paktın həyata keçirilməsinə nəzarət edən orqan – bəyan edib ki, həbs edilən şəxslərin müdafiəsi tələb edir ki, həbsə məruz qalan hər bir şəxsə həbsdən sonra qısa bir müddətdə və sonradan mütamadi olaraq həkimlə görüşmək imkanı yaradılsın.[68] ATƏT-ə üzv çıxan bütün dövlətlər tərəfindən hörmət edilməli azadlıqdan məhrum edilmiş şəxslərlə davranışına dair BMT-nin standart minimal qaydaları[69] müəyyən edir ki, azadlıqdan məhrum edilmiş şəxs cəzaçəkmə müəssisəsinə gətirilərkən mümkün qədər tez və sonradan hər dəfə ehtiyac yaranarkən tibb işçisi tərəfindən müayinə edilməlidir[70] BMT-nin İşgəncə üzrə Xüsusi Məruzəçisi tövsiyyə edib ki, tutulan şəxs tutulma zamanı və sonradan mütəmadi olaraq tibbi müayinədən keçirilsin, digər saxlanılma yerinə keçirildiyi halda isə tibbi müayinə məcburi olmalıdırlar.[71]

---

[63] CM 113, 293.1 və 293.2-ci maddələri.
[64] CPM-nin 15-ci maddəsi.
[65] CPM-nin 15, 90 və 91-ci maddələri.
[66] İşgəncə, qeyri-insani və ya insan ləyaqətini alçaldan rəftar və ya cəzanın qarşısının alınması üzrə Avropa Konvensiyası, Avropa Şurası, Avropa Müqavilələr Toplusu (ing.)
[67] İşgəncələrin qarşısının alınması üzrə Komitənin 2-ci Ümumi Hesabatı
[68] İnsan Hüquqları Komitəsinin 20-ci Ümumi Şərhi, 11-ci paraqraf.
[69] Vyana Sənədi (1989) 23.3-cü paraqraf.
[70] 24-cü paraqraf.
[71] İşgəncə üzr Xüsusi Məruzəçinin Hesabatı, UN Doc.A/56/156, July 2001, paraqraf 39(f).

Azərbaycanda tutulan şəxslərin tibbi müayinəsi heç bir normativ-hüquqi aktla tənzimlənmir. Polisdə müvvəqəti saxlanılan və barələrində həbs qətimkan tədbiri seçilən şəxslərin tibbi müayinəsinə dair qaydalara əsasən polis məntəqəsinə və ya digər müvəqqəti saxlanılma yerinə gətirilən hər kəs həkim tərəfindən müayinə edilməlidir. Polisdə saxlanılan şübhəli şəxsin müstəntiqin yanına gətirilərkən və geriyə aparılarkən hər dəfə məcburi yoxlanılması təcrubəsi Azərbaycanda mövcud deyil. Lakin, tutulan və ya həbsdə saxlanılan şübhəli və ya təqsirləndirilən şəxs istənilən vaxt tibbi müayinədən keçməsini tələb edə bilər.[72]

Dindirmə zamanı pis rəftarın qarşısının alınmasına dair daha bir təminat bütün dindirilmələrinin protokollaşdırılmasının zəruriliyində öz əksini tapıb.[73] Azərbaycanda Cinayət Prosessual Məcəlləsi tələb edir ki, dindirmə protokollarında dindirmənin keçirildiyi gün, vaxt, dindirilmənin yeri, müstəntiqin adı, verilən suallar və cavablar və həmçinin təqsirləndirilən şəxsin işin halları ilə bağlı hər hansı açığlaması göstərilsin. Müstəntiq tutulan və ya həbs edilən şəxsə hazır dindirmə protokolunu göstərməlidir və onun tələb etdiyi əlavələri və ya düzəlişləri etməlidir.[74]

**Şikayət etmək hüququ və şikayəti araşdırmaq öhdəliyi**

İşgəncə Əleyhinə Konvensiya işgəncə və ya digər qəddar, qeyri-insani və ya insan ləyaqətini alçaldan rəftarın, hətta rəsmi şikayətin olmadığı halda araşdırmasını və hər kəsə belə hərəkətlərdən şikayət etmək hüququnun, şikayətlərinin araşdırılması hüququnun və sonrakı işgəncə və pis rəftar hallarından müdafiə edilmək hüququnun təmin edilməsini dövlətlərdən tələb edir.[75] Bu hüquq və öhdəliklər milli qanunvericilikdə tanınmalıdır. İşgəncə və ya pis rəftarın digər formalarına dair şikayət etmək və belə şikayətlərin qısa müddətdə araşdırılmasına nail olmaq hüququ həmçinin ATƏT-in öhdəliklərində öz əksini tapıb.[76] Dövlətlər işgəncə və digər pis rəftara «təhrik etmiş, həmin hərəkətləri sifariş etmiş və ya həmin hərəkətlərdə bilavasitə iştirak edən» şəxsləri məsuliyyətə cəlb etməlidir.[77] Avropa İnsan Hüquqları Məhkəməsi (AİHM) dövlətlərin işgəncəylə bağlı bütün «əsaslı iddiaları» araşdırmaq öhdəliyini və bu öhdəliyin həm səmərəli vasitələrdən istifadə etmək hüququ, həm də işgəncəyə məruz qalmamaq hüququ ilə nəzərdə tutulmasını müəyyən edib.[78] Şəxsin polisə gətirilərkən sağlam olduğu, lakin buraxılarkən onun üzərində zədələrin aşkar edildiyi halda, zədələrin səbəbini inandırıcı şəkildə izah etmək öhdəliyi dövlətin üzərinə düşür. “Əgər şəxs dövlət nümayəndələri tərəfindən ciddi dərəcədə pis rəftara məruz qaldığını ağlabatan şəkildə iddia edirsə, dövlət günahkarları müəyyən etmək və cəzalandırmaq məqsədilə müstəqil və səmərəli araşdırma aparmalıdır, o cümlədən şahidlərin dindirilməsi və məhkəmə tibbi ekspertizanın təyin edilməsi yolu ilə» [79]

---

[72] 2004-cü ilin aprel ayından, Azərbaycanın bütün cəzaçəkmə müəssisələrin tibbi işçiləri Ədliyyə Nazirliyinin Məhkəmə Qərarlarının İcrası Baş İdərəsi nəznindən çıxarılıb. İndi onlar birbaşa Ədliyyə Nazirinə hesabat verən departamentin nəznində fəaliyyət göstərirlər.

[73] Kopenhagen sənədi (1990) bənd 23.1(viii), Həbsin və yə Azadlıqdan Məhrum etmənin hər hansı bir növünə məruz qalan bütün şəxslərin müdafiəsi üçün Prinsiplər Toplusu, 23-cü prinsip, İnsan Hüquqları Komitəsinin 20 №-li Ümumi Şərhi,11-ci paraqraf.

[74] CPM-nin 234-cü maddəsi.

[75] İşgəncə və digər qəddar, qeyri-insani və ya insan ləyaqətini alçaldan rəftar və ya cəza əleyhinə BMT-nin Konvensiyasının 12, 13 və 16-cı maddələri

[76] Moskva sənədi (1991) paraqraflar 23.1(ix and x).

[77] İnsan Hüquqları Komitəsinin 20 №-li Ümumi Şərhi, 13-cü və 14-cü paraqraf.

[78] *Assenov və digərləri Bolqarıstana qarşı,* AİHM, 28 oktyabr 1998 il tarixli qərar; *Aksoy Türkiyəyə qarşı,* AİHM, 18 dekabr 1996-cı il tarixli qərar.

[79] Ribiç Avstriraya qarşı, AİHK, 4 dekabr 1995-ci il tarixli qərar; Aksoy Türkiyəyə qarşı, 18 dekabr 1996-cı il; Assenov və digərləri Bolqarıstana qarşı, 28 oktyabr 1998-ci il, Kurt Türkiyəyə qarşı, 25 may 1998-ci il, Akdəniz və digərləri Türkiyəyə qarşı, 31 may 2001-ci il.

BMT-nin İşgəncəyə dair Xüsusi Məruzəçisi bəyan edib ki, əgər tutulmuş şəxs, onun qohumu və ya vəkili işgəncəyə dair şikayətlə müraciət edirsə, bütün hallarda bu şikayət araşdırılmaldır. İşgəncəyə dair şikayətlərə dərhal baxılmalı və ehtimal edilən zərərçəkənə münasibətdə araşdırma aparan və ya onu təqib edən orqana münasibəti olmayan müstəqil orqan tərəfindən araşdırılmalıdır.[80]

Azərbaycanda Cinayət Prosessual Məcəlləsinin 215.3.1-ci maddəsinə əsasən prokurorluq şikayətlərin alınması ilə məşğul olan və həbsdə saxlanılma zaman baş verən işgəncə və pis rəftar hallarını araşdıran orqandır. Məcəllənin 449.3.4-cü maddəsinə əsasən, şübhəli və ya təqsirləndirilən şəxs və ya onların vəkilləri həbsdə baş vermiş işgəncə və ya pis rəftarla bağlı prokurorluğun prosessual hərəkətləri və ya qərarlarından məhkəməyə şikayət verə bilərlər. Beləliklə pis rəftara məruz qaldığını iddia edən şəxs ilk növbədə prokurorluğa müraciət etməli və yalnız sonra prokurorun qərarı və ya prosessual hərəkəti ilə razı qalmadıqda o, məhkəməyə müraciət edə bilər.

**Təqsirləndirilən şəxslərin işgəncəyə və pis rəftara məruz qalmaları barədə iddiaları**

İşgəncəyə və pis rəftara məruz qalmağa dair iddialar iki Məhkəmə Prosesi istisna edilməklə bütün Məhkəmə Proseslərində səsləndirilib. Hüquq mühafizə orqanlarının işçilərinə qarşı 1-14-cü Məhkəmə Proseslərində qaldırılan iddialar əsasən tutulmaya aid idi, lakin həbsdə saxlanılarkən pis rəftara məruz qalma ilə bağlı iddialar da səsləndirilirdi. Məhkəmədə və ya birbaşa ATƏT-in məhkəmə müşahidəçilərinə təsvir edilən pis rəftarın növlərinə yaxın qohumlara qarşı hədə-qorxu, yemək və sudan məhrum etmə, stullara bağlama, tutulan şəxslərin lüt şəkildə dindirilməsi və video lentə alınması, odlu silahla hədə-qorxu, təpiklə və yumruqla vurma, dubinka, butılka və taxta ilə döymə, saatlarla yağışın altında məcburi saxlama, siqaretlə bədənin yandırılması, qeyri-müəyyən maddələrin bədənə yeridilməsi və zorlama ilə hədə-qorxu daxil idi. Təqsirləndirilən şəxslərin təsvirlərindən bəziləri aşağıda qeyd edilir; əlavə məlumat 5-ci Əlavədə göstərilib.

Bunu da qeyd etməyə dəyər ki, aşağıda göstərilən hərəkətlər haqqında məlumat İşgəncə, qeyri-insani və ya insan ləyaqətini alçaldan rəftar və ya cəzanın qarşısının alınması üzrə Avropa Komitəsinin öz 2004-cü il 7 dekabr tarixli hesabatında gəldiyi nəticələrə uyğundur: «malik olduğu məlumata əsasən Komitə belə bir nəticəyə gəlir ki, <u>Azərbaycanda polis tərəfindən saxlanılan şəxslər polisdə saxlanılarkən pis rəftara məruz qalmaq (xüsusilə dindirilmə zamanı) təhlükəsi ilə ciddi şəkildə üzləşirlər və bəzi hallarda ağır dərəcəli pis rəftar və ya işgəncəyə də əl atıla bilər.</u>[81]

- Döymə

"Onlar insanları döyməyə başladılar. Onlar qəddarcasına curnalistləri, mənim qaynatamı, qardaşımı, bacımın ərini, digər qohumlarımı və mənim vəkilimi döydülər. Onlar məni maşına saldılar, orada da məni döyüb təhqir edirdilər. [...] Biz [Mütəşşəkil Cinayətkarlığa qarşı mübarizəyə dair baş idarənin] həyətə çatanda, onlar məni maşından çıxardılar, təhqir etdilər, vurdular və mənə söyüş söydülər. Onlar yerlə məni 5 metrə sürütdülər. Qardaşım və qohumlarım da oraya gətirilmişdilər. Məni yerə atmışdılar və mən başımı qaldırmaq istəyəndə işçilərdən biri ayağını başıma qoydu və mən hərəkət edə bilmədim. Onlar çəkiliş aparırdılar. Məni 4-cü mərtəbəyə, Vaqif Məmmədovun otağına apardılar və 2 saat ərzində təxminən 6-7 nəfər maskalı şəxs məni növbə ilə döyürdülər. [...]"[82]

---

[80] İşgəncəyə dair Xüsusi Məruzəçinin Hesabatı, UN Doc.A/56/156, July 2001, paraqraf 39(d).
[81] Komitənin sənədi (CPT/Inf (2004) 37.
[82] İqbal Ağazadə, məhkəmə protokolu.

“Məni küçədə saxladılar, tutulma zamanı başıma qara torba keçirtdilər və məni maşına saldılar. Məni baş nahiyyəsindən dəmirlə vurdular və mən hüşumu itirdim. ” [83]

“Oktyabrın 18-də saat 7-dən sonra məni yenidən Vaqif Məmmədovun otağına apardılar və orada bir neçə saat ərzində döyüldükdən sonra məni zirzəmiyə saldılar. Orada mənə parçanın içində buz verdilər və tələb etdilər ki, mən onu bədənimin göyərən yerlərə qoyum. […] Onlar belə işgəncənin izlərini gizlətmək istəyirdilər”[84]

“Mən stulun üstündə oturmuşdum və onlar əllərimi bağlayıb məni dubinka ilə döyməyə başladılar. Sonra onlar məni yerə atdılar və onlardan biri mənim dabanlarımı dubinka ilə vurmağa başladı. Kamil Səddədinov məni üzümə vururdu. […] Onlar dabanlarımı bir neçə dəfə fasilə edərək beş dəqiqə ərzində vururdular. Sonra məni kameraya apardılar”[85]

- Yaxın qohumlara qarşı hədə-qorxu

“Onlar dedilər: ‘Əgər sən lazımi sənədləri imzalamasan biz sənin ananı bura gətirəcəyik və sən bilirsən onda nə olacaq? ”[86]

“Mənə dedilər ki, mən onların istədiklərini yazılı ifadəmdə yazmasam qardaşıma qarşı cinayət işi açacaqlar. […] mən imtina etdim və oktyabrın 19-da yalançı ittihamlarla qardaşıma qarşı cinayət işi açdılar və Nərimanov rayon Məhkəməsi qardaşımın 2 aya həbs edilməsini qərara aldı. […] Onlar bacımı həbs edəcəkləri ilə məni hədə-qorxu gəldilər. Bütün bunlardan sonra mən onların istədiyi ifadəni verdim”[87]

- Qidadan və sudan məhrum etmə

“4 gün ərzində gündə bir dəfə səhər tezdən balaca fincanda isti çay verirdilər. 4 gün ərzində cəmi bir dəfə ailəmin gətirdiyi qidanın bir hissəsini verdilər. Hər gün sənədlərə imza atmağa məni məcbur edirdilər. 4 gün ərzində bizi bayıra, təmiz havaya buraxmırdılar. Kameradakı pəncərəni də açmırdılar. Suyu su kranından içirdik.”[88]

- Paltarları soyunmağa məcburetmə

“Onlar bizi dindirməyə çılpaq aparırdılar.”[89]

- Odlu silahla hədə-qorxu

“Oktyabrın 17-də təxminən saat 4:00 Mütəşəkkil Cinayətkarlığa qarşı Mübarizə Baş İdarəsinin təxminən 100 maskalanmış və avtomatla silahlanmış işçisi evimə hücum etdilər. Evdə balaca uşaqların və yaşlı adamların olmasına baxmayaraq, onlar havaya atəş açdılar və tələb etdilər ki, hamı yerə uzansın.”[90]

---

[83] Kənan Rüstəmov, məhkəmə protokolu.
[84] İqbal Ağazadə, məhkəmə protokolu.
[85] İbrahim İbrahimli, məhkəmə protokolu.
[86] Kənan Rüstəmov, məhkəmə protokolu.

[87] Iqbal Ağazadə, məhkəmə protokolu.

[88] Sərdar Cəlaloğlu, məhkəmə protokolu.
[89] Sərdar Cəlaloğlu, məhkəmə protokolu.

[90] Iqbal Ağazadə, məhkəmə protokolu.

“Təxminən 20 nəfər maskalanmış və avtomatlarla silahlanmış şəxs evimin həyətinə girdilər. [...] Onlar məni yerə atdılar və əllərimi bağladılar. Mənim oğullarım və qızım çox həyacanlanmışdılar. [...] Mən gördüm ki, onlardan ikisi silahlarını uşaqlarımın üstünə, biri isə mənim üstümə yönəldir.”[91]

- Həbsdə tək saxlama

“Mən sonra Bayıla keçirildim və orada 40 gün ərzində həbsdə tək saxlanıldım.”[92]

- Qeyri-müəyyən maddələrin inyeksiya edilməsi

“Mən tez-tez hüşumu itirirdim və onlar sudan və iynələrdən istifadə edirdilər ki, mən özümə gəlim.”[93]

- Zorlama hədələri

“Oktyabrın 19-da təxminən saat 6-da onlar məni V. Məmmədovun müavini Səməd Cəfərovun otağına apardılar. [...] O, mənə suallar verdi və mən cavab verməkdən imtina etdim. O, iki nəfəri çağırdı və onlar dubinka ilə dabanlarımı vırmağa başladılar. Səməd Cəfərov dedi ki, onlar mənə qarşı ilk növbədə işgəncə tətbiq edəcəklər və əgər mən ifadə verməsəm, onda onlar mənə qarşı nəlayiq hərəkətlər edəcəklər. [...] Vaqif içəri girdi və çox narazı oldu ki, məni danışmağa məcbur edə bilməyiblər. O, dedi ki, əgər mən belə davam etsəm, onlar mənə qarşı nəlayiq hərəkətlər etsinlər. Mən mənimlə bir kamerada olan şəxslərdən soruşdum, axı niyə onlar istəmirlər ki, Qırmızı Xaç onların işgəncələrə məruz qaldıqlarını bilsin və onlar cavab verdilər ki, onlara deyilib ki, əgər onlar danışsalar sonradan zorlanacaqlar.” [94]

**Şahidlərin işgəncə və pis rəftara məruz qaldıqlarına dair iddialar**

Təqsirləndirilən şəxslərdən əlavə, şahidlər tərəfindən də işgəncələrə və pis rəftara məruz qalmaları barədə çoxsaylı iddialar səsləndirilirdi:

“Onlar məni meydanda tutdular, lakin avtobusda yerin olmamasına görə məni buraxdılar. Növbəti gün səhər təxminən saat 7:00-də polislər yanıma gəldi və dedilər ki, mən komissiyada bəzi sənədləri imzalamalıyam. Lakin onlar məni 30 №-li polis bölməsinə apardılar. [...] Məni döyməyə başladılar. [...] Mən üzümdən qanı yumaq üçün ayaq yoluna gedərkən Vüqar adlı polis işçisi içəriyə girdi, saçımdan tutdu və üzümü güzgüyə vurdu. Sonra o, tapanca çıxartdı, onu ağzıma tərəf yönəltdi və dedi ki, rəis nə desə mən onu yazmalıyam. [...] Onlar istəyirdilər mən yazım ki, Arif Hacılı və Rauf Arifoğlu orada çıxış etdilər və İsa Qəmbər gələ bilmədi, seçkilər isə demokratik olmuşdular. [...] Sonra Vüqar iki barmağımı qapının arasına qoydu və onları sındırdı. Yalnız onda mən seçkilərin demokratik olduğunu yazmağa razılaşdım, ancaq dedim ki, həmin o şəxslər barədə yalan deyə bilmərəm. Sonra məni Fuad Məmmədovun yanına apardılar və o, 32 polis işçisini gətirərək, onlara dedi ki, məni döysünlər və dedi ki, kifayət qədər bərk döyməyənlər işdən qovulacaq. [...] Onlar məni stula oturtdular və dabanımı vurmağa başladılar. Sonra onlar qələmə oxşar bir əşya gətirdilər və ayağıma tok buraxdılar, ağrı başıma vurdu. [...].”[95]

---

[91] Sardar Cəlaloğlu, məhkəmə protokolu.
[92] Sardar Cəlaloğlu, məhkəmə protokolu.
[93] Kənan Rüstəmov, məhkəmə protokolu.
[94] Sərdar Cəlaloğlu, məhkəmə protokolu
[95] Müşfiq Məmmədov, məhkəmə protokolu.

“Mən Azərbaycan Demokrat Partiyasının (ADP) üzvüyəm. 2004-cü ilin oktyabrın 15-də keçirilən seçkilərdə müşahidəçi idim. Oktyabrın 16-da meydanda idim. Həmin gün mən öz doğma şəhərimə, Akstafaya qayıtdım. Noyabrın 3-ü məni Bakıya gətirdilər və gecə saat 3-də 9 №-li polis bölməsinə apardılar. Onların istədiklərini yazmadığım üçün orada döyüldüm”[96]

“Məni məcbur etdilər ki, onların istədiklərinə imza atım. Sonra məni prokurorluğa gətirdilər. Mən orada hər şeyi olduğu kimi dedikdə, mənə dedilər ki, məni geriyə, polis idarəsinə göndərməli olacaqlar. Məni polis idarəsinə gətirdilər və mən yenidən işgəncəyə məruz qaldım. Növbəti gün onlar anamın, bacımın, atamın və qardaşımın şəkillərini gətirdilər və onlar və ya dediklərim arasında seçim etməyi təklif etdilər. Mən onların dediklərinə imza atdım.”[97]

“Mən xəstəxanada 3 gün ərzində qaldım və sonra evə getdim. Mən pis halda idim; gözlərim qanla dolu idi. Evə qayıdandan sonra, səhər tezdən yanıma polislər gəldilər, müstəntiq Cümşüd Qasımovla birlikdə. Onlar dedilər ki, mən onlarla getməliyəm. Dedim ki, tərpənə bilmirəm və xahiş etdim ki, məni götürməsinlər. Onlar buna fikir vermədilər və dedilər ki, məni saat 11:00-də aparacaqlar. [...] Onlar məni Hövsandakı polis bölməsinə apardılar və orada məni 7-8 saat saxladılar. Mən orada baş verənləri danışa bilmirəm. Cümşüd məni otağa apardı və məni söyməklə ifadələr alırdı. [...] Mən həqiqətən nəyin baş verdiyini deyəndə o, qışqırdı və dedi ki, mən bunu belə yaza bilmərəm və mən onun dediyini yazmalıyam. O dedi ki, mənə ən azı 12 il verəcəklər. Mən qorxdum və onun dediklərini yazdım. ”[98]

Məhkəmə prosesində bir neçə şahid verdiyi ifadələrinin yalan olduğunu və onları pis rəftar nəticəsində verdiklərini söylədilər:

“Şəxsi məlumatdan başqa dediklərimin hamısı yalandır, bunu təsir altında yazmışam. Ən çox mənə toxunan odur ki, Cümşüd məni Musavat Partiyasının qərargahına taxta və dəmir parçaların gətirilməsini gördüyümü yazmağa məcbur etdi. [...]”[99]

“Məhkəmədən əvvəl məni dindirmək üçün prokurorluğa çağırdılar. Mən hakimdən xahiş etdim ki, mənim təhlükəsizliyimi təmin etsin. Mən bilirəm ki, məhkəmə zalını tərk edəndən sonra məni həbs edəcəklər. [...] Mən sığınacaq almaq üçün 3 səfirliyə müraciət etmişəm. [...] Mən təsir altında bu şəxslərə qarşı ifadə verməyimdən xəcalət çəkirəm.”[100]

“Onlar məni məcbur edirdilər ki, Rauf Arifoğluna qarşı ifadə verim. Deyim ki o, daş və taxta parçaları paylayırdı. İfadəmin əksər hissəsi yalandır. Mən təqsirləndirilən şəxslərdən heç birini meydanda görməmişəm. [...] Onlar məni 14 ilə azadlaqdan məhrum etməklə qorxutdular. [..] Mən ifadəni özüm yazmamışdım, sadəcə ona imza atdım. Onlar məni məcbur etdilər.”[101]

“Onlar mənə butılka ilə hədə-qorxu gəldilər. Bacımla anamı da hədə-qorxu gəldilər. Polis Sərdar Cəlaloğluya qarşı ifadə almaq üçün məni döyürdü və mənə təsir etməyə çalışırdı. [..] Demək olar ki, hər şey yalandır. [...] Mən ibtidai araşdırma zamanı verdiyim ifadədən imtina

[96] brak przypisu!
[97] Şəmsi Qəhrəmanov
[98] Nəhayət Qasımova
[99] Nəhayət Qasımova
[100] Nahid Məmmədov
[101] Novhal Nağıyev

edirəm, ona görə ki, onu təsir altında vermişəm. Əsasən ayaqlarımdan və qabırğalarımdan vururdular."[102]

**İşgəncə və pis rəftara yol verdikləri iddia edilən şəxslər və yerlər**

Təqsirləndirilən şəxslər və şahidlərin təsvir etdiyi pis rəftar və işgəncə hallarına müvvəqəti saxlama yerlərində yol verilib. Bayıl Təcridxanasında işgəncə və ya pis rəftara yol verilməsi barədə heç bir şikayət olmamışdi. Pis rəftara dair iddialar əsasən polis işçilərinə qarşı və bəzi hallarda aşağıda qeyd edilən müvəqqəti saxlama yerlərinin başçıları və onların müavinlərinə qarşı səsləndirilirdi:

- Daxili İşlər Nazirliyinin Mütəşəkkil Cinayətkarlığa Qarşı Mübarizə Baş İdarəsi
- Əzizbəyov Rayon Polis İdarəsi
- Bakı şəhəri Baş Polis İdarəsi
- Binəqədi Rayon Polis İdarəsi
- Qəbələ Rayon Polis Şöbəsi
- Qazax Rayon Polis Şöbəsi
- Baş Prokurorluq
- Qobustan rayon prokurorluğu
- Xətai rayon Polis İdarəsi
- Nərimanov rayon Polis İdarəsi
- Nəsimi rayon Polis İdarəsi
- Bakı şəhəri 30 №-li polis bölməsi
- Səbail rayonu Polis İdarəsi
- Sabirabad rayon Polis Şöbəsi
- Yasamal rayon Polis İdarəsi
- Zaqatala rayon Polis Şöbəsi

### *H. DÖVLƏTİN İŞGƏNCƏ VƏ PİS RƏFTARA DAİR İDDİALARI ARAŞDIRMAQ ÖHDƏLİYİ*

İşgəncə və ya pis rəftara dair iddialarla üzləşən dövlət orqanlarının üzərlərinə müəyyən tədbirlər görmək və cinayətkarları cəzalandırmaq öhdəliyi düşür.[103] Hakimlər işgəncə iddialarının araşdırılmasına dair xüsusi məsuliyyət daşıyırlar. İşgəncənin qarşısının alınmasına dair Avropa Komitəsi bu öhdəliyin məzmununu açıqlayır. Cinayətin törədilməsində şübhəli sayılan şəxslər polisdə saxlanılmalarının başa çatdığı zaman hakimin yanına gətirilərkən pis rəftara məruz qalmaqlarını iddia edəndə, hakim bu iddiaları yazılı şəkildə qeydə alır, dərhal məhkəmə tibbi ekspertizasını təyin edir və belə iddiaların ciddi araşdırılmasının təmin edilməsi üçün lazımi tədbirlər görür. Belə yanaşma müvafiq şəxsin bədənində aydın görünən xəsarət izlərinin olmasından asılı olmayaraq tətbiq edilməlidir. Pis rəftara dair açıq şikayətin olmadığı halda belə, hakim məhkəməyə gətirilən şəxsin pis rəftara məruz qalmasını ehtimal etmək üçün digər əsasların olduğunu nəzərə alaraq məhkəmə tibbi ekspertizasını təyin etməlidir.[104]

Əksər hallarda işgəncəyə dair sübut əldə etmək çətindir və işgəncənin müəyyən edilməsinə dair sübutetmə prinsipləri belə iddiaların əsaslandırılmasına dair çətinlikləri nəzərə alır. Sübutetmə yükünə münasibətdə, İşgəncəyə dair Xüsusi Məruzəçi tövsiyyə edib ki, təqsirləndirilən şəxs tərəfindən məhkəmə prosesi zamanı işgəncəyə məruz qaldığı barədə

[102] Şəmsi Qəhrəmanov

[103] Kopenhagen sənədi (1990) bənd 16.6 və 16.7, Budapeşt sənədi (1994) 20-ci bənd
[104] Bənd 45, 12-ci Ümumi Hesabatdan çıxarış [CPT/Inf (2002) 15].

məlumat veriləndə, sübutetmə yükü ittiham tərəfinin üzərinə düşür və o, etirafın (və ya təqsirləndirilən şəxsə qarşı digər sübutların) qanunsuz vasitələrlə, o cümlədən işgəncə və ya oxşar pis rəftar nəticəsində alınmamasını heç bir əsaslı şübhəyə yer saxlamayan şəkildə sübut etməlidir.[105] *Aksoy Türkiyəyə qarşı* işində, Avropa İnsan Hüquqları Məhkəməsi bu prinsipi daha da inkişaf etdirib və müəyyən edib ki, "əgər şəxs polisə gətirilərkən səhhətinin normal olduğuna baxmayaraq, buraxılan zaman onun üzərində xəsarətlər aşkar edilirsə, belə halda dövlət xəsarətin yaranmasını ağlabatan şəkildə izah etməlidir, əks halda, 3-cü maddə pozulur [AİHK]." [106] Nəhayət, sübutetmə qaydalırına dair, İşgəncə Əleyhinə Konvensiyanın 15-ci maddəsinə əsasən Dövlətlər təmin etməlidirlər ki, işgəncə nəticəsində verilən ifadə işgəncədə təqsirləndirilən şəxsə qarşı icraat istisna olunmaqla heç bir digər icraatda sübut kimi istifadə edilməsin.

Azərbaycanda dövlət orqanları tərəfindən bu öhdəliklərin yerinə yetirilməməsi bu hesabatda göstərilən səbəblərə görə ciddi narahatçılıq doğurur. Xülasən, təqsirli şəxslərin müəyyən edilməsi və cəzalandırılmasını və şikayətçilərin iştirakını təmin edən heç bir effektiv və hərtərəfli araşdırma, nə məhkəmə proseslərinə qədər, nə də ki məhkəmə prosesləri zaman həyata keçirilməyib. Bu baxımdan, 15-ci Məhkəmə Prosesində təqsirləndirilən şəxslərin və şahidlərin səsləndirdiyi işgəncə hallarının hakimlər tərəfindən kifayət qədər araşdırılmaması xüsusi narahatçılıq doğurur. Qaldırılan məsələlərin araşdırılmasına hakimlərin münasibəti və işgəncə hallarına dair sübutların məhkəmə tərəfindən rədd edilmə tərzi yuxarıda qeyd edilən sübut etmə prinsiplərinə əməl olunmamasını nümayiş edir. 15-ci prosesdə məhkəmənin yanaşmasının daha ətraflı təhlili 4-cü əlavədə öz əksini tapıb.

## *I. İŞGƏNCƏ VƏ YA DİGƏR PİS RƏFTAR NƏTİCƏSİNDƏ ALINAN İFADƏLƏRİN SÜBUT QİSMİNDƏ QƏBULEDİLMƏZLİYİ*

İşgəncə Əleyhinə Birləşmiş Millətlər Təşkilatının Konvensiyası işgəncə nəticəsində verilən ifadələrin məhkəmə prosesi zaman istifadəsini qadağan edir.[107] Bundan əlavə Cinayət Prosessual Məcəlləsinə əsasən, zor, hədə-qorxu, yalan, işgəncə və ya digər qəddar, qeyri-insani və ya insan ləyaqətini alçaldan hərəkətlər nəticəsində əldə olunmuş məlumat, sənədlər və digər əşyalar sübut kimi istifadə edilə bilməz.[108]

İşgəncə və pis rəftara dair iddialar 11-ci və 12-ci Məhkəmə Prosesləri istisna olunmaqla, bütün Məhkəmə Proseslərində səsləndirilib. Bütün hallarda hökmlər işgəncə iddialarının sübuta yetirilməməsini bəyan edir. Yalnız 5-ci Məhkəmə Prosesində hökmdə işgəncə iddialarına dair münasibət bildirilmir.

Bundan əlavə, söylənilənlərə əsasən təsir altında verildiyi ifadələr 2, 3, 4, 7, 8, 10,13 və 15-ci Məhkəmə Proseslərində məhkəmə tərəfindən sübut qismində qəbul edilmişdir. Müvəqqəti saxlama yerlərində işgəncə və digər pis rəftar nəticəsində ifadələrin verilməsinə dair müdafiəçilərin çoxsaylı vəsatətlərinə məhkəmələrin cavabı tibbi eksperizaların təyin edilməsi və hüquq mühafizə orqanlarının işçilərinin şahid qismində məhkəməyə çağırılmasından ibarət idi.

**Tibbi müayinə**

İşgəncə iddialarına Məhkəmə Proseslərinin heç birində dərhal reaksiya verilməmişdir. Ən azı on halda məhkəmə heyəti ilk dəfə məhkəmə prosesində işgəncə iddiası qaldırılarkən

[105] Aralıq hesabat A/56/156, 3 iyul 2001-ci il, bənd 39(j).
[106] *Aksoy Türkiyəyə qarşı*, 18 dekabr 1996-cı il
[107] İƏK-nın 15-ci maddəsi
[108] CPM-nin 125-ci maddəsi

həmin gün tibbi müayinəni təyin etmədi. Tibbi ekspertizanın təyin edildiyi bütün hallarda, tibbi müayinə nəticəsində heç bir xəsarət əlaməti aşkar edilməyib, xəsarətlərin tutulmadan əvvəl yaranması və ya xəsarətlərin təqsirləndirilən şəxslərin özlərinin hərəkətləri nəticəsində vurulması müəyyən edilib.

Bəzi hallarda müdafiəçilər işcəncə iddialarının araşdırılmasını hakimdən xahiş etməyib. Lakin, pis rəftar açıq şəkildə iddia edilməsədə, məhkəməyə gətirilən şəxsin pis rəftara məruz qalmasını düşünməyə əsas verən digər halların olduğu halda, hakim dərhal məhkəmə tibbi ekspertizasını təyin etməlidir. [109]

**Şahidlər**

İşgəncə ilə bağlı iddialara dair ifadə vermək üçün məhkəməyə çağırılan şahidlər işgəncələrin tətbiqində günahlandırılan vəzifəli şəxslər və hüquq mühafizə orqanlarının digər nümayəndələrindən ibarət idi. İşgəncələrin tətbiqində günahlandırılan bütün vəzifəli şəxslər işgəncə və ya pis rəftara yol verdiklərini inkar etdilər. Araşdırmanın nəticələri müəyyən edilənə qədər onlardan heç biri vəzifədən müvəqqəti olaraq kənarlaşdırılmadı. Bir neçə halda Bayıl Təcridxanasında təqsirləndirilən şəxsləri müayinə edən tibb işçiləri də şahid qismində çağırılmışdı.

15-ci Məhkəmə Prosesində işgəncəyə məruz qaldıqlarını iddia edən şahidlərin ifadələrini sübut qismində qəbul edib-etməməyi müəyyənləşdirmək üçün məhkəmənin seçdiyi yanaşma yanlış olmuşdur. Bu şahidlərin məhkəməyə verdikləri ifadələr əsasında heç bir ədalətli məhkəmə, müəyyən şübhə olmadan, belə bir işgəncənin baş vermədiyindən əmin olduğuna dair nəticə çıxarmamalı idi. Məhkəmə, işgəncə iddiaları haqqında lazımi araşdırma aparmamış və əvvəlki məhkəmənin qərarlarına həddən artıq əsaslanmışdır. Əslində məhkəmə, digər qərarların əsasında duran səbəblər üzrə dindirmə aparmadan və ya digər məhkəmələrdə məsələləri müəyyənləşdirərkən verilmiş ifadələri ətraflı şəkildə araşdırmadan və həmin ifadələri 15-ci Məhkəmə Prosesinin işində ona təqdim olunmuş ifadələrlə müqayisə etmədən, özünün də digər məhkəmələrlə eyni qərarlar çıxarmağa məcbur olduğunu hesab etmişdir.

## *J. AÇIQ MƏHKƏMƏ ARAŞDIRMASI HÜQUQU*

Açıq məhkəmə araşdırması hüququ ədalətli mühakimə hüququnun əsas təminatıdır. Avropa Konvensiyası, habelə ATƏT-in öhdəliklərində göstərilmişdir ki, xalqın nümayəndələri bütün dinləmələrdə iştirak edə bilər. Bu zaman bir sıra məhdud saylı hallar istisna olunmuşdur ki, onların da seçki sonrası zorakılıqla heç bir əlaqəsi yoxdur.[110] Bundan başqa, CPM-də də göstərilmişdir ki, dinləmələr dövlət, peşə, kommersiya, şəxsi və ailə sirləri qorunmaqla, ictimaiyyətin iştirakilə keçirilməlidir.[111] Seçki sonrası bütün işlər üzrə bütün məhkəmə dinləmələri, guya ki, ictimaiyyətin iştirakilə keçirilmişdir. Bununla belə, bu hüquqa çox sayda məhdudiyyət və maneələr tətbiq olunmuşdur.

Məsələn, 15-ci Məhkəmə Prosesində məhkəmə zalına giriş ciddi nəzarət altında saxlanılır və məhkəmənin mühafizə işçiləri tərəfindən məhdudlaşdırılırdı. Məhkəmə zamanı təqsirləndirilən şəxslər və onların vəkilləri dəfələrcə məhkəməyə öz etirazlarını bildirərək, məhkəmə zalında boş yerlərin olmasına baxmayaraq, ictimaiyyət üzvlərinin məhkəmə zalına

---

[109] CPT/Inf/E (2002) 1, Rev. 2003, İşgəncənin Qarşısının Alınması üzrə Avropa Komitəsi, səh. 14, paraqraf 45 (ing), http://www.cpt.coe.int/en/docsstandards.htm

[110] İHAK, Maddə 6(1); Kopenhagen Sənədi (1990), abzas 5.16.

[111] CPM, Maddə 27

girməsinə maneələrin törədildiyini demişdir.

1-ci Məhkəmə Prosesində ilkin dinləmə zamanı, ATƏT müşahidəçiləri də, bir çox digər şəxslər kimi, məhkəmə zalına girə bilməmişdir. Bu ilkin çətinliklərdən sonra, ATƏT seçki sonrası zorakılıqla əlaqədar cinayət məsuliyyətinə cəlb olunmuş şəxslərin məhkəməsində müşahidə aparmaq niyyətində olduğu barədə Ağır Cinayətlərə dair İşlər üzrə Məhkəmənin sədrinə və Ədliyyə Nazirliyinə məlumat vermişdir. Bundan sonra, dinləmələrdə iştirak etməklə əlaqədar ATƏT müşahidəçiləri heç bir çətinliklə üzləşməmişdir (4-cü Məhkəmə Prosesində iki halda məhkəmə işçisinin ATƏT müşahidəçilərini məhkəmə zalına buraxmadığı bir məhkəmə prosesi istisna olmaqla).

Məhkəmələrin ictimaiyyətin iştirakilə aparılmasına baxmayaraq, vətəndaşların məhkəmə iclaslarında iştirakına bir sıra amillər mənfi təsir göstərmişdir:

- iştirakçılar üçün nəzərdə tutulmuş yerlər həddən artıq tutumsuz idi və iştirak etmək istəyənlərin hamısı ora sığmırdı, bəzi proseslərdə isə təqsirləndirilən şəxsin qohumları zala daxil ola bilməmişdi. Təqsirləndirilən şəxslərin 7-10 nəfərdən ibarət qruplarda dindirilməsi bu problemi daha da ağırlaşdırırdı.
- Ümumiyyətlə, iştirak etmək istəyənlər yalnız öz şəxsiyyət vəsiqələrinin surətlərini təqdim etdikdən və onlar haqqında şəxsi məlumatlar məhkəmə işçiləri tərəfindən qeyd edildikdən sonra, Ağır Cinayətlərə dair İşlər üzrə Məhkəmənin zalına buraxılırdılar.[112]
- Ağır Cinayətlərə dair İşlər üzrə Məhkəmə, siyahıda olan məhkəmə iclasları barədə nə əvvəlcədən məlumat asır, nə də ki bu barədə başqa yolla məlumat verirdi. Bunun nəticəsi olaraq, ATƏT, növbəti məhkəmə iclasının yeri və vaxtı barədə məlumat almaq üçün məhkəmə ilə telefonla əlaqə saxlamalı olurdu. İki halda isə, məhkəmə katibləri belə məlumat vermək səlahiyyətində olmadıqlarını bildirmişdir.
- Bəzən müxalifət qəzetlərinin, o cümlədən «Yeni Müsavat» və «Bakı Xəbər» qəzetlərinin müxbirləri məhkəmə işçiləri tərəfində məhkəmə zalına buraxılmırdı. Bəzi hallarda, heç bir əsas olmadan, jurnalistlərə içəri daxil olmaq qadağan edilir, digər hallarda isə içəridə yerin olmadığı bəhanə gətirilirdi.

### *K. MÜSTƏQİL VƏ QƏRƏZSİZ MƏHKƏMƏYƏ OLAN HÜQUQ*

Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Pakta, Avropa Konvensiyasına və ATƏT-in öhdəliklərinə əsasən, hər kəs qanun əsasında yaradılmış müstəqil və qərəzsiz məhkəmə tərəfindən mühakimə olunmaq hüququna malikdir.[113] Müstəqillik və qərəzsizlik tələbləri bir-birilə qarşılıqlı əlaqə təşkil edir.

Məhkəmənin müstəqil olub-olmadığını müəyyən etmək məqsədilə, Avropa Məhkəməsi həmin orqanın strukturunu, səlahiyyətlərini və tərkibini, o cümlədən hakimlərin təyin olunması qaydasını və fəaliyyət müddətlərini, kənar müdaxilələrə qarşı nəzərdə tutulmuş təminatların mövcudluğunu və ümumilikdə müstəqillik konsepsiyasını nəzərdən keçirir. «Müstəqillik» meyarını təmin etmək məqsədilə, məhkəmə üzvlərinin icra strukturu tərəfindən təyin edilməsi öz-özlüyündə Avropa Konvensiyasının müddəalarını pozmuş olmur.[114] Fəaliyyət müddətinə və kənar müdaxilələrə qarşı təminatlara gəldikdə isə, Avropa Məhkəməsi belə qərara gəlmişdir ki, 6 illik fəaliyyət müddəti və bu müddət ərzində hakimlərin dəyişməz qalması məhkəmənin müstəqilliyi üçün kifayət qədər təminat verə

---

[112] CPM, Maddə 310: «... Məhkəmə iclasının keçirilməsi zamanı təhlükəsizliyin təmin edilməsi məqsədilə məhkəmə iclasına sədrlik edənin göstərişi əsasında iclas zalına buraxılan şəxslərin şəxsiyyətlərini təsdiq edən sənədləri və əşyaları yoxlanıla bilər.»
[113] MSHBP, Maddə 14; İHAK, Maddə 6(1); Vyana Sənədi (1989), abzas 13.9
[114] Campbell and Fell v. the United Kingdom (1984)

bilər.[115]

Məhkəmənin bitərəf olduğunun yəqin edilməsi həm subyektiv, həm də obyektiv sualları ortaya çıxarır. Subyektiv qərəzsizliyin təsdiq edilməsi üçün, Avropa Məhkəməsi qərəzliliyin faktiki sübut olunmasını tələb edir; hakimin qərəzliliyini təsdiq edən faktlar olmadığı müddətdə, o, qərəzsiz hesab olunur.[116] Qərəzsizlik testinə gəldikdə isə, Avropa Məhkəməsi aydın şəkildə göstərmişdir ki, barəsində qərəzliliklə bağlı qanuni səbəbin ortaya çıxdığı hər-hansı bir hakim öz vəzifəsindən istefa verməlidir.[117] Təqsirləndirilən şəxs qərəzsizliklə bağlı məsələ qaldırdıqda, bu məsələ, «açıq-aşkar həqiqətdən uzaq» olmadığı halda araşdırılmalıdır.[118] 15-ci Məhkəmə Prosesi ilə əlaqədar olaraq, məhkəmənin iki üzvü əməllərin ibitidai istintaqını və ya cinayət təqibini həyata keçirən və ya keçirmiş şəxslərlə əlaqəsinin olduğunu bildirməmişdir. Bu əlaqənin bir nəticəsi kimi hakimlərin qərəzli olduğunu göstərən heç bir fakt təqdim olunmadığından, adıçəkilən hakimlərin həmin əməllərin ibitidai istintaqını və ya cinayət təqibini həyata keçirən şəxslərlə əlaqəsinin olduğunu açıqlamaması kifayət etmirdi. Təqsirləndirilən şəxslər və onların vəkilləri tərəfindən məhkəmənin diqqətinə çatdırıldıqdan əvvəl bu açıqlamanın edilməməsi faktı hakimlərin qərəzliliyinə inam doğurmamışdır.

### Müstəqillik

Apellyasiya məhkəmələrinin və Ali Məhkəmələrin hakimləri on illik müddətə təyin olduqları halda, digər hakimlər beş illik müddətə təyin olunurlar. Konstitusiyaya[119] və Məhkəmələr və Hakimlər haqqında Qanuna əsasən, aşağı hakimlər bilavasitə prezident tərəfindən, Konstitusiya Məhkəməsinin, Ali Məhkəmənin və apellyasiya məhkəmələrinin hakimləri isə prezidentin təqdimatı əsasında parlament tərəfindən təyin olunur. Öz fəaliyyət müddətləri ərzində hakimlər toxunulmazlıq əldə edir və dəyişməz qalır. Bununla belə, Ali Məhkəmənin rəyini aldıqdan sonra, prezident cinayət əməli törətmiş hakimin işdən çıxarılması təklifi ilə parlamentə müraciət edə bilər. Bu zaman, Konstitusiya Məhkəməsinin, Ali Məhkəmənin və apellyasiya məhkəmələrinin hakimləri 125 deputatın 83 səs çoxluğu, digər hakimlər isə 63 səs çoxluğu ilə işdən azad oluna bilər.

Təcrübədə isə, məhkəmə islahatları sahəsində ölkə rəhbərliyinin atdığı addımlara baxmayaraq (o cümlədən, hakimlərin təyin olunması prosedurlarının təkmilləşdirilməsi ilə bağlı Prezidentin 17 yanvar 2000-ci il tarixli fərmanı), Azərbaycanda hakimlərin təyin olunması məsələsi problematik olaraq qalır. Hakimlərin peşəkarlığının təmin olunması məqsədilə, 2000-ci ilin aprel ayında attestasiya imtahanları keçirilmişdir. Bu imtahanlarda əldə olunmuş ballar açıqlanmamışdır ki, bu da hakimlərin təyin olunması prosedurlarında hələ də tərəfkirliyin olmasını iddia etməyə imkan verir. 2001-ci ildə İnsan Hüquqları Komitəsi tətbiq edilən seçmə prosedurlarında mövcud olan çatışmazlıqlar barədə hesabatlar, hakimlərin fəaliyyət müddəti ərzində onların təhlükəsizliyinin təmin olunmaması, xüsusilə də hakimlərin təyin edilməsi ilə bağlı olan və onların dərəcəsinə təsir göstərən qərarların rəhbər orqanlar tərəfindən qəbul olunması və beləliklə də hakimlərin siyasi təzyiqlərə, onların müstəqilliyinin isə təhlükəyə məruz qalması faktı ilə əlaqədar narahat olduğunu bildirmişdir.[120] Bundan başqa, öz 1305 (2002) saylı qətnaməsində, Avropa Şurasının Parlament Assambleyası Azərbaycan hökumətini hakimlərin təyin olunması prosedurlarında obyektivliyi gücləndirməyə çağırmışdır.

---

[115] Le Compte, Van Leuven, De Meyere v. Belgium (1981)
[116] Hauschildt v. Denmark (1989)
[117] Piersack v. Belgium (1982)
[118] Remil v. France (1996)
[119] Azərbaycan Respublikasının Konstitusiyası, Maddə 109(9)
[120] BMT, İnsan Hüquqları Komitəsi, Azərbaycan, Sənəd CCPR/CO/73/AZE (2001)

**Qərəzsizlik**

Qərəzsizlik, qabaqcadan hasil olan qənaətin və ya qərəzin olmamasıdır. Bu, məhkəmənin təqsirləndirilən şəxsin təqsirli olması ilə əlaqədar əvvəlcədən hasil olan və beləliklə də, prosesin nəticələrinə təsir göstərən fikrə gəlməli olmamasını ifadə edir. «Qərəzsiz» məhkəmə təminatı «müstəqil» məhkəmə təminatı ilə sıx və qarşılıqlı şəkildə əlaqədardır. Hakimin ittiham prosesində bilavasitə və ya dolayı marağı olduğuna inanmağa əsas olduqda, habelə onun qərəzsizliyinə şübhə salan digər hallarda ona edilən etiraz əsaslı hesab edilə və qeyd-şərtsiz qəbul oluna bilər.[121]

Məhkəmənin qərəzsizliyini şübhə altında qoyan bir sıra misallar mövcuddur.

Bir çox hallarda təqsirləndirilən şəxslər aclıq elan etməklə və öz vəkilərindən imtina etməklə, onların fikrincə, məhkəmənin qərəzliliyinə qarşı etiraz aksiyası keçirmişlər. 3-cü Məhkəmə Prosesində, təqsirləndirilən şəxslərdən bir neçəsi sədrlik edənin CPM-in tələblərinə zidd olaraq, vəkillərin bütün təkliflərini heç bir əsas göstərmədən rədd etməsini əsas gətirərək, 12 fevral 2003-cü il tarixli prosesdə iştirakdan imtina etmişdir. Sədrlik edən onların etirazlarını rədd etmiş və Cinayət-Prosessual Məcəlləsinin 109.1-ci Maddəsini əldə rəhbər tutaraq, bu etirazların əsaslı olmadığını bildirmişdir.

15-ci Məhkəmə Prosesinə gəldikdə, hakimlər dövlət ittihamçısının işə fasilə verilməsi ilə bağlı təkliflərini nadir hallarda rədd edirdi (yalnız fasilənin əsaslandırılması mümkün olmadığı hallarda). Xüsusilə də məhkəmə, ittiham tərəfinin öz yekun nitqini hazırlamaq məqsədilə işə on günlük fasilə verilməsi barədə irəli sürdüyü təklifi, hətta ittiham tərəfindən belə bir uzun muddətli fasilənin səbəbini soruşmadan belə, təmin etmişdir. Təqsirləndirilən şəxslər belə bir uzun fasiləyə dair öz narazılıqlarını bildirdilər, lakin məhkəmənin nə təqsirləndirilən şəxslərin bu narazılıqlarına, nə də onların belə uzun fasilə nəticəsində gələ biləcəkləri qərəzli qənaətə məhəl qoyduğu görünürdü.

Yenə də, 15-ci Məhkəmə Prosesilə əlaqədar olaraq, məhkəmə bir çox hallarda təqsirləndirilən şəxslər və ya onların vəkilləri tərəfindən irəli sürülən təkliflərə dair qərar verməkdən boyun qaçırır, əvəzində belə təkliflərin təxirə salınaraq, işin sonrakı gedişatında baxılacağına dair qərarlar verirdi. Bunlardan xüsusi narahtlıq doğuranı da müdafiə tərəfinin xahişilə çağırılmasına məhkəmənin icazə verəcəyi şahidlərin sayına dair əhəmiyyətli bir sualın hakimlərin qərarı əsasında təxirə salınması idi. Bu da, müdafiə tərəfinin müdafiə zamanı hansı sübutlar təqdim edə biləcəyini bilməməsi ilə nəticələnmişdir. Sadəcə olaraq, bu, təqsirləndirilən şəxslərin öz işlərini hansı yolla təqdim edə biləcəklərinə qərəzli təsir göstərə bilərdi. Bundan başqa, məhkəmə müdafiə tərəfinin tələbi ilə çağırılan şahidlərin sayını artıq məhdudlaşdırmışdır ki, bu da İHAK-ın 6-cı Maddəsinin tələblərinin pozulması kimi qəbul oluna bilər.

Təqsirləndirilən şəxslər tərəfindən irəli sürülən və məhkəmənin rədd etdiyi təkliflərin ətraflı xülasəsi 5-ci Əlavədə verilmiş sorğu formalarında əks olunmuşdur.

## *L. ƏDALƏTLİ MƏHKƏMƏ ARAŞDIRMASI HÜQUQU*

Ədalətli məhkəmə araşdırması hüququ ədalətli mühakimə konsepsiyasının özəyini təşkil edir.[122] Ədalətli məhkəmə araşdırması hüququ ədalətli mühakimənin yerli və beynəlxalq standartlarda göstərilmiş bütün prosessual və digər təminatlarını özündə cəmləşdirir. Cinayət işi üzrə məhkəmələrdə ədalətli məhkəmə hüququ bir sıra konkret hüququ, o

[121] CPM, Maddə 109
[122] MSHBP, Maddə 14; İHAK, Maddə 6(1); Vyana Sənədi (1989), abzas 13.9

cümlədən həm də təqsirsiz hesab edilmək hüququnu və özünü şəxsən və ya vəkil vasitəsilə müdafiə etmək hüququnu ehtiva edir. Bununla belə, ədalətli məhkəmə araşdırması hüququ bütün bu fərdi təminatların cəmindən genişdir və ümumilikdə məhkəmənin gedişatından asılıdır. Ədalətli məhkəmənin əsas ünsürlərindən biri də «bərabər imkanlar» prinsipidir ki, bu da bütün məhkəmə prosesi boyu müşahidə olunmalıdır. Bərabər imkanlar onu ifadə edir ki, hər iki tərəflə elə rəftar olunmalıdır ki, onlar məhkəmənin gedişatı ərzində prosedur baxımından bərabər mövqelərdə olsun və öz işlərini sona yetirmək üçün bərabər imkanlara malik olsunlar.[123] Bu da o deməkdir ki, tərəflərdən hər birinə öz işini münasib şəkildə təqdim etmək imkanı verilməlidir, yalnız bu şərtlə ki, bu, qarşı tərəfi son dərəcə əlverişsiz vəziyyətə salmasın.

15-ci Məhkəmə Prosesinə gəldikdə, müdafiə olunan tərəf tez-tez məhkəməyə şikayət edirdi ki, onların hamısına məhkəmə materiallarının yalnız bir nüsxədə verilməsi və məhkəmə sona yetdikdən sonra həbsxanaya aparılarkən onların bir-birindən təcrid edilməsi faktı öz müdafiə işlərini, xüsusilə də şahidlərin çarpaz dindirilməsinə hazırlaşmaqda onlara ciddi çətinliklər törədir. Vəkillərin doldurduğu anketlərdə bir çox şikayətlər hakimlərin sənədlərin və videoyazıların surətlərini təqsirləndirilən şəxslərə və onların vəkillərinə verməkdən imtina etməsi ilə bağlıdır. Vəkillər həmçinin, onlara həmin videoyazılara öz müştəriləri ilə birlikdə baxmaq imkanı verilmədiyindən də şikayət etmişdir.

**Təqsirsizlik prezumpsiyası**

Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Pakta, Avropa Konvensiyasına və ATƏT-in öhdəliklərinə əsasən, təqsiri sübuta yetirilməyən hər bir kəs təqsirsiz hesab olunmaq hüququna malikdir.[124] Təqsirsiz bilinmək hüququ şübhəli hesab olunan şəxslərə cinayət işi açılanadək şamil olunur və ittiham sübuta yetirilənədək davam edir. Yuxarıdakılarla əlaqədar olan özünə qarşı ifadə verməmək hüququ və susmaq hüququ təqsirsizlik prezumpsiyasından qaynaqlanır.

Təqsirsizlik prezumpsiyası nəinki hakim və andlıların məhkəmə hökmü çıxmazdan əvvəl mühakimə yürütməkdən çəkinmələrini tələb edir, habelə digər dövlət işçilərinə də şamil edilir. Təqsirsizlik prezumpsiyası, müvafiq orqanların şəxsin təqsirli olması haqqında bəyanatlar vermədən, ictimaiyyəti cinayət işi üzrə aparılan istintaqlar barədə məlumatlandıraraq, şübhəli şəxsin adını, yaxud da onun tutulduğu və ya onun öz təqsirini etiraf etdiyi ölkənin adını bildirdiyi zaman pozulmur.[125] Bununla belə, məhkəmənin qərarı rəsmi təsdiq olunmazdan əvvəl, dövlət orqanları təqsirləndirilən şəxslərin təqsirli və ya təqsirsiz olmaları barədə bəyanatlar verməkdən çəkinməlidir.[126]

Seçki sonrası zorakılığın ardınca, mətbuatda yeni seçilmiş Prezident, Daxili İşlər Nazirliyinin, Bakı Baş Polis İdarəsinin, Baş Prokurorluğun və Milli Təhlükəsizlik Nazirliyinin nümayəndələri tərəfindən bəyanatlar səslənmiş, bu bəyanatlarda Müsavat, ADP və Ümid partiyalarının liderləri və üzvlərinin qanunsuz hərəkətlər törətdiyi bildirilmişdir. Məsələn:

- Yeni seçilmiş prezident İlham Əliyev verdiyi müsahibədə demişdir: «Kütləvi iğtişaşları törədən biz deyil, Müsavatın lideri İsa Qəmbər və onun həmkarlarıdır. Onlar şəhərə ziyan vurmuşlar. ... Bütün bu hadisələrə görə məsuliyyəti Müsavat və onun funksionerləri daşıyır. Müsavat partiyasının lideri ictimaiyyət qarşısında provokator və axıdılmış qanın

[123] Ofrer and Hopfinger. Nos. 524/59 and 617/59, Dec, 19,12,60, Yearbook 6.
[124] MSHBP, Maddə 14.2; İHAK, Maddə 6(2); Kopenhagen Sənədi (1990), abzas 5.19
[125] Krause v. Switzerland, 13 DR 73, October 1978, Worm v. Austria (1997)
[126] BMT-nin İnsan Hüquqları Komitəsinin Ümumi Şərhi 13, abzas 7; həmçinin bax: BMT-nin İnsan Hüquqları Komitəsinin Ünsiyyət haqqında Baxışları № 770/1997, Rusiya Federasiyası, 18 iyul 2000-ci il.

səbəbkarı kimi cavab verəcəkdir.»[127]

- Bakı Şəhər Baş Polis İdarəsi və Baş Prokurorluq belə bir bəyanat vermişdir ki, «azad və ədalətli Prezident seçkilərində qalib gələ bilməyəcəklərini bilən və demokratik və şəffaf seçkilərin gedişatında bunu bir daha başa düşən təhlükəli qüvvələr yenidən qeyri-qanuni hərəkətlərə əl atmışlar. Bu hadisələrdə, Müsavat Partiyasının başqanı İsa Qəmbər və onun tərəfdarları xüsusilə fəal idilər.»[128]
- Bakı Şəhər İcra Hakimiyyəti isə belə bir bəyanatla çıxış etmişdir: «...azad və sərbəst rəqabət şəraitində keçirilmiş Azərbaycan Respublikasının prezidenti seçkilərində uduzacaqlarını əvvəlcədən dərk edən Müsavat Partiyasının başqanı İsa Qəmbər, Ümid Partiyasının sədri İqbal Ağazadə, ADP-nin Baş Katibi Sərdar Cəlaloğlu və həmin partiyaların rəhbərliyindəki digər şəxslərin təhriki ilə bir qrup azğınlaşmış dəstə 15 oktyabrın 15-də gecə və oktyabrın 16-da gündüz saat 14:00-dan başlayaraq, şəhər ərazisində kütləvi iğtişaşlar törətmiş, ictimai asayişi kobud surətdə pozaraq, uşaqlar, qadınlar və yaşlı insanlar daxil olmaqla, dinc Bakı sakinlərinə, çoxsaylı polis əməkdaşlarına və jurnalistlərə xəsarət yetirmişlər.»[129]

Məhkəmə zamanı, ittiham olunana qarşı təqsirliliyi təcəssüm edən heç bir attributun tətbiq edilməməsinə xüsusi diqqət yetirilməlidir. Belə attributlara, təqsirləndirilən şəxsdən məhkəmə zalına qandallarda və dustaq geyimindən gəlmək tələbləri aid edilə bilər. Lakin, bir neçə istisnaları nəzərə alaraq, bütün məhkəmə dinləmələri zamanı təqsirləndirilən şəxslərin hamısı məhkəmə zalındakı iri metal qəfəslərdə oturmuşdu. Təqsirləndirilən şəxslər öz ifadələrini, digər şahidlər kimi tribunadan deyil, proses ərzində oturduqları metal qəfəsin barmaqlıqları arasından verə bilərdilər.

**Məhkəmədə iştirak hüququ**

Barəsində ittiham irəli sürülmüş hər bir kəs, təqib edilən məsələni dinləmək və çəkişmək, habelə müvafiq müdafiə təmin etmək məqsədilə, öz məhkəməsində iştirak etmək hüququna malikdir. Məhkəmədə iştirak etmək hüququ, özünü müdafiə etmək hüququnun ayrılmaz bir hissəsidir. Avropa Məhkəməsinə əsasən, ədalətli məhkəmə hüququnun vəzifə və məqsədi ondan ibarətdir ki, barəsində ittiham irəli sürülmüş şəxs birinci instansiya məhkəməsində iştirak etmək hüququna malikdir.[130] Birinci instansiya məhkəməsinin iclaslarında iştirak hüququ Cinayət-Prosessual Məcəllədə əks olunmuşdur.[131] Bu standarta tam müvafiq olaraq, təqsirləndirilən şəxslər bütün birinci instansiya məhkəmələrində iştirak etmişdir. 15-ci Məhkəmə Prosesinə gəldikdə, məhkəmə iclası zamanı yalnız bir halda təqsirləndirilən şəxslərdən bir neçəsinin spontan və ciddi şəkildə son dərəcə əsəbi və nizamsız davranması müşahidə olunmuşdur. Bu hadisə, işgəncəni törədənlərdən biri olduğu bildirilən şəxsin ittiham tərəfindən şahid qismində ifadə vermək üçün dəvət etdiyi zaman baş verdi. Təqsirləndirilən şəxslərdən bəzilərinin davranışı onların məhkəmə zalından xaric olunmasına tam əsas yaradırdı və məhkəmə elə belə də etdi. Lakin, məhkəmə təqsirləndirilən şəxslərdən hansının intizamsız davranışa səbəbkar olması sualına məhəl qoymadı. Əksinə, intizamın pozulmasında təqsirli olub-olmamasından asılı olmayaraq, məhkəmə təqsirləndirilən şəxslərin hamısını iclas zalından çıxardı və mühakimə onların iştirakı olmadan davam etdirildi.

**Məlumatların istintaq tərəfindən açıqlanması**

---

127 «Zerkalo» qəzetindəki məqalədən çıxarış, 21 oktyabr 2003-cü il. *Qeyri-rəsmi tərcümə.*
128 Bakı Şəhər Baş Polis İdarəsi və Baş Prokurorluğun məlumatı, Azərbaycan Qəzeti, 16 oktyabr 2003-cü il.
129 «Bakı Şəhər İcra Hakimiyyətinin 15-16 oktyabr 2003-cü il tarixdə Müsavat Partiyasının törətdiyi kütləvi iğtişaşlar barədə məlumatı», Azərbaycan Qəzeti, 18 oktyabr 2003-cü il.
130 *Ekbatani v. Sweden* (1988)
131 CPM, 91 və 311-cü maddələr

Bərabər imkanlar prinsipinin əsas elementi olan müdafiənin hazırlanması üçün adekvat vasitələrdən istifadə hüququ təqsirləndirilən şəxslərə və onların vəkillərinə müdafiənin hazırlanmasında, habelə cəzanın qaldırılmasında və ya lazım gələrsə, azaldılmasında onlara yardım edə biləcək bütün sənəd və faktlarla tanış olmaq imkanının verilməsini tələb edir. Avropa Комissiyasının bəyanatına əsasən, müdafiə işinin hazırlanması üçün adekvat vasitələrdən istifadə hüququ ittiham sənədlərindən münasib istifadə hüququnu nəzərdə tutur.[132] Bu müddəaya da CPM-də rast gəlmək olar.[133]

Lakin, bir sıra hallarda vəkillər, ittiham sənədlərini əldə etmək və ya onlar üzrə şərh vermək imkanlarına malik olmadıqlarını bildirmişdir. Bəzən, məhkəmə vəkillərə məhkəmə sənədlərinin surətini çıxarmağa icazə vermir, və həmin sənədləri yalnız iclas zamanı nəzərdən keçirməyi tövsiyyə edirdi. Vəkillər, bu prosedurların onların öz müştərilərini lazımi şəkildə müdafiə etməyə ciddi təsir göstərdiyini etiraf etmişdir. Məsələn, 7-ci Məhkəmə Prosesinin vəkilləri onlara ittiham sənədlərinin hamısının deyil, yalnız bir neçəsinin surətinin verildiyini bildirmişdir. Yalnız ittiham aktının surətini aldıqlarını bildirən vəkillər, bu məhkəmə sənədini nəzərdən keçirməyə vaxtlarının olmadığını və ittiham tərəfinin təqdim etdiyi foto və video dəlilləri izləmək imkanlarının məhdudlaşdırıldığını söyləmişdir. Bir sıra hallarda, müdafiə tərəfinin ittiham faktları ilə tanış olmaq barədə etdiyi müraciətlər rədd olunmuşdur.

15-ci Məhkəmə Prosesinə gəldikdə, vəkillər məhkəməyə dəfələrcə şikayət edərək, ittiham edən tərəfin müdafiənin işinə yardım edə biləcək 16 oktyabr hadisələri ilə bağlı videoyazıları məhkəmədən gizlətdiyini bildirmişdir. Xüsusilə də, təqsirləndirilən şəxslərdən bəzilərinin tribunadan heç bir nitq söyləmədiyini və nümayişçiləri təşviq və təhrik etmədiyini təsdiq edə biləcək videoyazıların dövlət ittihamçıları tərəfindən məhəkəməyə açıqlanmadığı bildirilmişdir. Məhkəmə tərəfindən bu məsələ ilə bağlı heç bir araşdırma aparılmamışdır. Məhkəmə, müdafiənin bu bəyanatını təkzib etmək məqsədilə, ittiham tərəfini hər-hansı bir fakt təqdim etməyə çağırmamışdır. Məsələ məhkəmə tərəfindən əsaslı şəkildə araşdırılmalı, ittiham tərəfindən isə bütün materialların məhkəməyə açıqlanması tələb edlməli idi.

**Peşəkar və səmərəli vəkil xidmətlərindən istifadə hüququ**

Hüquqi yardım praktik və səmərəli olmalıdır. Avropa Məhkəməsinə əsasən, müvafiq orqanlar hüquq məsləhətçisinin hər bir çatışmazlığına dair məsuliyyət daşıya bilmədikdə, vəkilin sadəcə olaraq təyin olunması kifayət etmir. Müvafiq orqanlar, vəkilin müştərilə əlaqədar öz vəzifələrini hər-hansı bir səbəbdən yerinə yetirmədiyindən xəbərdar olduqda, həmin orqanlar ya vəkili başqası ilə əvəz etməli, ya da ondan öz vəzifələrinin lazımi səviyədə icra olunmasını tələb etməlidir.[134]

Xüsusilə dövlət tərəfindən təyin olunan vəkillərin aşağı səviyyəli xidmətlər göstərməsi səbəbindən, peşəkar və səmərəli müdafiənin təşkil olunması narahatlıq doğuran xüsusi bir məqam kimi özünü göstərmişdir. Dövlət tərəfindən vəkillə təmin olunmuş təqsirləndirilən şəxslərin əksər hissəsi, ATƏT müşahidəçilərilə görüşlər zamanı bildirmişdir ki, öz vəkilləri ilə görüşməyə müvəffəq olsalar da, bu çox nadir hallarda baş vermişdir.

Növbəti misallar, təqsirləndirilən şəxslər tərəfindən vəkillərin rolunun yalnız onları istintaqın protokolunu imzalamağa tələsdirməkdən ibarət olduğuna dair şikayət verməsini əks etdirir. 3-cü Məhkəmə Prosesində, təqsirləndirilən şəxs Şahin Qocayev bildirmişdir: «mən polis tərəfindən döyülmüşdüm və artıq qan içində idim ki, vəkilim otağa daxil oldu və protokolu

[132] Jespers v. Belgium 27 DR61
[133] CPM, 284 və 285-ci maddələr
[134] Artico v. Italy (1981)

imzaladı». 11-ci Məhkəmə Prosesində isə, təqsirləndirilən şəxs Rahib Mirələmov, dövlət tərəfindən təyin olunmuş vəkil İbrahim Qasımovun ona seçkilərdən sonrakı iğtişaşlar zamanı əlində daş tutduğunu etiraf etməyi dediyini və sənədlərin məzmunu ilə tanış olmadan, onları imzalamağa məcbur etdiyini bildirmişdir. Bundan sonra vəkil, onu bir neçə boş vərəqə imza atmağa vadar etmişdir. 10-cu Məhkəmə Prosesində, Məzahir Müzəffərov və Zakir İsmayılov dövlət tərəfindən onlara təyin olunmuş vəkillərdən imtina etmiş və bunu, onlar tərəfindən göstərilən xidmətlərin qeyri-adekvatlığı ilə əsaslandırmışlar.

15-ci Məhkəmə Prosesinə gəldikdə, vəkillərin iş keyfiyyəti ilə əlaqədar ciddi narazılıqlar ortaya çıxmışdır. Vəkillərin bir çox hallarda çarpaz dindirmə zamanı əsas şahidlərə vermək üçün müvafiq suallar hazırlamadığı, bunun əvəzində isə improvizə edilmiş, çox zaman isə hətta mübahisəli suallara istinad etməsi açıq-aşkar görünürdü. Vəkillər təqdim olunan dəlillərlə bağlı az hallarda qeydlər aparır, məhkəminin diqqətinə faktları təqdim etdikdə isə nadir hallarda hazır qeydlərdən, yaxud da ümumi dəlillərdən istifadə edirdilər. Şahidlərin vəkillər tərəfindən dindirilməsi və məhkəməyə faktların təqdim olunması çox zaman nizamsız, planlaşdırılmamış və qeyri-adekvat şəkildə olurdu. Vəkillər, başlıca beynəlxalq insan hüquqları mexanizmləri, xüsusilə də Avropa Konvensiyası, İşgəncə Əleyhinə BMT Konvensiyası və Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Pakt barədə ətraflı məlumata malik olmadıqlarını nümayiş etdirirdi.

**Şahidləri çağırmaq və sorğu-sual etmək hüququ**

Təqsirləndirilən şəxs, ona qarşı ifadə verən şahidləri sorğu-sual etmək və ya etdirmək, habelə onun xeyrinə ifadə verən şahidlərin onun əleyhinə ifadə verən şəhidlərlə eyni şərtlər əsasında dəvət və sorğu-sual edilməsinə nail olmaq hüququna malikdir.[135] Burada əsas prinsip ondan ibarətdir ki, təqsirləndirilən şəxslər, verdiyi ifadənin onların işi üçün əhəmiyyətli olduğunu hesab etdikləri istənilən şahidi sorğu-sual etmək, habelə dövlət ittihamçısının dəvət etdiyi istənilən şahidə suallar vermək imkanına malik olmalıdır. Bu müddəa, təqsirləndirilən şəxsə şahid dəvət etmək üçün mütləq hüquq, yaxud da ayrıca bir şahidi dinləməyə yerli məhkəməni məcbur etmək hüququ vermir; yerli qanunda şahidin dəvət olunması üzrə müddəalar öz əksini tapmışdır.[136]

Şahidlərin çağırılması və dindirilməsi proseduru həm ittiham, həm də müdafiə tərəfi üçün eyni olmalıdır və burada da bərabər imkanlar tələb olunur. İttiham tərəfinin istinad etdiyi bütün dəlillər, qarşı tərəfin əks-dəlillərini nəzərə almaqla, xalqın nümayəndələrinin iştirakilə keçirilən mühakimə icraatında təqsirləndirilən şəxsin iştirakı ilə təqdim olunmalıdır. Yalnız müstəsna hallarda, ittiham tərəfinə təqsirləndirilən şəxsin çarpaz sorğu-sual edə bilmədiyi şahidin təqdim etdiyi dəlillərə istinad etməyə icazə verilir.

Bu prinsiplərə və müdafiə tərəfinin nəzərəçarpan sayda şahid dəvət etmək iqtidarında olmasına baxmayaraq, şahidlərin dəvət olunmasına dair müdafiə tərəfinin bir çox əsaslandırılmış təklifləri müvəffəqiyyətsiz oldu. Məsəln, 13-cü Məhkəmə Prosesində, ittiham tərəfinin yeganə şahidinin ifadələrini təkzib etmək üçün müdafiənin şahid dəvət etmək təklifi rədd edildi. Bundan başqa, ittiham tərəfinin şahidi məhkəmə qarşısında çıxış etməmiş və nəticə etibarilə, müdafiə tərəfinin onu çarpaz dindirmək imkanı olmamışdır. Eyni zamanda, məhkəmə Natiq Kərimovun adından onun 16 oktyabr hadisələrində xəstəxanaya apardığı iki şahidin dəvət olunmasına dair müdafiə tərəfinin verdiyi vəsatəti təmin etməmişdir. Müdafiə tərəfinə əsasən, həmin iki şahid təqsirləndirilən şəxsin iğtişaşlarda iştirak etmədiyi, əksinə, çaxnaşma zamanı zərərçəkənlərə yardım etdiyi barədə ifadə verəcəkdi. 3-cü Məhkəmə Prosesində müdafiə tərəfinin şahidlər dəvət etmək barədə təklifləri rədd edilməsə də, hakim

[135] MSHBP, Maddə 14.3 (e); İHAK, Maddə 63(d)
[136] CPM, Maddə 95

qeyd etmişdir ki, şahidlərin tapılması, dəvət olunması və iştirakının təmin edilməsinə dair məsuliyət müdafiə tərəfinin öz üzərinə düşür. Digər bir işdə, 129 şahid ibtidai istintaqda ifadə vermişdir. Bundan sonra, şahidlərdən iyirmisi məhkəməyə məktub göndərərək, prosesdə iştirak edə bilməyəcəklərini, lakin öz yazılı ifadələrini bir daha təsdiq etdiklərini bildirmişdir. Məhkəmə, bu ifadələrə etibar edərək, prosesi davam etdirdi və müdafiə tərəfinin şahidləri dindirmək imkanı olmadı.

Narazılıq doğuran digər məsələ şahidlərin dindirilməsi proseduru idi. Cinayət-Prosessual Məsələsinə müvafiq olaraq, məhkəmə iclasında şahidlər ayrı-ayrılıqda və dindirilməmiş şahidlərin iştirakı olmadan dindirilməlidir.[137] Bu qayda, şahidlərin arzuolunmayan təsirinin qarşısının alınmasına yönəldilmişdir. Lakin, bir sıra hallarda məhkəmə otaqlarının qapı və pəncərələri açıq idi və dəhlizdə öz növbəsini gözləyən ittiham tərəfinin şahidləri iclasda nə baş verdiyini eşidirdi.

Müşahidə edilmiş iclasların əksəriyyətində hakimlər yalnız ittiham tərəfinin təqdim etdiyi faktları, o cümlədən onlarca şahidi (əsasən əskərlər və hüquq-mühafizə orqanlarının nümayəndələri) dinləmiş, pəncərələri sındıran, maşınları zədələyən və hüquq-mühafizə orqanlarının nümayəndələrinə xəsarət yetirən şəxsləri əks etdirən fotoşəkillər və videoyazılarla tanış olmuşdur. Eyni zamanda, bərabər imkanlar prinsipi və adil rəqabət prosedurları pozularaq, müdafiə tərəfinin vəkillərinə irəli sürülən ittihamların təkzib olunması, təqsirləndirilən şəxsi cinayət məsuliyyətindən azad edən halların və ya yüngülləşdirici halların məhkəmənin diqqətinə çatdırılması üçün bərabər imkanlar təmin olunmamışdır. Məhkəmə, əlavə dəlillərin nəzərə alınması məqsədilə müdafiə tərəfinin təqsirləndirilən şəxsin adından irəli sürdüyü demək olar ki, bütün təklifləri rədd etmişdir.

Məsələn, 2-ci Məhkəmə Prosesində, məhkəmə hüquq-mühafizə orqanlarının nümayəndələri tərəfindən zorakılığı əks etdirən videokassetlərin və fotoşəkillərin dəlil kimi qəbul olunmasına dair müdafiə tərəfinin verdiyi bütün təkliflərdən imtina etmişdir. Məhkəmə, təqsirləndirilən şəxslərin fotoşəkillərdə və ya videoçəkilişlərdə əks olunmadığını, beləliklə də bunların təqsirləndirilən şəxslərin cəlb olunduğu cinayət məsuliyyəti ilə heç bir əlaqəsi olmadığını bildirərək, dəlili rədd etmişdir. Bununla belə, məhkəmə ittiham tərəfinin cəlb etdiyi onlarca zərərçəkən və şahidi dindirmişdir ki, həmin şəxslər də seçki sonrası baş vermiş zorakılıqlar barədə ifadə verərək, hər-hansı bir ayrıca təqsirləndirilən şəxsin burada iştirakından bəhs etməmişdir. Bir neçə istisnalar olmaqla, məhkəmə ittiham tərəfindən təqdim olunmuş bütün dəlilləri nəzərə alsa da, təqsirləndirilən şəxslərin adından təqdim edilmiş dəlillərlə tanış olmamış, beləliklə də ittiham tərəfilə münasibətdə müdafiə tərəfinin əsaslı dərəcədə əlverişsiz şəraitə düşməsinin qarşısını alan təqsirləndirilən şəxslərin öz dəlillərini məhkəməyə təqdim etmək hüququnu pozmuşdur.

15-ci Məhkəmə Prosesinə gəldikdə, məhkəmə nümayişçilərə qarşı polis və digər hökumət rəsmiləri tərəfindən törədilmiş zorakılığı əks etdirən audioyazıları təqdim etmək üçün müdafiə tərəfinə icazə verdi. Lakin, müdafiə tərəfinin təklifi ilə çağırılmış şahidlərin sayı məhkəmə tərəfindən ciddi şəkildə məhdudlaşdırılmışdı. Müdafiə tərəfi, onların nümayişçilərə silah kimi istifadə etmələri üçün müxtəlif əşyalar paylamadıqlarını, kütləni Meydana istiqamətləndirmədiklərini, əksinə nümayişçiləri zorakılıq törətməməyə və polis tərəfindən edilən provokasiyalara uymamağa çağırdıqlarını, ən əsası da, təqsirləndirilən şəxslərin 16 oktyabr tarixdə baş vermiş kütləvi iğtişaşları əvvəlcədən planlaşdırmadıqlarını və idarə etmədiklərini təsdiq etmək üçün ifadə verəcək 600-dək şahidin məhkəməyə dəvət edilməsi istəyində olduğunu bildirdi. Bundan başqa, müdafiə tərəfi polis və digər dövlət orqanlarının, o cümlədən Bakı Şəhər İcra Hakimiyəti və Daxili İşlər Nazirliyinin bir sıra yüksək rütbəli

[137] CPM, Maddə 328

əməkdaşlarının da dəvət olunmasını məhkəmədən xahiş etdi. Müdafiə tərəfi bildirdi ki, bu şahidlər məhkəmə tərəfindən dindirilməli, zorakılığı başlayanların və əslində elə nümayişçiləri də göstərilən şəkildə reaksiya verməyə təhrik edənlərin də polis və dövlət orqanları olduğu göstərilməlidir. Müdafiə tərəfinin təklifi ilə çağırılan şahidlərin sayının məhdudlaşdırılması ilə bərabər, məhkəmə yüksək rütbəli şəxsləri çağırmaqdan imtina etdi. Yalnız müvafiq dəlillər gətirə biləcək şəxslərin şahid qismində dəvət olunmasının təmin edilməsi məhkəmənin məsuliyyəti kimi qəbul edildiyindən, və məhkəmə iclasının münasib çərçivədə keçirilməli olduğunu nəzərə alaraq, məhkəmənin müdafiə tərəfinə tətbiq etdiyi məhdudiyyətlər İHAK-ın 6-cı Maddəsinin müddəalarının pozulması kimi qəbul oluna bilər.

## *M. AÇIQ ELAN EDİLƏN VƏ ƏSASLANDIRILMIŞ HÖKM ALMAQ HÜQUQU*

Hər bir şəxs, münasib vaxt ərzində açıq və əsaslı hökm almaq hüququna malikdir.[138] Açıq hökm almaq hüququ məhkəmə araşdırmasını təkmilləşdirməklə, ədalətli mühakimə hüququna aid olduğu halda, əsaslı hökm almaq hüququ apellyasiya vermək hüququnun əsas elementlərindəndir.

### Açıq elan edilən hökm almaq hüququ

Cinayət-Prosessual Məcəlləyə əsasən, bütün hökmlər iclas zalında oxunmalıdır.[139] Lakin, əksər hallarda, hökmlər məhkəmədə yalnız qismən elan edilirdi. Buna səbəb kimi, hökmlərin həcminin böyük olduğu göstərilirdi. Həmçinin, bəzi hallarda, hakim hökmü elə alçaqdan oxuyurdu ki, iclas zalında iştirak edənlər onu eşitmirdi. Bundan başqa, Cinayət-Prosessual Məcəllədə göstərilmişdir ki, bəraət qazanmış yaxud da məhkum edilmiş şəxslərə və onların vəkillərinə məhkəmənin yekun qərarı elan edildiyi vaxtdan üç gündən gec olmayaraq, həmin qərarın surəti təqdim edilməlidir.[140]

### Əsaslandırılmış hökm almaq hüququ

Cinayət-Prosessual Məcəllədə göstərilmişdir ki, məhkəmənin qərarı qanuni və tam əsaslandırılmış olmalıdır. Məhkəmənin hökmünün qanuni hesab edilməsi üçün, o, Azərbaycan Respublikasının Konstitusiyasının və Cinayət-Prosessual Məcəlləsinin tələblərinə cavab verməlidir. Bundan başqa, hökmün tam əsaslandırılmış olması üçün aşağıdakı dörd tələb də yerinə yetirilməlidir:

- kifayət edən sübutlara əsaslanmalıdır;[141]
- yalnız məhkəmə istintaqında tədqiq edilmiş sübutlara əsaslanmalıdır;[142]
- məhkəmə istintaqında tədqiq edilmiş sübutlarla uyğun gəlməldir; [143]
- məhkəmə prosesi tərəflərinin iştirakı bərabər əsaslarla təmin edilməklə, tədqiq olunmuş sübutlarla əsaslandırılmalıdır. [144]

15-ci Məhkəmə Prosesinə gəldikdə, ATƏT müşahidəçiləri belə bir qənaətə gəlmişdir ki, təqsirləndirilən şəxslərin 16 oktyabr 2003-cü il iğtişaşlarını təşkil və idarə etdiklərinə və ya orada iştirak etmələrinə dair dəqiq nəticə çıxarmaq üçün məhkəməyə kifayət edən sübutlar təqdim olunmamışdır. Ayrı-ayrı təqsirləndirilən şəxslərin kutləni zorakılıq və digər hərəkətlərə təhrik etdiyini göstərmək məqsədilə şahidlərin təqdim etdikləri dəlillər o qədər zəif və şübhəli

[138] İHAK, Maddə 6(1); CPM, Maddələr 27 və 349. Həmçinin bax: Van de Hurk v. Netherlands (1994)
[139] CPM, Maddə 356
[140] CPM, Maddə 358
[141] CPM, Maddə 349
[142] CPM, Maddə 349
[143] CPM, Maddə 349
[144] CPM, Maddə 32

idi ki, heç bir ədalətli məhkəmə bunlara etibar etməzdi. Xüsusilə də, təqsirləndirilən şəxsləri iğtişaşlarda iştirak edən və kütləni təhrik etmək üçün müxtəlif hərəkətlər edən gördüyünü iddia edən ittiham tərəfinin şahidlərinin göstərdiyi dəlillər çarpaz dindirmə əsnasında o dərəcədə təkzib olunmuşdur idi ki, hökmün əsaslandırılması üçün onlara etibar edilməsi mümkün deyildi. Çıxardığı hökmdə məhkəmə ittiham tərəfinin dəvət etdiyi şahidlərdən bir çoxunun istintaq zamanı təqdim etdikləri sübutların böyük əksəriyyətini bir-birinə uyğun gəlmədiyini nəzərə almamışdır. İttiham tərəfinin şahidlərinin böyük hissəsi tərəfindən o qədər üst-üstə düşməyən faktlar təqdim olunmuşdur ki, təqsirləndirilən şəxslərin əleyhinə ifadə verən şahidlərin təqdim etdikləri sübutları etibarlı hesab etmək mümkün olmamışdır. Bunun əksi olaraq, məhkəmə müdafiə tərəfinin təqdim etdiyi sübutlara kifayət qədər fikir verməyərək, müdafiə tərəfinin bir çox şahidlərinin təqdim etdiyi faktları saxta və qeyri-adekvat əsaslarla rədd etmişdir.

Müdafiə tərəfindən çıxış edən şahidlərin sübutlarına məhkəmənin münasibəti qeyri-düzgün olmuş və onlara qarşı qərəzlilik və qeyri-obyektivlik nümayiş etdirmişdir. Müdafiə tərəfinin şahidinin təqdim etdiyi məlumatlar müdafiə işi üçün son dərəcə əhəmiyyətli idi, lakin bununla belə, öz qərarını çıxararkən, məhkəmə bu faktlara səthi yanaşmış və bütün şahidlərin təqdim etdiyi məlumatları rədd edərək, dəlillərin rədd olunması əsaslarını ayrıca və ya təfsilatlı şəkildə bildirməmişdir. 15-ci Məhkəmə Prosesi ilə əlaqədar bütün bu məsələlərin təfsilatlı təhlili Əlavə 4-də göstərilmişdir.

# III HİSSƏ

## *6. NƏTİCƏ VƏ TÖVSİYYƏLƏR*

ATƏT-in monitorinqindən aydın olub ki, Azərbaycanda seçkidən sonrakı zorakılıqla bağlı müxtəlif cinayətlərdə təqsirləndirilən şəxslərin çoxunun məhkəmə prosesləri Azərbaycan hökumətinin ATƏT qarşısında insan hüquqları və qanunun aliliyi ilə bağlı üzərinə götürdüyü bir sıra öhdəliklərə uyğun olmayıb. Bundan əlavə, məhkəmə proseslərinin gedişinin və təqsirləndirilən şəxslərlə davranışın bəzi aspektləri Mülki və Siyasi Hüquqlara dair Beynəlxalq Pakta, İşgəncə Əleyhinə BMT Konvensiyasına, Avropa İnsan Hüquqları Konvensiyasına və İşgəncələrin Qarşısının Alınmasına dair Avropa Konvensiyasına əsasən Azərbaycanın öz üzərinə götürdüyü hüquqi öhdəlklərə açıq-aşkar zidd olub. Təqsirləndirilən şəxslərin və məhkəməyə çağırılan şahidlərin işgəncə və digər pis rəftar formalarına məruz qalmaları ilə bağlı çoxlu sayda inandırıcı iddiaları xüsusi narahatlıq doğurur. ATƏT-in adından müstəqil beynəlxalq ekspert tərəfindən müşahidə edilən və qiymətləndirilən 15-ci Məhkəmə Prosesində baş vermiş nöqsanlar xüsusilə qabarıq olub.

Qanunların tam, qərəzsiz və ədalətli tətbiq edilməsi halında Azərbaycanın Cinayət-Prosessual Məcəlləsi məhkəmə proseslərinin beynəlxalq standartlara uyğun olaraq keçirilməsi üçün əsas yaradır. Təəsüf ki, sözügedən məhkəmə proseslərində bu, heç də bütün hallarda baş verməyib.

Aşağıdakı tövsiyyələr hesabatda əksini tapan faktlara əsaslanaraq tərtib edilib. Onlar ümumi xarakterli tövsiyyələrdən başlayır və sonra hesabatın strukturuna uyğun olaraq, tutulma məqamından başlamış məhkəmə araşdırmasının müxtəlif aspektlərinə qədər davam edir.

**Dərhal görülməli olan tədbirlərə dair ümumi tövsiyyələr**

- Müvafiq hakimiyyət orqanları Azərbaycanın ədalətli məhkəmə araşdırmasına dair beynəlxalq öhdəlikləri və vəzifələrinə əhəmiyyətli dərəcədə cavab verməyən məhkəmə prosesləri nəticəsində təyin edilmiş bütün cəzaları ləğv etməli və ya daha yüngül cəza ilə əvəz etməlidir. Belə məhkəmə proseslərində məhkum edilmiş şəxslər azad edilməli və ya onların işlərinə yenidən baxılmalıdır.

- Hakimiyyət orqanları işgəncə və pis rəftarla bağlı bütün iddiaları tezliklə ciddi, tam və müstəqil şəkildə araşdırmalıdır. İşgəncə və ya pis rəftar tətbiq etməkdə və ya buna təhrik etməkdə təqsirləndirilən hər bir şəxs barəsində cinayət təqibi həyata keçirilməlidir.

- Hakimiyyət orqanları 2003-cü ilin oktyabrın 15-də və 16-da, həmçinin sonrakı dövrdə şübhəli şəxslərin tutulması zamanı təhlükəsizlik qüvvələri tərəfindən həddən artıq gücün tətbiq edilməsi ilə bağlı iddiaları qısa müddətdə ciddi, geniş və müstəqil şəkildə araşdırmalıdır. Hakimiyyət orqanları hüquq mühafizə tədbirlərinin vəziyyətin ciddiliyinə uyğun olaraq və zəruri həddi aşmadan tətbiq edilməsini, habelə həddən artıq qüc tətbiq edilməsininə görə hüquq-mühafizə orqanları işçilərinin məsuliyyətə cəlb edilməsini təmin etmək üçün lazımi addımlar atmalıdır.

- Hakimiyyət orqanları işgəncə və ya pis rəftar qurbanlarının, həmçinin həddən artıq güc tətbiqi nəticəsində zərərçəkən şəxslərin kompensasiya üçün müraciət etmək hüququnu təmin etməlidir. Hakimiyyət orqanları həmçinin məhkəmə qərarına əsasən kompensasiya almalı olan şəxslərə kompensasiya ödənilməsini də təmin etməlidir.

- Hökumət hüquq-mühafizə orqanları tərəfindən işgəncənin, pis rəftarın və həddən artıq gücün tətbiq edilməsi ilə bağlı gələcəkdə şikayətləri qəbul etmək, araşdırmaq və təqsiri ehtimal edilən şəxsləri cinayət və intizam məsuliyyətinə cəlb etmək səlahiyyətinə malik olan müstəqil orqan yaratmalıdır.

- Azərbaycan hökuməti işgəncələrə və digər qəddar, qeyri-insani və insan ləyaqətini alçaldan rəftar və ya cəza növlərinə dair BMT-nin Xüsusi Məruzəçisinin məsləhət və tövsiyyələr verməsi məqsədilə Azərbaycana dəvət edilməsi məsələsini nəzərdən keçirməlidir.

**Müdafiəçinin köməyindən istifadə etmək hüququ**

- Cinayət-Prosessual Məcəlləsinə uyğun olaraq, tutulmadan və ya həbsdən dərhal sonra və bütün istintaq hərəkətlərinin həyata keçirilməsi zamanı bütün tutulan və ya həbs edilən şəxslərin vəkillə görüşmək hüququ təmin edilməlidir.

- Tutulan və ya həbs edilən şəxslərin vəkili olmadığı halda onlara Cinayət-Prosessual Məcəlləsinə uyğun olaraq, vəkillərin siyahısı verilməlidir ki, onlar özlərinə vəkil seçmək və sonradan onunla görüşmək imkanına malik olsunlar.

- Cinayət-Prosessual Məcəlləsinə uyğun olaraq, vəkil tutmaq imkanı olmayan tutulan və ya həbs edilən şəxslərin dövlət hesabına növbətçi vəkillə görüşmək və məsləhətləşmək hüququ təmin edilməlidir.

- Müdafiə etdiyi şəxslərlə görüşmək üçün müdafiəçilərdən müstəntiq/prokurorluq tərəfindən verilən məktubların təqdim edilməsi tələb olunmamalıdır.

- Hakimiyyət orqanları vəkilin müdafiə etdiyi şəxslə yazışmasının və məsləhətləşmələrinin məxfiliyini təmin etməlidir. Vəkillə məxfi ünsiyyətdə olmaq hüququ bütün insanlara, o cümlədən, tutulan və ya həbs edilən şəxslərə, onların cinayətin törədilməsində ittiham edilib-edilməməsindən asılı olmayaraq şamil edilir.

- Hakimiyyət orqanları təqsirləndirilən şəxslər və onların vəkillərinin işi hazırlamaq, habelə təqsirləndirilən şəxsləri məsuliyyətdən azad etmək və ya zəruri olarsa, cəzanı yüngülləşdirmək üçün onlara kömək edə biləcək bütün məlumatlar, sənədlər və sübutlarla tanış olmaq imkanını təmin etməlidir.

- Müdafiəçinin bütün hallarda məhkəmə sənədləri ilə tam şəkildə tanış olmaq və bütün sənədlərin sürətlərini almaq hüququnu təmin etmək üçün addımlar atılmalıdır.

- Vəkillər Kollegiyası və Azərbaycan hökuməti müstəqil, özünü idarə edən professional kollegiyanın şəffaf prosedur qaydalarına əsasən yaradılması üçün bütün lazımi tədbirlərin görülməsini təmin etməlidirlər. Kollegiyaya qəbul açıq, şəffaf və ədalətli olmalı və bütün hüquqşünaslar üçün bərabər imkanlar təmin edilməlidir. Bu məqsədlə, 6-cı Əlavədə nəzərdə tutulmuş Vəkilliyin islahatına dair Konfransın tövsiyyələri tezliklə həyata keçirilməlidir.

**İşgəncə və pis rəftar. Təqsirin etiraf edilməsinə məcbur edilməmək hüququ**

- Hökumət işgəncə ilə bağlı ATƏT qarşısında üzərinə götürdüyü öhdəliklərə və digər beynəlxalq öhdəliklərinə əməl etməli və xüsusilə, 2003-cü ilin noyabr ayında keçirilmiş İnsan Ölçüsünə dair Əlavə Görüşdən irəli gələn tövsiyyələri nəzərə almalıdır.[145]

- Hökumət İşgəncə Əleyhinə BMT Konvensiyasının Fakultativ Protokolunun imzalanması və ratifikasiyası məsələsini nəzərdən keçirməlilir.

- Hakimiyyət orqanları hər bir kəsin saxlanıldığı andan tibbi yoxlamadan keçməsini və həbsdə saxlanılan şəxsin xahişi ilə ona hər zaman həkimə müraciət etmək imkanı verilməsini təmin etməlidir. Hökümətə bu məsələni təmzimləyən qanunun qəbul edilməsi tövsiyyə edilir.

- Hakimiyyət orqanları dindirmənin aparılmasına dair qaydalara və prosedura tam əməl edilməsini təmin etməlidir. Bundan başqa, Azərbaycan işgəncə hallarının qarşısını almaq üçün dindirmə ilə bağlı qaydaları, təlimatları, metodları və təcrübəni, habelə hər hansı bir formada tutulma, həbs və ya azadlıqdan məhrum etməyə məruz qalmış şəxslərin həbsdə saxlanılması və onlarla davranış qaydalarını mütəmadi olaraq yenidən nəzərdən keçirməlidir.

- Hakimiyyət orqanları hüquq-mühafizə orqanları işçilərinə, mülki və ya hərbi heyətə, tibb işçilərinə, vəzifəli şəxslərə, habelə tutulan, həbs edilən və ya azalıqdan məhrum edilən şəxslərin həbsdə saxlanılmasına, dindirilməsinə və ya onlarla rəftara aidiyyəti olan digər şəxslərə təlimlər keçilərkən işgəncənin qadağan edilməsi ilə bağlı təhsil elementləri və məlumatlardan tam şəkildə istifadə edilməsini təmin etməlidir. İşgəncənin qadağan edilməsi belə şəxslərin vəzifə və funksiyalarına dair qəbul edilən qaydalara və ya təlimatlara daxil edilməlidir.

**İşgəncə və ya digər pis rəftar nəticəsində əldə edilmiş sübutlardan istifadənin qadağan edilməsi**

- Məhkəmələr işgəncə yolu ilə alınan sübutların qəbuledilməz olması prisipinə tam əməl etməlidir.

- İşgəncə və ya digər pis rəftar nəticəsində sübutların əldə edilməsinin Cinayət-Prosessual Məcəllə ilə ümumi şəkildə qadağan edilməsi işgəncəyə və digər pis rəftara dair iddiaların araşdırılması və belə vasitələrlə alınan sübutların istisna edilməsi proseduruna dair aydın, səmərəli və məcburi qaydalarla tamamlanmalıdır.

**Həbsdə saxlanılan şəxslərin məlumat almaq hüququ**

- Hökumət tutulma zamanı tutulan şəxslərin tutulmanın əsasları haqqında məlumatlandırılmasını, həbs ediləndən sonra hüquqları haqqında məlumat və yazılı arayış almalarını və cinayət itihamları irəli sürüləndən dərhal sonra onlar haqqında məlumat almalarını təmin etmək üçün Cinayət-Prosessual Məcəlləsinin hüquq-mühafizə orqanları tərəfindən eyni qaydada tətbiq edilməsi üçün onları aydın şəkildə təlimatlandırmalıdır.

[145] http://www.osce.org/odihr/meetings/2003/shdm/november/

**Tutulma barədə digərlərinə məlumat vermək hüququ**

- Hökumət tutulmadan dərhal sonra qohumlara məlumat vermək hüququnu bütün tutulan şəxslər barəsində təmin etmək məqsədilə Cinayət-Prosessual Məcəlləsinin eyni qaydada tətbiq edilməsi üçün hüquq-mühafizə orqanlarını təlimatlandırmalıdır.

**Dərhal hakimin yanına gətirilmək hüququ**

- Həbs qətimkan tədbiri yalnız müstəsna hallarda tətbiq edilməlidir. Həbs qətimkan tədbiri yalnız bu tədbirin tətbiq edilməsi üçün müəyyən edilmiş xüsusi halların birinə dair sübutların mövcud olduğu təqdirdə tətbiq edilməlidir.

- Təqsirləndirilən şəxslər Cinayət-Prosessual Məcəlləsinə uyğun olaraq müvvəqəti saxlama yerlərində 72 saatdan artıq saxlanılmamalıdırlar.

**Müdafiənin hazırlanması üçün kifayət qədər vaxta və imkanlara malik olmaq hüququ**

- Müdafiə etdiyi şəxslərlə görüşmək imkanına malik olmaq üçün müdafiəçilərdən müstəntiq/prokurorluq tərəfindən verilən məktubların təqdim edilməsi tələb olunmamalıdır.

- Hökumət vəkilin müdafiə etdiyi şəxslərlə yazışmasının və məsləhətləşmələrinin məxfiliyini təmin etməlidir. Vəkillə məxfi ünsiyyətdə olmaq hüququ bütün insanlara, o cümlədən, tutulan və ya həbs edilən şəxslərə, onların cinayətin törədilməsində ittiham edlib-edilməməsindən asılı olmayaraq şamil edilir.

**Açıq məhkəmə araşdırması hüququ**

- İctimaiyyət tərəfindən məhkəmə proseslərinin, xüsusilə ictimai maraq kəsb edə bilən proseslərin müşahidəsini yüngülləşdirmək üçün məhkəmə binalarında və məhkəmə zallarında kifayət qədər şərait yaradılmalıdır.

- Məhkəmə proseslərinin vaxtı və yeri haqqında məlumat məhkəmə binalarında və ya məhkəmənin internet səhifəsində məlumatın yerləşdirilməsi yolu ilə ictimaiyyət üçün açıq olmalıdır.

- İctimaiyyətin bütün nümayəndələrinə məhkəmə iclaslarını müşahidə etmək imkanı yaradılmalıdır. Heç bir şəxs, onun məhkəmədə iştirakı nəticəsində ədalət mühakiməsinə neqativ təsir edə bilməsinə dair həqiqi və kifayət edən əsasların mövcud olmadığı halda məhkəmə iclasında iştirak etmək imkanından məhrum edilməməlidir.

**Müstəqil və qərəzsiz məhkəməyə olan hüquq**

- Hökumət hakimlərin təyini prosedurunun qərəzsizliyi və şəffaflığını gücləndirməlidir.

**Ədalətli məhkəmə araşdırması hüququ**

- Ədliyyə Nazirliyi cinayət işlərinə baxılması zamanı, xüsusən də cinayətlərin zorakılıqla bağlı olmadığı hallarda məhkəmələrdə dəmir barmaqlıqlardan istifadə edilməsi məsələsinə bu təcrubənin təqsirsizlik prezumpsiyasına zidd olması səbəbindən yenidən baxmalıdır.

- Hakimiyyət orqanları təqsirləndirilən şəxslər və onların vəkillərinin işi hazırlamaq, habelə təqsirləndirilən şəxsləri məsuliyyətdən azad etmək və ya zəruri olarsa, cəzanı yüngülləşdirmək üçün onlara kömək edə biləcək bütün məlumatlar, sənədlər və sübutlarla tanış olmaq imkanını təmin etməlidir.

**Açıq elan edilən və əsaslandırılmış hökm almaq hüququ**

- Məhkəmələr qərarların məhkəmə iclasında tam elan edilməsini və təqsirləndirilən şəxslərin qərarın elan edilməsindən sonra 3 gündən gec olmayaraq onun surətini almasını təmin etməlidir.

- Məhkəmələr qərarların tam əsaslandırılmış olmasını və yalnız qanuni yolla alınmış və məhkəmədə araşdırılmış sübutlara əsaslanmasını təmin etməli və təqsirsizlik prezumpsiyasına hörmət etməlidir.

## 1-Cİ ƏLAVƏ: MƏHKƏMƏ HÖKMLƏRİNİN SİYAHISI[146]

| **Soyadı, adı, atasının adı** | **Ilk dinləmənin tarixi** | **Məhkəmə iclasında sədrlik edən** | **Hökmün elan edildiyi tarix** | **Məhkəmənin hökmü** | **Özünü təqsirli bilib-bilməməsi** | **Apellya-siya şikayəti** |
|---|---|---|---|---|---|---|

### *1-Cİ MƏHKƏMƏ PROSESİ*

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 1. Kərimov Çingiz Hüseynqulu oğlu *Müsavat Partiyası* | 30 yanvar 2004 | Sədrəddin Haciyev, ACİM | 4 mart 2004 | 3 il müddətinə azadlıqdan məhrum etmə | Təqsirsiz | Rədd edilib |
| 2. Əliyev Baba Bəhmən oğlu *(partiya mənsub-ti yoxdur)* | 30 yanvar 2004 | Sədrəddin Haciyev, ACİM | 4 mart 2004 | Şərti olaraq 5 il müddətinə azadlıqdan məhrum etmə | Qismən təqsirli | Verilmə yib |
| 3. Cəfərov Yunis Hikmət oğlu *AXCP* | 30 yanvar 2004 | Sədrəddin Haciyev, ACİM | 4 mart 2004 | Şərti olaraq 5 il müddətinə azadlıqdan məhrum etmə | Qismən təqsirli | Verilmə yib |
| 4. Hüseynov Fizuli Ələsgər oğlu *Müsavat Partiyası* | 30 yanvar 2004 | Sədrəddin Haciyev, ACİM | 4 mart 2004 | 5 il müddətinə azadlıqdan məhrum etmə | Təqsirsiz | Rədd edilib |
| 5. Məmmədov Maarif Isa oğlu *Müsavat Partiyası* | 30 yanvar 2004 | Sədrəddin Haciyev, ACİM | 4 mart 2004 | Şərti olaraq 4.5 il müddətinə azadlıqdan məhrum etmə | Təqsirsiz | Rədd edilib |
| 6. Abbaslı Yalçın Nəsrulla oğlu *Müsavat Partiyası* | 30 yanvar 2004 | Sədrəddin Haciyev, ACİM | 4 mart 2004 | 4.5 il müddətinə azadlıqdan məhrum etmə | Təqsirsiz | Rədd edilib |
| 7. Qəhrəmanov Şəmsi Teymur oğlu *ADP* | 30 yanvar 2004 | Sədrəddin Haciyev, ACİM | 4 mart 2004 | Şərti olaraq 5 il müddətinə azadlıqdan məhrum etmə | Qismən təqsirli | Verilmə yib |
| 8. Həsənov Səlahəddin Yunis oğlu *Müsavat Partiyası* | 30 yanvar 2004 | Sədrəddin Haciyev, ACİM | 4 mart 2004 | Şərti olaraq 5 il müddətinə azadlıqdan məhrum etmə | Təqsirsiz | Verilmə yib |
| 9. Şərifov Şıxəli Şərif oğlu *AXCP* | 30 yanvar 2004 | Sədrəddin Haciyev, ACİM | 4 mart 2004 | Şərti olaraq 4.5 il müddətinə azadlıqdan məhrum etmə | Təqsirsiz | Verilmə yib |

[146] 1-ci Əlavədə bu ixtisarlardan istifadə edilib: ADP (Azərbaycan Demokrat Partiyası), AXP (Azərbaycan Xalq Partiyası), AXCP (Azərbaycan Xalq Cəbhəsi Partiyası), MDP (Milli Demokrat Partiyası), ACİM (Ağır Cinayətlərə dair İşlər Üzrə Məhkəmə), SRM (Səbail rayon məhkəməsi).

### 2-Cİ MƏHKƏMƏ PROSESİ

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 10. Süleymanov Bayram Dilman oğlu *(partiya mənsub-ti yoxdur)* | 30 yanvar 2004 | Faiq Qasimov, ACİM | 5 mart 2004 | 5 il müddətinə azadlıqdan məhrum etmə | Təqsirsiz | Cəzası 3 ilə qədər azaldılıb |
| 11. Abbasov Vüsal Lazım oğlu *(partiya mənsub-ti yoxdur)* | 30 yanvar 2004 | Faiq Qasimov, ACİM | 5 mart 2004 | 3 il müddətinə azadlıqdan məhrum etmə | Qismən təqsirli | Rədd edilib |
| 12. Axundov Babək Fuad oğlu *ADP* | 30 yanvar 2004 | Faiq Qasimov, ACİM | 5 mart 2004 | Şərti olaraq 5 il müddətinə azadlıqdan məhrum etmə | Qismən təqsirli | Verilməyib |
| 13. Əbilov Ramiz Həmzə oğlu *Müsavat Partiyası* | 30 yanvar 2004 | Faiq Qasimov, ACİM | 5 mart 2004 | Şərti olaraq 5 il müddətinə azadlıqdan məhrum etmə | Qismən təqsirli | Verilməyib |
| 14. Ibrahimov Azər Ibrahim oğlu *(partiya mənsub-ti yoxdur)* | 30 yanvar 2004 | Faiq Qasimov, ACİM | 5 mart 2004 | Şərti olaraq 4.5 il müddətinə azadlıqdan məhrum etmə | Qismən təqsirli | Verilməyib |
| 15. Hüseynov Mansur Tofiq oğlu *AXP* | 30 yanvar 2004 | Faiq Qasimov, ACİM | 5 mart 2004 | 5 il müddətinə azadlıqdan məhrum etmə | Təqsirsiz | Cəzası 4 ilə qədər azaldılıb |
| 16. Xəlilov Ruslan Qaçay oğlu *(partiya mənsub-ti yoxdur)* | 30 yanvar 2004 | Faiq Qasimov, ACİM | 5 mart 2004 | Şərti olaraq 4.5 il müddətinə azadlıqdan məhrum etmə | Qismən təqsirli | Verilməyib |
| 17. Mehdiyev Turan Ağəli oğlu *(partiya mənsub-ti yoxdur)* | 30 yanvar 2004 | Faiq Qasimov, ACİM | 5 mart 2004 | Şərti olaraq 5 il müddətinə azadlıqdan məhrum etmə | Təqsirsiz | Verilməyib |

### 3-CÜ MƏHKƏMƏ PROSESİ

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 18. Həsənov Şərif Saleh oğlu *MDP* | 30 yanvar 2004 | Rəşid Məhərrəmli, ACİM | 4 mart 2004 | Şərti olaraq 5 il müddətinə azadlıqdan məhrum etmə | Təqsirsiz | Verilməyib |
| 19. Qocayev Şahin Məhəmməd oğlu *Müsavat Partiyası* | 30 yanvar 2004 | Rəşid Məhərrəmli, ACİM | 4 mart 2004 | 4 il müddətinə azadlıqdan məhrum etmə | Təqsirsiz | Rədd edilib |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 20. Ibrahimov Namiq Adil oğlu *(partiya mənsub-ti yoxdur)* | 30 yanvar 2004 | Rəşid Məhərrəmli, ACİM | 4 mart 2004 | Şərti olaraq 5 il müddətinə azadlıqdan məhrum etmə | Təqsirsiz | Verilməyib |
| 21. Məhhərəmov Alqayıt Vəliyar oğlu *(partiya mənsub-ti yoxdur)* | 30 yanvar 2004 | Rəşid Məhərrəmli, ACİM | 4 mart 2004 | 3 il müddətinə azadlıqdan məhrum etmə | Təqsirsiz | Rədd edilib |
| 22. Əhmədov Ənvər Məmməd oğlu *Müsavat Partiyası* | 30 yanvar 2004 | Rəşid Məhərrəmli, ACİM | 4 mart 2004 | 3 il müddətinə azadlığın məhdudlaşdırılması | Təqsirsiz | Verilməyib |
| 23. Məmmədov Oruc Əli oğlu *Müsavat Partiyası* | 30 yanvar 2004 | Rəşid Məhərrəmli, ACİM | 4 mart 2004 | Şərti olaraq 3 il müddətinə azadlıqdan məhrum etmə | Təqsirsiz | Rədd edilib |
| 24. Quliyev Ramiz Mirzə oğlu *Müsavat Partiyası* | 30 yanvar 2004 | Rəşid Məhərrəmli, ACİM | 4 mart 2004 | 5 il müddətinə azadlıqdan məhrum etmə | Təqsirsiz | Rədd edilib |

***4-CÜ MƏHKƏMƏ PROSESİ***

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 25. Rüstəmov Kənan Əkbər oğlu *(partiya mənsub-ti yoxdur)* | 6 fevral 2004 | Tofiq Paşayev, ACİM | 9 mart 2004 | 5 il müddətinə azadlıqdan məhrum etmə | Təqsirsiz | Rədd edilib |
| 26. Səfiyev Gəray Yaqub oğlu *Müsavat Partiyası* | 6 fevral 2004 | Tofiq Paşayev, ACİM | 9 mart 2004 | Şərti olaraq 5 il müddətinə azadlıqdan məhrum etmə | Təqsirsiz | Verilməyib |
| 27. Şəfiyev Vaqif Güleyxar oğlu *(partiya mənsub-ti yoxdur)* | 6 fevral 2004 | Tofiq Paşayev, ACİM | 9 mart 2004 | Şərti olaraq 5 il müddətinə azadlıqdan məhrum etmə | Təqsirsiz | Verilməyib |
| 28. Əhmədov Zaur Məhəmməd oğlu *(partiya mənsub-ti yoxdur)* | 6 fevral 2004 | Tofiq Paşayev, ACİM | 9 mart 2004 | Şərti olaraq 5 il müddətinə azadlıqdan məhrum etmə | Təqsirsiz | Rədd edilib |
| 29. Qafarov Yusif Sadiq oğlu *Müsavat Partiyası* | 6 fevral 2004 | Tofiq Paşayev, ACİM | 9 mart 2004 | Şərti olaraq 5 il müddətinə azadlıqdan məhrum etmə | Təqsirsiz | Verilməyib |
| 30. Həsənov Bəxtiyar Hidayət oğlu | 6 fevral 2004 | Tofiq Paşayev, ACİM | 9 mart 2004 | Şərti olaraq 5 il müddətinə azadlıqdan | Qismən təqsirli | Verilməyib |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| *(partiya mənsub-ti yoxdur)* | | | | məhrum etmə | | |
| 31. Orucov Təvəkkül Feyzalı oğlu *Müsavat Partiyası* | 6 fevral 2004 | Tofiq Paşayev, ACİM | 9 mart 2004 | Şərti olaraq 5 il müddətinə azadlıqdan məhrum etmə | Qismən təqsirli | Verilməyib |
| 32. Mehdiyev Xası Bəhlul oğlu *(partiya mənsub-ti yoxdur)* | 6 fevral 2004 | Tofiq Paşayev, ACİM | 9 mart 2004 | 6 il müddətinə azadlıqdan məhrum etmə | Təqsirsiz | Rədd edilib |

### ***5-Cİ MƏHKƏMƏ PROSESİ***

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 33. Nurəddinov Nazim Ismayıl oğlu *Müsavat Partiyası* | 13 fevral 2004 | Abid Abdinbəyov ACİM | 5 mart 2004 | Şərti olaraq 4.5 il müddətinə azadlıqdan məhrum etmə | Təqsirsiz | Verilməyib |
| 34. Daşdəmirov Sadiq Sabir oğlu *Müsavat Partiyası* | 13 fevral 2004 | Abid Abdinbəyov ACİM | 5 mart 2004 | 4.5 il müddətinə azadlıqdan məhrum etmə | Təqsirsiz | Rədd edilib |
| 35. Yusubov Fərhad Əhəd oğlu *Müsavat Partiyası* | 13 fevral 2004 | Abid Abdinbəyov ACİM | 5 mart 2004 | 3 il müddətinə azadlığın məhdudlaşdırılması | Təqsirsiz | Verilməyib |
| 36. Yusifov Yaqub Seyfəl oğlu *AXCP* | 13 fevral 2004 | Abid Abdinbəyov ACİM | 5 mart 2004 | Şərti olaraq 4.5 il müddətinə azadlıqdan məhrum etmə | Təqsirsiz | Verilməyib |
| 37. Səmədov Adil Nadir oğlu *(partiya mənsub-ti yoxdur)* | 13 fevral 2004 | Abid Abdinbəyov ACİM | 5 mart 2004 | Şərti olaraq 4.5 il müddətinə azadlıqdan məhrum etmə | Təqsirsiz | Verilməyib |
| 38. Alcanov Asim Ələfsər oğlu *Müsavat Partiyası* | 13 fevral 2004 | Abid Abdinbəyov ACİM | 5 mart 2004 | Şərti olaraq 4.5 il müddətinə azadlıqdan məhrum etmə | Təqsirsiz | Verilməyib |
| 39. Tağiyev Azər Əliyar oğlu *(partiya mənsub-ti yoxdur)* | 13 fevral 2004 | Abid Abdinbəyov ACİM | 5 mart 2004 | Şərti olaraq 4.5 il müddətinə azadlıqdan məhrum etmə | Qismən təqsirli | Verilməyib |

### *6-CI MƏHKƏMƏ PROSESİ*

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 40. Əhmədov Oqtay Heydər oğlu *Müsavat Partiyası* | 16 fevral 2004 | Ənvər Seyidov, ACİM | 24 mart | Şərti olaraq 4.5 il müddətinə azadlıqdan məhrum etmə | Təqsirsiz | Verilməyib |
| 41. Aslanov Ceyhun Ramazan oğlu *(partiya mənsub-ti yoxdur)* | 16 fevral 2004 | Ənvər Seyidov, ACİM | 24 mart | Şərti olaraq 4.5 il müddətinə azadlıqdan məhrum etmə | Təqsirsiz | Verilməyib |
| 42. Şirinov Yusif Mirzəli oğlu *(partiya mənsub-ti yoxdur)* | 16 fevral 2004 | Ənvər Seyidov, ACİM | 24 mart | Şərti olaraq 4.5 il müddətinə azadlıqdan məhrum etmə | Təqsirsiz | Verilməyib |
| 43. Haciyev Saday Səfa oğlu *Müsavat Partiyası* | 16 fevral 2004 | Ənvər Seyidov, ACİM | 24 mart | Şərti olaraq 4.5 il müddətinə azadlıqdan məhrum etmə | Təqsirsiz | Dismiss-ed |
| 44. Cəlilov Ehtiram Cəlil oğlu *MDP* | 16 fevral 2004 | Ənvər Seyidov, ACİM | 24 mart | 3 il müddətinə azadlıqdan məhrum etmə | Təqsirsiz | Rədd edilib |
| 45. Məmmədov Əligül Şərafəddin oğlu *MDP* | 16 fevral 2004 | Ənvər Seyidov, ACİM | 24 mart | 3 years imprisonment | Təqsirsiz | Rədd edilib |
| 46. Məmmədov Tariyel Qənimət oğlu *(partiya mənsub-ti yoxdur)* | 16 fevral 2004 | Ənvər Seyidov, ACİM | 24 mart | Şərti olaraq 4.5 il müddətinə azadlıqdan məhrum etmə | Təqsirsiz | Verilməyib |
| 47. Xeyrullayev Maqsud Kamil oğlu *(partiya mənsub-ti yoxdur)* | 16 fevral 2004 | Ənvər Seyidov, ACİM | 24 mart | Şərti olaraq 4.5 il müddətinə azadlıqdan məhrum etmə | Təqsirsiz | Verilməyib |

### *7-Cİ MƏHKƏMƏ PROSESİ*

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 48. Daşdəmirli Samir Nuru oğlu *Müsavat Partiyası* | 20 fevral 2004 | Əli Seyfəliyev, ACİM | 15 mart | Şərti olaraq 4.5 il müddətinə azadlıqdan | Təqsirsiz | Rədd edilib |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| | | | | məhrum etmə | | |
| 49. Fərzani Arifə Nəsib qızı *(partiya mənsub-ti yoxdur)* | 20 fevral 2004 | Əli Seyfəliyev, ACİM | 15 mart | Şərti olaraq 4.5 il müddətinə azadlıqdan məhrum etmə | Təqsirsiz | Rədd edilib |
| 50. Fərzani Akif Asif oğlu *(partiya mənsub-ti yoxdur)* | 20 fevral 2004 | Əli Seyfəliyev, ACİM | 15 mart | 4.5 il müddətinə azadlıqdan məhrum etmə | Təqsirsiz | Cəzası 2 ilə qədər azaldılıb |
| 51. Əliyev Zaman Əzizağa oğlu *(partiya mənsub-ti yoxdur)* | 20 fevral 2004 | Əli Seyfəliyev, ACİM | 15 mart | Şərti olaraq 4.5 il müddətinə azadlıqdan məhrum etmə | Təqsirsiz | Rədd edilib |
| 52. Dadaşov Sədi Tofigq oğlu *(partiya mənsub-ti yoxdur)* | 20 fevral 2004 | Əli Seyfəliyev, ACİM | 15 mart | 4.5 il müddətinə azadlıqdan məhrum etmə | Təqsirsiz | Cəzası 2 ilə qədər azaldılıb |
| 53. Məmmədov Nizami Ağamehdi oğlu *(partiya mənsub-ti yoxdur)* | 20 fevral 2004 | Əli Seyfəliyev, ACİM | 15 mart | 4.5 il müddətinə azadlıqdan məhrum etmə | Təqsirsiz | Cəzası 2 ilə qədər azaldılıb |
| 54. Məmmədov Elsevər Paşa oğlu *(partiya mənsub-ti yoxdur)* | 20 fevral 2004 | Əli Seyfəliyev, ACİM | 15 mart | 5 il müddətinə azadlıqdan məhrum etmə | Təqsirsiz | Verilməyib |
| 55. Abbasov Əmirağa Musa oğlu *Müsavat Partiyası* | 20 fevral 2004 | Əli Seyfəliyev, ACİM | 15 mart | Şərti olaraq 4.5 il müddətinə azadlıqdan məhrum etmə | Təqsirsiz | Verilməyib |

***8-Cİ MƏHKƏMƏ PROSESİ***

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 56. Əsədbəyli Bəhruz Sabir oğlu *Müsavat Partiyası* | 25 fevral 2004 | Azər Orucov, ACİM | 24 mart | Şərti olaraq 4.5 il müddətinə azadlıqdan məhrum etmə | Təqsirsiz | Rədd edilib |
| 57. Həmidov Şirəli Paşa oğlu *Müsavat Partiyası* | 25 fevral 2004 | Azər Orucov, ACİM | 24 mart | Şərti olaraq 4.5 il müddətinə azadlıqdan məhrum etmə | Təqsirsiz | Rədd edilib |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 58. Hüseynli Emin Hüseynağa oğlu *Müsavat Partiyası* | 25 fevral 2004 | Azər Orucov, ACİM | 24 mart | 3 il müddətinə azadlıqdan məhrum etmə | Təqsirsiz | Cəzası 2 ilə qədər azaldılıb |
| 59. Məmmədov Həsən Xansuvar oğlu *Müsavat Partiyası* | 25 fevral 2004 | Azər Orucov, ACİM | 24 mart | Şərti olaraq 4.5 il müddətinə azadlıqdan məhrum etmə | Təqsirsiz | Rədd edilib |
| 60. Məmmədov Elşad Eyvaz oğlu *(partiya mənsub-ti yoxdur)* | 25 fevral 2004 | Azər Orucov, ACİM | 24 mart | Şərti olaraq 4.5 il müddətinə azadlıqdan məhrum etmə | Təqsirsiz | Rədd edilib |
| 61. Məmmədov Elşən Əli oğlu *AXCP* | 25 fevral 2004 | Azər Orucov, ACİM | 24 mart | Şərti olaraq 4.5 il müddətinə azadlıqdan məhrum etmə | Təqsirsiz | Verilmə yib |
| 62. Əliyev Saleh Əhmədəli oğlu *(partiya mənsub-ti yoxdur)* | 25 fevral 2004 | Azər Orucov, ACİM | 24 mart | 3 il müddətinə azadlıqdan məhrum etmə | Təqsirsiz | Cəzası 1 ilə qədər azaldılıb |
| 63. Sanullayev Ülvi Əzimulla oğlu *(partiya mənsub-ti yoxdur)* | 25 fevral 2004 | Azər Orucov, ACİM | 24 mart | Şərti olaraq 4.5 il müddətinə azadlıqdan məhrum etmə | Təqsirsiz | Verilmə yib |
| 64. Abbasov Ayət Davud oğlu *AXCP* | 25 fevral 2004 | Azər Orucov, ACİM | 24 mart | Şərti olaraq 4.5 il müddətinə azadlıqdan məhrum etmə | Təqsirsiz | Verilmə yib |

### *9-CU MƏHKƏMƏ PROSESİ*

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 65. Hüseynov Ilqar Məzahir oğlu *Müsavat Partiyası* | 23 fevral 2004 | Vəkil Şükürov, ACİM | 19 mart | Şərti olaraq 5 il müddətinə azadlıqdan məhrum etmə | Qismən təqsirli | Verilmə yib |
| 66. Axundov Ağakərim Əbdülrəhim oğlu *AXCP* | 23 fevral 2004 | Vəkil Şükürov, ACİM | 19 mart | 3 il müddətinə azadlıqdan məhrum etmə | Təqsirsiz | Rədd edilib |
| 67. Aslanov Rəsul Qurban oğlu *Müsavat Partiyası* | 23 fevral 2004 | Vəkil Şükürov, ACİM | 19 mart | 3 il müddətinə azadlıqdan məhrum etmə | Təqsirsiz | Cəzası 2 ilə qədər azaldılıb |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 68. Qubadov Xaqani Balaxan oğlu *ADP* | 23 fevral 2004 | Vəkil Şükürov, ACİM | 19 mart | Şərti olaraq 5 il müddətinə azadlıqdan məhrum etmə | Təqsirsiz | Verilməyib |
| 69. Məmmədov Orxan Mürşüd oğlu *(partiya mənsub-ti yoxdur)* | 23 fevral 2004 | Vəkil Şükürov, ACİM | 19 mart | Şərti olaraq 5 il müddətinə azadlıqdan məhrum etmə | Təqsirsiz | Verilməyib |
| 70. Xəlilov Qoşqar Sabir oğlu *(partiya mənsub-ti yoxdur)* | 23 fevral 2004 | Vəkil Şükürov, ACİM | 19 mart | Şərti olaraq 5 il müddətinə azadlıqdan məhrum etmə | Təqsirsiz | Verilməyib |
| 71. Qəhrəmanov Xəyyam Adil oğlu *(partiya mənsub-ti yoxdur)* | 23 fevral 2004 | Vəkil Şükürov, ACİM | 19 mart | Şərti olaraq 5 il müddətinə azadlıqdan məhrum etmə | Təqsirsiz | Verilməyib |
| 72. Yunusov Turan Müslüm oğlu *(partiya mənsub-ti yoxdur)* | 23 fevral 2004 | Vəkil Şükürov, ACİM | 19 mart | 3 il müddətinə azadlıqdan məhrum etmə | Təqsirsiz | Cəzası 2 ilə qədər azaldılıb |

***10-CU MƏHKƏMƏ PROSESİ***

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 73. Bayramov Elxan Şöfiq oğlu *Müsavat Partiyası* | 23 fevral 2004 | Nüşabə Ağayeva, ACİM | 26 mart | Şərti olaraq 4.5 il müddətinə azadlıqdan məhrum etmə | Təqsirsiz | Məlumat yoxdur |
| 74. Carçili Ramil Firdovsi oğlu *(partiya mənsub-ti yoxdur)* | 23 fevral 2004 | Nüşabə Ağayeva, ACİM | 26 mart | Şərti olaraq 4.5 il müddətinə azadlıqdan məhrum etmə | Təqsirsiz | Məlumat yoxdur |
| 75. Ismayılov Mahir Zakir oğlu *Müsavat Partiyası* | 23 fevral 2004 | Nüşabə Ağayeva, ACİM | 26 mart | 2 il müddətinə azadlıqdan məhrum etmə | Təqsirsiz | Rədd edilib |
| 76. Ismayılov Zakir Səfər oğlu *Müsavat Partiyası* | 23 fevral 2004 | Nüşabə Ağayeva, ACİM | 26 mart | Şərti olaraq 4.5 il müddətinə azadlıqdan məhrum etmə | Təqsirsiz | Məlumat yoxdur |
| 77. Məmmədov Müşfiq Məmməd oğlu *Müsavat Partiyası* | 23 fevral 2004 | Nüşabə Ağayeva, ACİM | 26 mart | 3 il müddətinə azadlıqdan məhrum etmə | Təqsirsiz | Məlumat yoxdur |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 78. Şirinxub Yavər Həmid oğlu *Müsavat Partiyası* | 23 fevral 2004 | Nüşabə Ağayeva, ACİM | 26 mart | Şərti olaraq 4.5 il müddətinə azadlıqdan məhrum etmə | Təqsirsiz | Məlu-mat yox-dur |
| 79. Kazımov Nüsrət Rzəli oğlu *Müsavat Partiyası* | 23 fevral 2004 | Nüşabə Ağayeva, ACİM | 26 mart | Şərti olaraq 4.5 il müddətinə azadlıqdan məhrum etmə | Təqsirsiz | Məlu-mat yox-dur |
| 80. Qədirli Namiq Bulud oğlu *(partiya mənsub-ti yoxdur)* | 23 fevral 2004 | Nüşabə Ağayeva, ACİM | 26 mart | Şərti olaraq 4.5 il müddətinə azadlıqdan məhrum etmə | Təqsirsiz | Məlu-mat yox-dur |
| 81. Sultanov Vidadi Məhəmməd oğlu *Müsavat Partiyası* | 23 fevral 2004 | Nüşabə Ağayeva, ACİM | 26 mart | Şərti olaraq 4.5 il müddətinə azadlıqdan məhrum etmə | Təqsirsiz | Məlu-mat yox-dur |
| 82. Müzəffərov Məzahir Sulduz oğlu *Müsavat Partiyası* | 23 fevral 2004 | Nüşabə Ağayeva, ACİM | 26 mart | Şərti olaraq 4.5 il müddətinə azadlıqdan məhrum etmə | Təqsirsiz | Məlu-mat yox-dur |

### *11-Cİ MƏHKƏMƏ PROSESİ*

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 83. Cəfərli Yaşar Musa oğlu *(partiya mənsub-ti yoxdur)* | 9 mart 2004 | Rasim Sadıxov, ACİM | 19 mart | Şərti olaraq 5 il müddətinə azadlıqdan məhrum etmə | Təqsirsiz | Rədd edilib |
| 84. Nəsirov Şaban Fəxrəddin oğlu *Müsavat Partiyası* | 9 mart 2004 | Rasim Sadıxov, ACİM | 19 mart | 4.5 il müddətinə azadlıqdan məhrum etmə | Təqsirsiz | Rədd edilib |
| 85. Abdullayev Elçin Loğman oğlu *AXCP* | 9 mart 2004 | Rasim Sadıxov, ACİM | 19 mart | Şərti olaraq 5 il müddətinə azadlıqdan məhrum etmə | Təqsirsiz | Verilmə yib |
| 86. Abdullayev Elxan Sərdar oğlu *Müsavat Partiyası* | 9 mart 2004 | Rasim Sadıxov, ACİM | 19 mart | Şərti olaraq 5 il müddətinə azadlıqdan məhrum etmə | Təqsirsiz | Verilmə yib |
| 87. Abdullayev Elxan Savalan oğlu | 9 mart 2004 | Rasim Sadıxov, | 19 mart | Şərti olaraq 5 il müddətinə | Təqsirsiz | Rədd edilib |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| *(partiya mənsub-ti yoxdur)* | | ACİM | | azadlıqdan məhrum etmə | | |
| 88. Mirələmov Rahib Eldar oğlu *Müsavat Partiyası* | 9 mart 2004 | Rasim Sadıxov, ACİM | 19 mart | Şərti olaraq 5 il müddətinə azadlıqdan məhrum etmə | Təqsirsiz | Rədd edilib |
| 89. Hüseynov Vaqif Isaq oğlu *(partiya mənsub-ti yoxdur)* | 9 mart 2004 | Rasim Sadıxov, ACİM | 19 mart | 3 il müddətinə azadlığın məhdudlaşdı-rılması | Təqsirsiz | Verilməyib |
| 90. Hüseynov Adil Çodar oğlu *AXP* | 9 mart 2004 | Rasim Sadıxov, ACİM | 19 mart | 3 il müddətinə azadlığın məhdudlaşdı-rılması | Təqsirsiz | Rədd edilib |

***12-Cİ MƏHKƏMƏ PROSESİ***

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 91. Məmmədov Sabit Məlikəhməd oğlu *(partiya mənsub-ti yoxdur)* | 11 mart 2004 | Alim Namazov, SRM | 26 mart | Şərti olaraq 3.5 il müddətinə azadlıqdan məhrum etmə | Təqsirsiz | Verilməyib |
| 92. Baxşəliyev Sevdimalı Ağabala oğlu *Müsavat Partiyası* | 11 mart 2004 | Alim Namazov, SRM | 26 mart | Şərti olaraq 2 il müddətinə azadlıqdan məhrum etmə | Təqsirsiz | Verilməyib |
| 93. Babayev Fariz Fazil oğlu *Müsavat Partiyası* | 11 mart 2004 | Alim Namazov, SRM | 26 mart | 2.5 il müddətinə azadlıqdan məhrum etmə | Təqsirsiz | Rədd edilib |
| 94. Tağiyev Eldar Gülbala oğlu *MDP* | 11 mart 2004 | Alim Namazov, SRM | 26 mart | Şərti olaraq 3.5 il müddətinə azadlıqdan məhrum etmə | Təqsirsiz | Verilməyib |
| 95. Ağasıyev Əli Əbülfət oğlu *(partiya mənsub-ti yoxdur)* | 11 mart 2004 | Alim Namazov, SRM | 26 mart | Şərti olaraq 3.5 il müddətinə azadlıqdan məhrum etmə | Təqsirsiz | Verilməyib |
| 96. Ziyadov Elçin Əjdər oğlu *Müsavat Partiyası* | 11 mart 2004 | Alim Namazov, SRM | 26 mart | 3.5 il müddətinə azadlıqdan məhrum etmə | Təqsirsiz | Rədd edilib |
| 97. Əlizadə Nicat Intiqam oğlu | 11 mart 2004 | Alim Namazov, | 26 mart | Şərti olaraq 3.5 il | Təqsirsiz | Verilməyib |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| *(partiya mənsub-ti yoxdur)* | | SRM | | müddətinə azadlıqdan məhrum etmə | | |
| 98. Şərifov Natiq Ağaməmməd oğlu *(partiya mənsub-ti yoxdur)* | 11 mart 2004 | Alim Namazov, SRM | 26 mart | Şərti olaraq 3.5 il müddətinə azadlıqdan məhrum etmə | Təqsirsiz | Verilməyib |
| 99. Həşimov Həşim Yasəf oğlu *(partiya mənsub-ti yoxdur)* | 11 mart 2004 | Alim Namazov, SRM | 26 mart | Şərti olaraq 3.5 il müddətinə azadlıqdan məhrum etmə | Təqsirsiz | Verilməyib |

***13-CÜ MƏHKƏMƏ PROSESİ***

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 100. Allahverdiyev Ilqar Ibrahim oğlu *(partiya mənsub-ti yoxdur)* | 24 mart | Eynulla Vəliyev, ACİM | 2 aprel | Şərti olaraq 5 il müddətinə azadlıqdan məhrum etmə | Təqsirsiz | Rədd edilib |
| 101. Kərimov Natiq Ələvsət oğlu *(partiya mənsub-ti yoxdur)* | 24 mart | Eynulla Vəliyev, ACİM | 2 aprel | Şərti olaraq 5 il müddətinə azadlıqdan məhrum etmə | Təqsirsiz | Rədd edilib |
| 102. Babayev Aləm Əminağa *(partiya mənsub-ti yoxdur)* | 24 mart | Eynulla Vəliyev, ACİM | 2 aprel | 4.5 il müddətinə azadlıqdan məhrum etmə | Təqsirsiz | Rədd edilib |
| 103. Aydın Nurməmməd oğlu *(partiya mənsub-ti yoxdur)* | 24 mart | Eynulla Vəliyev, ACİM | 2 aprel | Şərti olaraq 5 il müddətinə azadlıqdan məhrum etmə | Təqsirsiz | Verilməyib |
| 104. Vəliyev Sakit Şəkər oğlu *Müsavat Partiyası* | 24 mart | Eynulla Vəliyev, ACİM | 2 aprel | 3 il müddətinə azadlıqdan məhrum etmə | Təqsirsiz | Rədd edilib |
| 105. Qasımbəyli Murad Ertoğruloviç *(partiya mənsub-ti yoxdur)* | 24 mart | Eynulla Vəliyev, ACİM | 2 aprel | Şərti olaraq 5 il müddətinə azadlıqdan məhrum etmə | Qismən təqsirli | Verilməyib |
| 106. Şamxalov Zöhrab Məhəmməd oğlu *Müsavat Partiyası* | 24 mart | Eynulla Vəliyev, ACİM | 2 aprel | Şərti olaraq 5 il müddətinə azadlıqdan məhrum etmə | Təqsirsiz | Verilməyib |
| 107. Mahmudov Ilqar Mehman oğlu | 24 mart | Eynulla Vəliyev, | 2 aprel | Şərti olaraq 5 il müddətinə | Təqsirsiz | Verilməyib |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| *Müsavat Partiyası* | | ACİM | | azadlıqdan məhrum etmə | | |
| 108. Əliyev Ədalət Əskər oğlu | 24 mart | Eynulla Vəliyev, ACİM | 2 aprel | Şərti olaraq 5 il müddətinə azadlıqdan məhrum etmə | Təqsirsiz | Verilmə yib |

***14-CÜ MƏHKƏMƏ PROSESİ***

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 109. Əzizov Nizami Zeynalabid oğlu *Müsavat Partiyası* | 24 mart | Imaməli Əskərov, ACİM | 2 aprel | Şərti olaraq 5 il müddətinə azadlıqdan məhrum etmə | Təqsirsiz | Rədd edilib |
| 110. Ismayılov Sadiq Elman oğlu *(partiya mənsub-ti yoxdur)* | 24 mart | Imaməli Əskərov, ACİM | 2 aprel | Şərti olaraq 4.5 il müddətinə azadlıqdan məhrum etmə | Təqsirsiz | Məlu-mat yox-dur |
| 111. Behbudov Alman Idarə oğlu *(partiya mənsub-ti yoxdur)* | 24 mart | Imaməli Əskərov, ACİM | 2 aprel | Şərti olaraq 4.5 il müddətinə azadlıqdan məhrum etmə | Təqsirsiz | Məlu-mat yox-dur |
| 112. Həsənov Etibar Məhərrəm oğlu *(partiya mənsub-ti yoxdur)* | 24 mart | Imaməli Əskərov, ACİM | 2 aprel | Şərti olaraq 4.5 il müddətinə azadlıqdan məhrum etmə | Təqsirsiz | Məlu-mat yox-dur |
| 113. Əhmədov Hicran Bəxtiyar oğlu *ADP* | 24 mart | Imaməli Əskərov, ACİM | 2 aprel | 3.5 il müddətinə azadlıqdan məhrum etmə | Təqsirsiz | Məlu-mat yox-dur |
| 114. Məmmədov Ilham Zarqam oğlu *(partiya mənsub-ti yoxdur)* | 24 mart | Imaməli Əskərov, ACİM | 2 aprel | Şərti olaraq 4.5 il müddətinə azadlıqdan məhrum etmə | Təqsirsiz | Məlu-mat yox-dur |
| 115. Məhərrəmov Vahid Xəlfəli oğlu *(partiya mənsub-ti yoxdur)* | 24 mart | Imaməli Əskərov, ACİM | 2 aprel | Şərti olaraq 4.5 il müddətinə azadlıqdan məhrum etmə | Qismən təqsirli | Məlu-mat yox-dur |
| 116. Kərimov Elşən Kərim oğlu *(partiya mənsub-ti yoxdur)* | 24 mart | Imaməli Əskərov, ACİM | 2 aprel | Şərti olaraq 4.5 il müddətinə azadlıqdan | Təqsirsiz | Məlu-mat yox-dur |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| | | | | məhrum etmə | | |
| 117. Məmmədov Hacı Səfər oğlu *(partiya mənsub-ti yoxdur)* | 24 mart | Imaməli Əskərov, ACİM | 2 aprel | 3 il müddətinə azadlıqdan məhrum etmə | Təqsirsiz | Məlu-mat yox-dur |
| 118. Abbasov Şakir Gürşad oğlu *AXCP* | 24 mart | Imaməli Əskərov, ACİM | 2 aprel | Şərti olaraq 4.5 il müddətinə azadlıqdan məhrum etmə | Təqsirsiz | Məlu-mat yox-dur |

***15-Cİ MƏHKƏMƏ PROSESİ***

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 119. Rauf Arifoğlu *Yeni Müsavat qəzetinin baş redaktoru* | | Mansur Ibayev, ACİM | 22 oktyabr | 5 il müddətinə azadlıqdan məhrum etmə | Təqsirsiz | Rədd edilib |
| 120. Arif Hacılı, *Müsavat Partiyası* | | Mansur Ibayev, ACİM | 22 oktyabr | 5 il müddətinə azadlıqdan məhrum etmə | Təqsirsiz | Rədd edilib |
| 121. Ibrahim Ibrahimli, *Müsavat Partiyası* | | Mansur Ibayev, ACİM | 22 oktyabr | 3 il müddətinə azadlıqdan məhrum etmə | Təqsirsiz | Rədd edilib |
| 122. Pənah Hüseynov *AXP* | | Mansur Ibayev, ACİM | 22 oktyabr | 4.5 il müddətinə azadlıqdan məhrum etmə | Təqsirsiz | Rədd edilib |
| 123. Etimad Əsədov *Qarabağ Müharibəsi Əlilləri Cəmiyyətinin sədri* | | Mansur Ibayev, ACİM | 22 oktyabr | 2.5 il müddətinə azadlıqdan məhrum etmə | Təqsirsiz | Rədd edilib |
| 124. Sərdar Cəlaloğlu *ADP* | | Mansur Ibayev, ACİM | 22 oktyabr | 4.5 il müddətinə azadlıqdan məhrum etmə | Təqsirsiz | Rədd edilib |
| 125. Iqbal Ağazadə *Ümid Partiyası* | | Mansur Ibayev, ACİM | 22 oktyabr | 3.5 il müddətinə azadlıqdan məhrum etmə | Təqsirsiz | Rədd edilib |

## 2-Cİ ƏLAVƏ: İNZİBATİ XƏTALARIN VƏ CİNAYƏTLƏRİN TÖRƏDİLMƏSİNƏ DAİR İTTİHAMLARIN MƏTNİ

### *1. İNZİBATİ XƏTALARIN TÖRƏDİLMƏSİNƏ DAİR İTTİHAMLAR*

**Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi (2000)**
**Maddə 310. Polis işçisinin və ya hərbi qulluqçunun qanuni tələbinə qəsdən tabe olmama**
310.1. Polis işçisi və ya hərbi qulluqçu ictimai qaydanın mühafizə vəzifələrini icra edərkən, onların qanuni tələblərinə qəsdən tabe olmamağa görə -
fiziki şəxslər şərti maliyyə vahidinin iyirmi mislindən iyirmi beş mislinədək miqdarda cərimə edilir və ya işin halları və pozuntu törədənin şəxsiyyəti nəzərə alınmaqla, bu tədbirlərin tətbiqi kifayət hesab edilmədikdə on beş günədək müddətə inzibati həbs tətbiq olunur.

### *2. CİNAYƏT İTTİHAMLARI*
**Azərbaycan Respublikasının Cinayət Məcəlləsi (2000)**

**Maddə 220. Kütləvi iğtişaş**
220.1. Zorakılıqların, talanların, yanğınların törədilməsi, əmlakın məhv edilməsi, odlu silahın, partlayıcı maddələrin və ya qurğuların tətbiq edilməsi, yaxud hakimiyyət nümayəndəsinə silahlı müqavimət göstərilməsi ilə müşayiət olunan kütləvi iğtişaşları təşkil etmə və ya belə iğtişaşlarda iştirak etmə -
dörd ildən on iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.
220.2. Hakimiyyət nümayəndəsinin qanuni tələblərinə fəal şəkildə tabe olmamağa və kütləvi iğtişaşlara, habelə vətəndaşlara qarşı zorakılıq etməyə çağırışlar etmə -
üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya eyni müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**Maddə 233. İctimai qaydanın pozulmasına səbəb olan hərəkətləri təşkil etmə və ya bu cür hərəkətlərdə fəal iştirak etmə**
İctimai qaydanı kobud surətdə pozan və ya hakimiyyət nümayəndəsinin qanuni tələblərinə tabe olmamaqla əlaqədar olan, yaxud nəqliyyatın, müəssisə, idarə və təşkilatın normal fəaliyyətinin pozulmasına səbəb olan hərəkətlərin bir qrup şəxs tərəfindən törədilməsini təşkil etmə və ya bu cür hərəkətlərdə fəal iştirak etmə -
şərti maliyyə vahidi məbləğinin beş yüz mislindən min mislinədək miqdarda cərimə və ya iki ilədək müddətə islah işləri və ya eyni müddətə azadlığın məhdudlaşdırılması və ya üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**Maddə 315. Hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etmə**
315.1. Xidməti vəzifələrini yerinə yetirməsi ilə əlaqədar hakimiyyət nümayəndəsinə zor tətbiq etmə, zor tətbiq etməklə müqavimət göstərmə və ya onun yaxın qohumlarına qarşı həyat və sağlamlıq üçün təhlükəli olmayan zor tətbiq etmə və ya belə zor tətbiq etmə hədəsi ilə hədələmə -
üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.
315.2. Bu Məcəllənin 315.1-ci maddəsində göstərilən şəxslərə qarşı həyat və sağlamlıq üçün təhlükəli olan zor tətbiq etmə -
üç ildən yeddi ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

## 3-CÜ ƏLAVƏ: SEÇİLMİŞ BEYNƏLXALQ STANDARTLAR

### *ATƏT-İN KOPENHAGEN SƏNƏDİ*

**12-ci bənd**
ATƏM-in Vyana Yekun Sənədinin insan meyarları haqqında bölməsindəki öhdəlikləri üzərlərinə götürən İştirakçı Dövlətlər bu öhdəliklərin yerinə yetirilməsində aşkarlığı təmin etməyi arzulayaraq qərara alırlar ki, etimadın möhkəmləndirilməsi tədbiri kimi İştirakçı Dövlətlər tərəfindən göndərilən müşahidəçiləri və qeyri-hökumət təşkilatlarının nümayəndələrini və milli qanunvericilikdə və beynəlxalq hüquqda nəzərdə tutulduğu kimi məhkəmə prosesində maraqlı olan digər şəxsləri qəbul etsinlər; bu zaman başa düşülür ki, qanunla və beynəlxalq hüquq və beynəlxalq öhdəliklərlə müəyyən edilmiş hallarda məhkəmə prosesləri qapalı (*in camera*) ola bilər.

### *İNSAN HÜQUQLARININ VƏ ƏSAS AZADLIQLARIN MÜDAFİƏSİ HAQQINDA AVROPA KONVENSİYASI*

**Maddə 3**
Heç kəs işgəncəyə, qeyri-insani və ya ləyaqəti alçaldan rəftara və ya cəzaya məruz qalmamalıdır.

**Maddə 5**
1. Hər kəsin azadlıq və şəxsi toxunulmazlıq hüququ var. Heç kəs qanunla müəyyən olunmuş aşağıdakı hallardan və qaydadan başqa azadlığından məhrum edilə bilməz:
   a) səlahiyyətli məhkəmə tərəfindən məhkum olunduqdan sonra, şəxsi qanuni həbsə almaq;
   b) məhkəmənin qanuni çıxardığı qərarı icra etməməyə görə və ya qanunla nəzərdə tutulmuş hər hansı öhdəliyin icra olunmasını təmin etmək məqsədilə şəxsin qanuni tutulması və ya həbsə alınması;
   c) hüquq pozuntusunun törədilməsində əsaslı şübhə ilə bağlı şəxsin səlahiyyətli məhkəmə orqanı qarşısında durmasından irəli gələn və ya onun tərəfindən törədilən hüquq pozuntusunun, yaxud törətdikdən sonra onun gizlənməsinin qarşısını almaq üçün kifayət qədər zəruri əsasların olduğunun hesab edildiyi hallarda şəxsin qanuni tutulması və ya həbsə alınması;
   d) yetkinlik yaşına çatmamış şəxsin tərbiyə nəzarəti üçün qanuni qərar əsasında həbsə alınması və ya onun səlahiyyətli məhkəmə orqanı qarşısında durmasından irəli gələn qanuni həbsə alınması;
   e) yoluxucu xəstəliklərin yayılmasının qarşısını almaq üçün şəxslərin, ruhi xəstələrin, alkoqolizmə və narkomaniyaya mübtəla olanların, səfillərin qanuni həbsə alınması;
   f) şəxsin ölkəyə qanunsuz gəlməsinin qarşısını almaq məqsədilə və ya barəsində deportasiya, yaxud ekstradisiya tədbirləri tətbiq olunan şəxsin qanuni tutulması və ya həbsə alınması.
2. Tutulmuş hər bir kəsə ona aydın olan dildə onun tutulmasının səbəbləri və ona qarşı irəli sürülən istənilən ittiham barədə dərhal məlumat verilir.
3. Bu maddənin I bəndinin «c» alt bəndinə müvafiq olaraq tutulmuş və ya həbsə alınmış hər kəs, dərhal hakimin və ya qanunla məhkəmə hakimiyyətini həyata keçirmək səlahiyyəti verilmiş vəzifəli şəxsin yanına gətirilir və ağlabatan müddət ərzində məhkəmə araşdırması və ya məhkəməyə qədər azad edilmək hüququna malikdir. Azad edilmək məhkəmədə iştirak etmə təminatlarının təqdim edilməsilə şərtləndirilə bilər.
4. Tutulma və ya həbsə alma nəticəsində azadlıqdan məhrum edilmiş hər kəs onun həbsə alınmasının qanuniliyinə məhkəmə tərəfindən təxirə salınmadan baxılmaq hüququna və

əgər onun həbsi məhkəmə tərəfindən qanunsuz hesab edilibsə, azad edilmək hüququna malikdir.
5. Bu maddənin müddəalarının pozulması ilə tutulmadan və ya həbsə almadan zərər çəkmiş hər kəsin iddia ilə təmin olunan kompensasiya hüququ var.

**Maddə 6**

1. Hər kəs, onun mülki hüquq və vəzifələri müəyyən edilərkən və ya ona qarşı hər hansı cinayət ittihamı irəli sürülərkən, qanun əsasında yaradılmış müstəqil və qərəzsiz məhkəmə vasitəsilə, ağlabatan müddətdə işinin ədalətli və açıq araşdırılması hüququna malikdir. Məhkəmə qərarı açıq elan edilir, lakin demokratik cəmiyyətdə əxlaq, ictimai qayda və ya milli təhlükəsizlik maraqları naminə, həmçinin yetkinlik yaşına çatmayanların maraqları və ya tərəflərin şəxsi həyatının müdafiəsi bunu tələb etdikdə, yaxud məhkəmənin fikrincə, aşkarlığın ədalət mühakiməsinin maraqlarını poza biləcəyi xüsusi hallar zamanı ciddi zərurət olduqda mətbuat və ictimaiyyət bütün proses boyu və ya onun bir hissəsində məhkəmə iclasına buraxılmaya bilər.
2. Cinayət törətməkdə ittiham olunan hər kəs onun təqsiri qanun əsasında sübut edilənədək təqsirsiz hesab edilir.
3. Cinayət törətməkdə ittiham olunan hər kəs, ən azı aşağıdakı hüquqlara malikdir:
   a) ona qarşı irəli sürülmüş ittihamın xarakteri və əsasları haqqında onun başa düşdüyü dildə dərhal və ətraflı məlumatlandırılmaq;
   b) öz müdafiəsini hazırlamaq üçün kifayət qədər vaxta və imkana malik olmaq;
   c) şəxsən və ya özünün seçdiyi müdafiəçi vasitəsilə özünü müdafiə etmək və ya müdafiəçinin xidmətini ödəmək üçün vəsaiti kifayət etmədiyi zaman, ədalət mühakiməsinin maraqları tələb etdikdə belə müdafiədən pulsuz istifadə etmək;
   d) onun əleyhinə ifadə vermiş şahidləri dindirmək və ya bu şahidlərin dindirilməsinə nail olmaq və onun əleyhinə ifadə vermiş şahidlər üçün eyni olan şərtlərlə onun lehinə olan şahidlər çağırmaq və dindirməyə nail olmaq;
   e) məhkəmədə istifadə olunan dili başa düşmürsə və ya bu dildə danışa bilmirsə tərcüməçinin pulsuz köməyindən istifadə etmək.

***MÜLKİ VƏ SİYASİ HÜQUQLAR HAQQINDA BEYNƏLXALQ PAKT***

**Maddə 7**

Heç kim işgəncələrə və ya qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftara və ya cəzaya məruz qalmamalıdır. Xüsüsən də, heç bir şəxs özünün sərbəst razılığı olmadan tibbi və ya elmi təcrübələrə məruz qalmamalıdır.

**Maddə 9**

1. Hər bir insan azadlıq və şəxsi toxunulmazlıq hüququna malikdir. Heç kim özbaşınalıqla həbs edilə və ya tutula bilməz. Heç kim qanunla müəyyən edilən əsaslardan başqa və qanuni prosedura uyğun olmadan heç bir halda azadlıqdan məhrum edilməməlidir.
2. Həbs edilən hər bir kəsə həbs zamanı onun həbs olunmasının səbəbləri barədə məlumat verilir və irəli sürülən istənilən ittiham təcili qaydada ona bildirilir.
3. Cinayət ittihamı ilə həbs edilən və ya tutulub saxlanılan hər bir şəxs təcili qaydada məhkəməyə və yaxud məhkəmə hakimiyyətinin həyata keçirilməsinin qanunla həvalə edildiyi digər vəzifəli şəxsə çatdırılır və məntiqi müddət ərzində məhkəmə araşdırması və ya azad edilmə hüququna malikdir. Məhkəmə araşdırmasını gözləyən şəxslərin həbsdə saxlanılması ümumi qayda şəklində olmamalıdır; lakin azadlığa buraxılma məhkəməyə getməyə, məhkəmə araşdırmasının istənilən mərhələsinə gəlməyə və zəruri halda isə hökmün icrası üçün gəlməyə təminat verilməsindən asılı hala salına bilər.
4. Həbs və ya tutulma nəticəsində azadlıqdan məhrum edilən hər kəs işinin məhkəmədə araşdırılması hüququna malikdir ki, bu məhkəmə, təxirə salınmadan onun tutulub saxla-

nılmasının qanuniliyi barədə qərar çıxarsın və ya əgər onun tutulub saxlanılması qanuni deyilsə, azadlığa buraxılmasına sərəncam versin.
5. Qeyri-qanuni həbs edilən və ya tutulan hər bir kəs iddia qüvvəsində olan kompensasiya hüququna malikdir.

**Maddə 14**

1. Bütün şəxslər məhkəmələr və tribunallar qarşısında bərabərdirlər. Hər bir şəxs, ona qarşı irəli sürülən istənilən cinayət ittihamına baxılması zamanı və yaxud hər hansı bir mülkü prosesdə onun hüquq və vəzifələrinin müəyyən edilməsi zamanı qanun əsasında yaradılan səlahiyyətli, müstəqil və qərəzsiz məhkəmə tərəfindən ədalətli və açıq araşdırma hüququna malikdir. Demokratik cəmiyyətdə əxlaq, ictimai asayiş və ya dövlət təhlükəsizliyi mülahizələrinə əsasən və yaxud bunu tərəflərin özəl həyat mənafelərinin tələb etdiyi təqdirdə və yaxud məhkəmənin açıq keçirilməsinin ədalət məhkəməsinin maraqlarını pozduğu xüsusi hallarda – özü də hakimin rəyinə görə son dərəcə zəruri olduğu ölçüdə – mətbuat və ictimaiyyət bütün məhkəmə araşdırmasına və ya onun bir hissəsinə buraxılmaya bilər; lakin yetkinlik yaşına çatmamışların mənafelərinin başqa cür tələb etdiyi hallar və yaxud işin matrimonial mübahisələrə və ya uşaqlar üzərində qəyyumluğa aid olduğu hallar istisna edilməklə istənilən cinayət işi və ya mülki iş üzrə məhkəmə qərarı açıq olmalıdır.
2. Cinayət əməlində ittiham olunan hər bir şəxs, təqsiri qanuna uyğun olaraq sübut edilməyənə qədər təqsirsiz hesab edilmək hüququna malikdir.
3. Hər bir şəxs ona qarşı irəli sürülən istənilən cinayət ittihamına baxılarkən bərabərlik əsasında aşağıdakılarla təmin olunmaq hüququna malikdir:
   a) ona qarşı irəli sürülən ittihamın xarakteri və əsasları barədə başa düşdüyü dildə, təcili qaydada və ətraflı xəbərdar edilmək;
   b) öz müdafiəsinə hazırlaşmaq və özünün seçdiyi müdafiəçisi ilə əlaqə saxlamaq üçün kifayət qədər vaxta və imkana malik olmaq;
   c) əsassız gecikdirmələrə yol verilmədən mühakimə olunmaq;
   d) öz iştirakı ilə mühakimə olunmaq və özünü şəxsən və ya öz seçdiyi müdafiəçisi vasitəsilə müdafiə etmək; əgər müdafiəçisi yoxdursa bu hüququ barədə xəbərdar edilmək və ədalət məhkəməsinin mənafeyi bunu tələb etdiyi istənilən halda onun üçün təyin edilmiş müdafiəçiyə, bu müdafiəçinin haqqını ödəməyə kifayət qədər vəsaiti olmadığı istənilən halda isə pulsuz müdafiəçiyə malik olmaq;
   e) onun əleyhinə çıxış edən şahidləri dindirmək və ya bu şahidlərin dindirilməsi hüququna malik olmaq və onun əleyhinə çıxış edən şahidlər üçün mövcud olan şərtlərlə öz şahidlərini çağırtdırmaq və dindirmək hüququna malik olmaq;
   f) məhkəmədə istifadə olunan dili başa düşmürsə və yaxud bu dildə danışa bilmirsə, tərcüməçinin xidmətlərindən pulsuz istifadə etmək;
   g) öz əleyhinə ifadə verməyə və təqisirli olduğunu zorla etiraf etməyə məcbur edilməmək.
4. Yetkinlik yaşına çatmamışlara münasibətdə proses elə olmalıdır ki, onların yaşı və yenidən tərbiyəyə yardımçı olmaq amili nəzərə alınsın.
5. Hər hansı bir cinayətə görə məhkum edilən hər bir şəxs onunla bağlı ittihamnaməyə və hökmə yuxarı məhkəmə instansiyası tərəfindən qanuna uyğun olaraq yenidən baxılmasına nail olmaq hüququna malikdir.
6. Əgər hər hansı bir şəxs qəti qərarla cinayət əməlinə görə məhkum edilmişsə və əgər ona kəsilən hökm sonralar ləğv edilmişsə və ya o, hansısa yeni və yaxud yenidən üzə çıxarılmış halın məhkəmənin səhvini danılmaz şəkildə sübut etməsi əsasında əfv edilmişsə, onda bu cür ittihamnamə nəticəsində cəza çəkmiş olan həmin şəxs, əgər göstərilən naməlum halın tamamilə və ya qismən onun günahı ucbatından vaxtında üzə çıxarılmaması sübuta yetirilməzsə, qanuna müvafiq olaraq kompensasiya alır.

7. Heç kim hər bir ölkənin qanununa və cinayət-prosessual hüququna müvafiq surətdə qəti məhkum olunduğu və yaxud bəraət aldığı cinayətə görə ikinci dəfə mühakimə edilə və ya cəzalandırıla bilməz.

***İŞGƏNCƏ ƏLEYHİNƏ BMT KONVENSİYASI***

**Maddə 12**
Hər bir iştirakçı dövlət, işgəncənin onun yurisdiksiyası altında olan istənilən ərazidə tətbiq edilməsini güman etməyə kifayət qədər əsaslar olduqda, onun səlahiyyətli orqanlarının tez və qərəzsiz araşdırma aparmalarını təmin edir.

**Maddə 13**
Hər bir iştirakçı dövlət, həmin dövlətin yurisdiksiyası altında olan istənilən ərazidə işgəncələrə məruz qaldığını iddia edən hər bir şəxsə, dövlətin səlahiyyətli hakimiyyət orqanlarına şikayət vermək hüququnu və həmin şikayətə onlar tərəfindən tez və qərəzsiz baxılması hüququnu təmin edir. İddiaçının şikayəti ilə və ya istənilən şahid ifadəsi ilə bağlı iddiaçının və şahidlərin istənilən formada pis rəftardan və ya hədələnməkdən müdafiəsini təmin etmək üçün tədbirlər görülür.

**Maddə 14**
1. Hər bir iştirakçı dövlət, işgəncə qurbanının, daha dolğun reabilitasiya vasitələri də daxil olmaqla, əvəz ödənişi almasını və hüquqi sanksiya ilə möhkəmləndirilən ədalətli və adekvat kompensasiya hüququna malik olmasını öz hüquq sistemində təmin edir. Zərərçəkən işgəncə nəticəsində öldükdə, kompensasiya hüququ onun himayəsində olan şəxslərə keçir.
2. Bu maddədə heç bir şey zərərçəkənlərin və ya digər şəxslərin milli qanunvericiliyə əsasən mövcud ola bilən hər hansı kompensasiya hüququna toxunmur.

**Maddə 15**
Hər bir iştirakçı dövlət işgəncə altında verilməsi müəyyən olunan istənilən bəyanatın istənilən məhkəmə araşdırmasının gedişində sübut qismində istifadə edilməməsini təmin edir. Həmin bəyanatdan sübut qismində işgəncələr verməkdə təqsirləndirilən şəxsə qarşı istifadə edilməsi halları istisna təşkil edir.

**Maddə 16**
1. 1-ci maddədə yer alan işgəncə anlayışının qüvvəsi altına düşməyən hər hansı digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və cəza aktları dövlətin vəzifəli şəxsləri tərəfindən və ya onların təhriki ilə, yaxud xəbərdar olmaları və ya susmaqla razılaşmaları ilə törədildikdə, hər bir iştirakçı dövlət öz yurisdiksiyası altında olan istənilən ərazidə onların qarşısını almağı öhdəsinə götürür.
   [...]

## 4-CÜ ƏLAVƏ: 15-Cİ MƏHKƏMƏ PROSESİNDƏN MÜFƏSSƏL MÜŞAHİDƏLƏR

ATƏT-in təlim keçmiş məhkəmə müşahidəçilərinin 15 Məhkəmə Prosesinin hamısı üzrə apardığı monitorinqə əlavə olaraq, beynəlxalq ekspert, hakim, «Kraliçanın Vəkili» titulunun sahibi Pol Qarlik məhkəmə iclaslarının 7 may tarixdə başlayan yekun silsiləsini müşahidə etmişdir. Hazırki hesabatda 15-ci Məhkəmə Prosesi kimi göstərilmiş bu məhkəmə iclasları seçki sonrası zorakılıqlarla bağlı cinayət məsuliyyətinə cəlb olunmuş müxalifətin aparıcı nümayəndələrinə həsr olunmuşdur. 15-ci Məhkəmə Prosesinin əsas nəticələri bu hesabatda öz əksini tapmışdır. Hazırki Əlavə, 15-ci Məhkəmə Prosesi ilə əlaqədar olan daha təfsilatlı məlumatları, müşahidələri və təhlilləri, xüsusilə də işgəncə və pis rətar halları barədə iddiaları, həmin iddialara məhkəmənin göstərdiyi münasibətin təhlillərini, habelə məhkəmənin əsaslı hökm çıxara bilməməsinin təhlilini əhatə edir. Əlavə 6-də isə, beynəlxalq ekspert tərəfindən hazırlanmış və 15-ci Məhkəmə Prosesinin vəkilləri tərəfindən doldurulmuş sorğu formaları öz əksini tapmışdır.

### 1. İşgəncə və pis rətar halları barədə təqsirləndirilən şəxslərin iddiaları

15-ci Məhkəmə Prosesində iştirak edən müdafiə tərəfi və onların şahidlərinin işgəncə halları barədə iddiaları aşağıda verilmişdir. Əsas diqqəti cəlb edən odur ki, şahidlərin işgəncəyə məruz qaldıqları barədə məlumat verməsinə baxmayaraq, ittiham tərəfi ibtidai istintaq zamanı şahidlərin verdikləri ifadələrin təqsirləndirilən şəxsləri törədilən cinayətlərdə təqsirləndirmək məqsədi daşıyan hissələrinə istinad etməyə çalışırdılar. Məhkəmədə səslənmiş faktların audioyazısı (Azərbaycan dilində) əsasında xülasə hazırlanmış və ATƏT tərcüməçisi tərəfindən ingilis dilinə çevrilmişdir. Adıçəkilən iddiaların xarakteri və ciddiliyi barədə oxucuya məlumat vermək məqsədilə, onların işgəncələr ilə bağlı hissələri birbaşa nitq şəklində, onların məhkəmədə səslənməsinə uyğun qaydada göstərilmişdir.

### İqbal AĞAZADƏ

«17 oktyabr tarixdə, günorta saat 4 radələrində, Mütəşəkkil Cinayətkarlığa Qarşı Mübarizə Baş İdarəsinin (MCQMİ) maskalı, avtomatlarla silahlanmış təxminən 100 əməkdaşı mənim evimə basqın etdi. Evdə balaca uşaqların və yaşlıların olmasına məhəl qoymayaraq, onlar havaya atəş açdı və hamıya yerə uzanmağı əmr etdi. Onlar camaatı döyməyə başladı. Onlar jurnalistləri, mənim qaynatamı, qardaşımı, bacımın yoldaşını, digər qohumlarımı və vəkilimi amansızca döydü. Məni maşına salaraq, təhqir etməyə və maşında döyməyə başladılar. [...] MCQMİ-nin həyətinə çatdıqda, məni maşından çıxararaq təhqir edib döydülər və söydülər. Məni yerlə beş metr sürüdülər. Qardaşım və qohumlarım da buraya gətirilmişdi. Məni yerə uzatdılar, başımı qaldırmaq istədikdə isə işçilərdən biri ayağını başımın üstünə qoyub, hərəkət etməyə imkan vermədi. Bütün bunlar videoya çəkilirdi. Sonra məni 4-cü mərtəbəyə, Vaqif Məmmədovun otağına apardılar və orada 2 saat ərzində 6-7 nəfər məni növbə ilə döydü. [...] Vəkilim, Mübariz Qarayev də həbs olunmuşdu, buna görə də başqa bir vəkili, Osman Kərimovu saat 18:30 radələrində aparıldığım İstintaq Şöbəsinə çağırdım. Sinəmdə və ayaqlarımdakı ağrılardan hərəkət edə bilmirdim. Burada mən tibbi müayinədən keçidikdən sonra, MCQMİ-yə geri qaytarıldım. [...]»

«MCQMİ-nin zirzəmisində qardaşıma, xalamoğluna, bacımın həyat yoldaşına, digər qohumlarıma və vəkilimə işgəncə verirdilər.»

«Oktyabrın 17-də, Vaqif Məmmədovun otağında döyülərkən, mən ayaq üstə idim. Bu zaman, Daxili İşlər Nazirinin müavini Oruc Zalov qapını açıb dedi: «Onu niyə ayaq üstə

döyürsünüz, yerə uzadın.» Bundan sonra məni yerə yıxıb, döyməyi davam etdilər.»

«Gecə, təxminən saat 1-də məni Vaqif Məmmədovun kabinetinə aparıb, səhər saat 4-dək fasiləsiz döydülər.»

«Oktyabrın 18-də, saat 7-dən sonra məni yenidən Vaqif Məmmədovun otağına aparıb, bir neçə saat döydülər, sonra isə zirzəmiyə apardılar. Burada mənə dəsmal arasında buz verib, təkid etdilər ki onu qançır və yaralarımın üstünə qoyum. [...] Onlar bunu işgəncənin izlərini gizlətmək üçün edirdi. Onlar, izahatı dedikləri kimi yazmadığım təqdirdə, qardaşıma qarşı cinayət işi açacaqları ilə məni hədələdilər.»

«Mən imtina etdim və oktyabrın 19-da qardaşıma qarşı saxtalaşdırılmış əsaslarla cinayət işi açılmış və barəsində Nərimanov Rayon Məhkəməsi tərəfindən 2 aylıq həbs qətimkan tədbiri seçilmişdir.»

«Onlar həmçinin bacımı da həbs edəcəkləri ilə məni hədələdilər. Bundan sonra, mən onların istədiyi şəkildə ifadə verdim. Lakin, 23 mart 2004-cü il tarixdə Baş Prokurora məktub göndərərək, 20 oktyabr və 4 noyabr 2003-cü il tarixlərdə verdiyim ifadədən imtina etdiyimi bildirdim. Mən həmçinin işgəncə faktlar ilə bağlı məhkəməyə müraciət etdim və bu iş hal-hazırda apellyasiya məhkəməsindədir.»

*(Qeyd: İqbal Ağazadənin dindirilməsinin videoyazısı məhkəmə zalında nümayiş etdirildi. Lentə alınmış kadrlarda, MCQMİ rəisinin müavini Vaqif Məmmədovun əlində tapança oynatdığı görünürdü. Eyni zamanda. İ.Ağazadənin üzündə vurulan zərbələrin izlərini, habelə gözlərinin altındakı şişləri görmək mümkün idi.)*

**Sərdar CƏLALOĞLU**

«Həyətimə maskalı, avtomatlarla silahlanmış təxminən 20 nəfər daxil oldu. Onlardan bir neçəsi qapını təpikləyərək, açmağı tələb edirdi. Digərləri isə qonşu balkonda dayanıb, avtolmatlarla nişan alırdı. Qapını açmaq istədiyimdə, onlardan üçü pəncərəni sındıraraq, mənzilimə daxil oldu. [...] Onlar məni yerə uzadaraq, əllərimi bağladı. Oğullarım və qızım şokda idi. [...] Bu səhnə yadıma düşəndə, həmişə tüklərim biz-biz olur. Onlardan ikisinin öz silahlarını uşaqlarıma, birinin isə mənə tuşladığını gördüm. [...] Məni maşına saldıqdan sonra, onlardan biri ayaqlarını çiynimə qoydu və beləliklə da mən maşının döşəməsində oturmalı oldum. [...] Bütün yol boyu məni döyür və təhqir edirdilər. [...] MCQMİ-nin həyətində məni yaş asfaltla sürüməyə başladılar və bütün bunlar MCQMİ-nin əməkdaşları tərəfindən lentə alınırdı. [...] Məni Vaqif Məmmədovun otağına gətirdilər. O məni söyməyə başladı və tapançasını çıxarıb stolun üstünə qoydu. [...] Təcridxananın həyətinə çıxarkən, səkkiz nəfər məni müşaiyət etdi. Onlar məni mühasirəyə alaraq, söyməyə başladılar. [...] Onlardan biri qara ciyər nahiyəmdən məni vurmağa başladı. Bundan sonra onlar getdi. [...] Kameraya gətirildim. Həmin kamerada olan Müsavatın üzvü Həzi Quluzadə də, İqbalın bacısının yoldaşı Arif Xəlilov da işgəncəyə məruz qaldıqlarını dedilər.»

«İstintaqa bizi çılpaq şəkildə aparırdılar.»

«Oktyabrın 19-u, təxminən saat 6-da, məni V.Məmmədovun müavini Səməd Cəfərovun yanına apardılar. [...] O, mənə suallar verdi, mən isə onları cavablandırmaqdan imtina etdim. Bundan sonra o, iki nəfəri içəri çağırdı və onlar da məni ayaqlarımdan dəyənəklərlə döyməyə başladılar. Səməd dedi ki, onlar mənə əvvəlcə işgəncə verəcək, danışmasam isə, mənə qarşı əxlaqsız tədbirlər tətbiq edəcəklər. [...] Bu proses təxminqən saat 10-dək davam etdi. Ayaqlarımın altı çox ciddi zədələnmişdi. Yardım olmadan hərəkət edə bilmirdim. [...]

Vaqif içəri girdi və onların məni danışdıra bilməməsindən bərk əsəbiləşib, belə davam etsəm, mənə qarşı əxlaqsız tədbirlərin görülməsinə dair göstəriş verdi. [...]»

«Oktyabrın 20-i, səhər Qırmızı Xaç təşkilatının üzvləri gəldi və mənimlə görüşmək istədilər. MCQMİ əməkdaşlarından biri, başıma gətirilənləri Qırmızı Xaça söyləsəm, mənim üçün daha da pis olacağını dedi. Mən, onların mənə qarşı törətdiklərini təfsilatı ilə Qırmızı Xaçın nümayəndəsinə danışdım və yaralarımı göstərdim. [...] Kamera yoldaşlarımdan onlara işgəncə verildiyini Qırmızı Xaça niyə bildirmədiklərini soruşduqda, dedilər ki, danışdıqları təqdirdə zorlanacaqlarını onlara bildirmişlər.»

«Kameramızda MCQMİ-nin arxa həyətinə baxan pəncərə var idi. Hər gecə ora yeni adamları gətirərək, onları döyür və işgəncələr verirdilər. Onların çığırtılarından yatmaq olmurdu.»

«Mən orada oktyabrın 22-dək saxlanıldım və bu müddət ərzində vəkilimlə görüşməyə mənə imkan verilmədi. Dörd gün ərzində, hər səhər, gündə bir dəfə olmaqla, balaca fincanda isti çay verilirdi. Və dörd gün ərzində yalnız bir dəfə mənə ailəmin gətirdiyi yeməyin bir hissəsini verdilər. Hər gün məni hansısa sənədləri imzalamağa məcbur edirdilər. Dörd gün ərzində bizi təmiz havaya buraxmadılar. Onlar hətta kameradakı pəncərəni belə açmadılar. Biz, kameradakı krandan su içməyə məcbur idik.»

«Daha sonra məni Bayıl həbsxanasına köçürdülər. Burada mən, 40 gün ərzində bir nəfərlik kamerada saxlanıldım. Həbsxanada olarkən, Avropa Şurasının İşgəncələrə Qarşı Komitəsinin nümayəndələri mənə baş çəkmiş, bədənimdə olan xəsarətlər barədə qeydlər aparmışlar. Hələ də sağ ayağımda ağrı var. Bədənimdəki xəsarətlərlə bağlı tibbi materiallar saxtalaşdırılmışdır. İndi mən, məruz qaldığım işgəncə halları ilə bağlı işi Avropa İnsan Hüquqları Məhkəməsinə göndərməyə hazırlaşıram.»

**Pənah HÜSEYNOV**

«Mən işgəncələr haqqında danışmaq istəmirəm. Lakin qandallar əllərimə sancılmışdı. Onlar vəkilimlə görüşməyə mənə imkan vermədilər. [...] Mən heç vaxt belə qəddarlıq görməmişəm. [...] Vaqif Məmmədov mənə iki aya öləcəyimi dedi. Böyrəklərimə və sinəmə zərbələr endirdi. [...] Onlar, 15 qohumumun, o cümlədən qardaşım və xalam oğlunun həbs olunduğunu dedilər. Oğlumun da adını çəkməyə başladılar.»

Prokuror: «İşgəncə olunduğunuzu dediniz. Sizə işgəncə verənlərini adlarını deyə bilərsinizmi?»

Pənah HÜSEYNOV: «MCQMİ-nin kamerasında İsa Qəmbərin cangüdəni Aydın və avar milli azlığına mənsub olan Ömər mənimlə birlikdə idilər. Onlar bu barədə beynəlxalq təşkilatlara bildirmiş və mənim haqqımda təfsilatlı məlumat vermişlər. Təkrar edirəm ki, mənə işgəncə verənlər mühüm şəxslər deyil və mən onların adlarını çəkmək istəmirəm. Lakin bildirmək istəyirəm ki, mənə qarşı törədilmiş işgəncələr hakim partiyanın, xüsusilə də İlham Əliyevin, Ramil Usubovun[147] və Ramiz Mehdiyevin[148] sifarişi ilə həyata keçirilmişdir. İlham Əliyev, Ramil Usubov[149] və Ramiz Mehdiyev[150] - işgəncələrin təşkilatçıları bu şəxslərdir. »

Rauf Arifoğlu *(Qeyd: Azərbaycan qanunvericiliyinə əsasən, təqsirləndirilən şəxslərdən hər ikisi eyni cinayətin törədilməsində təqsirli bilindiyi halda, onlar, işin faktiki şəraitini açıqlamaq*

[147] Azərabaycan Respublikasının Daxili İşlər Naziri
[148] Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının Rəhbəri
[149] Azərabaycan Respublikasının Daxili İşlər Naziri
[150] Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının Rəhbəri

*məqsədilə, bir-birinə sual vermək hüququna malikdirlər)*: MCQMİ-də Sizə qarşı tətbiq olunan davranış işgəncə kimi qiymətləndirilə bilərmi?»

Pənah HÜSEYNOV: «Bəli, mənə işgəncə verirdilər.»

[...]

Rauf Arifoğlu: «Qırmızı Xaçdan orada kimsə Sizinlə görüşdümü? »

Pənah HÜSEYNOV: «Bəli, onun adı Nelli idi.»

Rauf Arifoğlu: «Siz ona məlumat verdinizmi?»

Pənah HÜSEYNOV: «Bizə qorxulu şeylər deyilmişdi. [...] Ən qorxulusu isə İqbalın başına gəldi. Onlar İqbala qarşı xüsusi qəddarlıqla davranırdılar. Onlar yeni gələnlərə də başqalarına nələr edildiyini deyirdilər. Bu da bir təzyiq aləti idi. [...] İsa Qəmbərin cangüdəni Aydının bütün bədəni qançır içində idi. O boksçudur və kifayət qədər qüvvətli insandır, lakin kameraya girdikdə mən onu tanımadım. O bucaqda oturur, nəsə demək istədikdə isə mənə pıçıldayırdı. [...] Onlar uşaqlara sup gətirir və onu qaşıqsız, ağızları ilə yeməyə məcbur edirdilər.»

İqbal Ağazadə (müdaxilə edərək): «Mən də bunun şahidi olmuşam».

Pənah HÜSEYNOV: «Aydın mənə dedi ki, onu hürməyə məcbur edib, bunu videoya çəkiblər və ona (Aydına) göstəriblər.»

Arif Hacılı: «Bilirəm, güləcəksiniz, amma yenə də olsun, onlar Sizə qəzet və jurnallar gətirirdimi?»

Pənah HÜSEYNOV: «Xeyr. Onlar hətta vəkilimlə görüşməyə belə imkan vermədilər.»

Rauf Arifoğlu: «Məndə belə bir məlumat var ki, onlar avtomatı Sizə dayamışdılar. Avtomatın darağında güllə var idimi?»

Pənah HÜSEYNOV: «Mən işgəncələrin detalları barədə danışmaq istəmirəm. Avtomatda güllənin olub-olmadığını deyə bilmərəm. Lakin avtomatın özü var idi.»

**İbrahim İBRAHİMLİ**

«Məni Mütəşəkkil Cinayətkarlığa Qarşı Mübarizə İdarəsinə aparıb, zirzəmiyə saldılar.»

«Mən stulda oturmuşdum. Onlar əllərimi arxadan qandallayıb, məni dəyənəklərlə döyməyə başladılar. Bundan sonra məni yeri uzatdılar və onlardan biri ayaqlarıma dəyənəklə vurmağa başladı. Kamil Sadəddinov məni üzümdən vururdu. [...] Onlar, mənim ayaqlarıma fasilələrlə beş dəfə zərbələr endirdi. Bundan sonra məni kameraya gətirdilər. Kamerada dörd nəfər – İqbalın iki qohumu, İsa Qəmbərin sürücüsü və başqa bir şəxs var idi. Kamerada yatmağa yer yox idi.»

«Həbs qəti imkan tədbirinin müəyyən edilməsi üçün məhkəməyə gətirilərkən, məhkəmənin koridorunda Səməd Cəfərov məni avtomatın qundağı ilə vurdu. Məhkəmə iclasından sonra məni MCQMİ-yə geri apardılar.»

«Gecə saat 1-2 radələrində məni Vilayət Eyvazovun otağına apardılar və burada o, məni təhqir etdi və digərlərinə də göstəriş verdi ki, məni dəyənəklərlə döysünlər. [...] Koridorda olarkən, Kamil qapıya təpik vurdu və mənim barmağım qapının arasında qaldı və hal-hazırda da hərəkətsizdir. Mən huşumu itirdim.»

«Ailəmə mənim vəziyyətim və özüm barədə məlumat verilməmişdi. Buna görə də televiziyada çıxış edərkən, ailəmi sakitləşdirmək üçün dedim ki, mənə işgəncə verilməyib.»

**Etimad ƏSƏDOV**

Məni 12 oktyabr tarixdə saxlayıb, Mütəşəkkil Cinayətkarlığa Qarşı Mübarizə İdarəsinə aparıblar. Burada mən həqarət və işgəncələrə məruz qalmışam. Mən bütün bunlar barədə Beynəlxalq Qırmız Xaç Komitəsinə və Hyuman Rayts Uotç təşkilatına təfsilatlı məlumat vermişəm. 17 oktyabrda isə həbsə alındım. İbtidai istintaq zamanı imzaladığım ifadə müstəntiq tərəfindən çap olunmuşdu və mən onu oxumadan imzalamışam.»

**Şahidlərin işgəncə və pis rəftar halları barədə iddiaları**

**Kənan RÜSTƏMOV**

*(Qeyd: Bu şahid ittiham tərəfindən cəlb olunmuşdur.)*

«15 oktyabr 2003-cü il tarixdə mən, Binəqədi rayonunda seçkiləri müşahidə edirdim.»

«15 oktyabr gecə, müşahidənin nəticələrini təhvil vermək üçün, Müsavatın binasına gəldim, lakin binanın giriş-çıxışları polis tərəfindən mühasirəyə alındığından, içəriyə girə bilmədim və evə getdim. Oktyabrın 16-da da mənim Müsavatın baş qərargahına daxil olmaq səylərim baş tutmadı. Günorta saat 2 radələrində mən, nümayişçiləri görüb, meydanda onlara qoşuldum. Yolda mən Rauf Arifoğlunu gördüm və jurnalistlərin qarşısında polisin ona toxunmayacağını güman edib, onun yanında durdum. Rauf Arifoğlu tribunaya qalxanda, mən evə getdim.»

«Məni həbs etdilər. Ailə üzvlərimdən biri də saxlanılmışdı və mən gəldikdən sonra onu buraxdılar.»

«Məni küçədə tutdular və başıma qara kisə salaraq, maşına oturtdular. Başımdan dəmir alətlə vurdular və mən huşumu itirdim.»

«Məni ayıltmaq üçün üstümə su atdılar və, «sən də küiləvi iğtişaşın təşkilatçılarındansan» deyərək, məni döyməyə başladılar. Mənə dedilər ki, televiziyaya çaxaraq, İsa Qəmbər və R.Arifoğlunun əleyhinə danışmalıyam. [...] Məni o qədər döydülər ki, bayıra qan getdim. Mən tez-tez huşumu itirirdim və onlar məni özümə gətirmək üçün iynələrdən (*tərc. qeydi:* inyeksiya) və sudan istifadə edirdilər. [...] Onlar ayaqlarımın altından dəyənəklərlə vururdular. Onlar bir daha məndən tələb etdilər ki, televiziyada nitqlə çıxış edim, mən imtina etdikdə isə, dörd nəfər üzərimə hücum etdi.»

«Mən televiziya ilə çıxış etməyə razı oldum ki, onlar jurnalistləri gətirənədək bir qədər vaxt əldə edim. Lakin razı olan kimi, onlar qapını açıb, AzTV-nin operatorunu içəri dəvət etdilər. Üzümdəki qanı yumaq üçün otaqdan çıxmaq istədikdə, özümü saxlaya bilməyib yıxıldım və təsadüfən kameranı sındırdım. Bundan sonra məni Prokurorluğun Ağır Cinayətlər Şöbəsinə (ACŞ) gətirdilər və burada da məni döyməyə, hədələməyə başladılar və Rauf Arifoğlunun əleyhinə çıxış etməyi təklif etdilər.»

«Onlar dedilər: «Lazımi sənədləri imzalamasan, ananı buraya gətirəcəyik, sonra da bilirsən də nə olacaq?»

«Müstəntiqin adı Valeh idi və bu şəxs də mənə hədə-qorxu gəlir, Rauf Arifoğlunun əleyhinə danışmağı təklif edirdi. O, mənimlə Rauf Arifoğlu arasındakı söhbətin lent yazısını səsləndirdi və suallar verdi. Bundan sonra məni həyətə apardılar, və Müsavat Partiyasının üzvü olduğuma görə məni əskərlərin və təmzlik işçilərinin yardımı ilə döyməyə başladılar. Sonra məni «Qorotdel»də 5№-li kameraya apardılar və burada da kamera yoldaşım Müsavatdan olduğumu bildikdən sonra, məni döyməyə başladı. Ertəsi gün məni yenidən ACŞ-ə gətirdilər və mən bir daha sənədləri imzalamaqdan boyun qaçırdım.»

«Bir azdan sonra onlar qardaşımı əli qandallı şəkildə gətirib stulda oturdular və mənə yaxşı fikirləşməyimi dedilər. Bundan sonra, mən sənədi imzalayıb, onu şəxsən hazırladığımı təsdiq etdim. Qardaşımı artıq xilas etdiyimi və demokratik məhəkəmə olarsa, vəziyyəti izah etdikdə məni başa düşəcəklərini düşündüm. Lakin, məhkəmə iclasında məhkəməyə hər şeyi dediyimə baxmayaraq, heç kim mənə məhəl qoymadı. Yanvarın 8-də, Baş Prokurora məktub göndərərək, verdiyim ifadələrdən, işgəncə vasitəsilə alındıqlarına görə, imtina etdiyimi bildirdim. Buna baxmayaraq, köhnə ifadələr əsasında təqsirli bilinmiş və beş il müddətinə məhkum olunmuşam.»

«Atam, 1992-ci ildən işlədiyi yerdən xaric olunmuşdur.»

*(Qeyd: daha sonra şahid dövlət ittihamçısı tərəfindən dindirildi.)*

Dövlət ittihamçısı: «Tribunadan çıxış edənləri eşidirdinmi?»

Şahid: «Mən yalnız İbrahim bəyin nitqini eşitdim. O, «provokasiyaya uymayın, aramızda polislə qarşıdurma yaradan və onlara daş atan şəxslər var, buna yol verməyin» deyirdi. [...]»

Dövlət ittihamçısı: «Rauf Arifoğlu tribunadan nitq söylədimi?»

Şahid: «Xeyr. [...]»

Rauf Arifoğlu: «[...] Dekabrın 25-i, Bayıl həbsxanasında Siz, verdiyiniz ifadədən bütövlükdə deyil, qismən imtina etdiyinizi bildirdiniz. Buna səbəb nə idi?»

Şahid: «Onlar yenidən mənim qardaşımı həbs etdilər və buna görə də, ifadəmdən tam imtina edə bilmədim. Lakin, 8 yanvar tarixdə mən Baş Prokurora məktub göndərmişəm.»

Pənah Hüseynov: «Məktubunuza cavab aldınızmı və faktlar araşdırılmışdırmı?»

Şahid: «Xeyr.»

**Müşfiq MƏMMƏDOV**

*(Qeyd: Şahid, Müsavat Partiyasının üzvüdür və 16 oktabr hadisələri zamanı Azadlıq Meydanında olmuşdur. Seçki günü isə Dairə Seçki Komissiyasının üzvü kimi fəaliyyət göstərirdi.)*

«Məni Azadlıq meydanında tutdular, lakin avtobusda yer olmadığından, buraxdılar. Ertəsi gün, təxminən səhər saat 7-də polis, mənim evimə gələrək, Komissiyada imzalanması lazım olan sənədlərin qaldığını dedi. Bunun əvəzində isə, məni 30-cu polis bölməsinə apardılar.

[...] Məni döyməyə başladılar. Üzümdən qanı yumaq üçün tualetə girdikdə, Vüqar adlı polis işçisi içəri daxil olaraq, saçlarımdan tutub, başımı güzgüyə çırpdı. Sonra o, tapançasını çıxarıb, ağzıma dayadı və dedi ki, rəisin dediklərini yazmalıyam. Polis bölməsinin rəisi Fuad Məmmədov, nəqliyyat naziri Ziya Məmmədovun əmisi oğludur. [...] Onlar istəyirdilər ki, mən Rauf Arifoğlu və Arif Hacılının orada nitq söylədiyini, İsa Qəmbərin qalib gələ bilmədiyini və seçkilərin demokratik keçirildiyini yazım. [...] Bundan sonra, Vüqar iki barmağımı qapının arasına qoyub, sındırdı. Yalnız bundan sonra mən, seçkilərin demokratik keçirildiyini yazacağıma razılıq verdim, lakin dedim ki, adıçəkilən şəxslərə qarşı yalan danışmayacağam. Sonra mən F.Məmmədovun yanına apardılar. O, 32 polis işçisinin hamısını çağırıb, məni döyməyi onlara əmr etdi və dedi ki, yaxşı döyməyənləri işdən çıxaracaqdır.»

«Sonra məni 'Qorotdel'ə aparıb, işgəncələri orada davam etdilər.»

«'Qorotdel'də mənə hər gün işgəncə verirdildər. Məni stula oturdub, ayaqlarımın altından vururdular. Bir az sonra, onlar qələməbənzər bir əşya gətirib, ayaqlarıma elektrik cərəyanı buraxdılar. Ağrısı başıma vurdu. [...] Dövlət tərəfindən təyin olunmuş vəkili yalnız iki ay yarımdan sonra gördüm.»

*(Qeyd: daha sonra şahid, dövlət ittihamçısı tərəfindən dindirildi)*

Dövlət ittihamçısı Bayramov: «dediniz ki, polis Sizi döyürdü. Bəs prokurorluq barədə nə deyə bilərsiniz?»

Şahid: «N.Qasımov məni sillələdi və təhqir etdi.»

Dövlət ittihamçısı Bayramov: «Sizi döyərək, ifadə verməyə məcbur edənlərin adlarını açıqlaya bilərsinizmi?»

Şahid: «C.Məmmədov, Rəşid Allahverdiyev, Azər adlı iki şəxs, Vüqar, Sədrəddin, F.Məmmədov, Zöhrab, Zəfər və Mahmud.»

Dövlət ittihamçısı Bayramov: «Onlar məhkəmədə dindirilibmi?»

Şahid: «Onlar gəlmişdi və heç kimi döymədiklərini dedilər.»

Dövlət ittihamçısı Bayramov: «Bədəninizdə xəsarət var idimi?»

Şahid: «Bəli, onlar hətta iki dəfə mənim şəklimi də çəkiblər; bunları iş materiallarından əldə etmək olar.»

Rauf Arifoğlu (müdaxilə edərək): «Bu şəkillər iş materiallarında deyil, onlar belə şeyləri saxlamazlar.»

Şahid: «Dekabrın 24-də, bir ekspert məni görmək üçün Bayıl həbsxanasına gəlmişdi. O, heç bir ekpertiza aparmadan, rəy yazdı. 19 oktyabrda Bayılda çəkilmiş bu fotoşəkildə Siz mənim vəziyyətimi görə bilərsiniz. Lakin onlar yazmışdı ki, mən tamamilə salamatam.»

Pənah HÜSEYNOV: «Müşfiq, Prokurorluqda ifadə verərkən, sənə təzyiq olundumu?»

Şahid: «Bəli, onlar məni təhqir edir, döyürdülər. N.Qasımov məni üzümdən beş dəfə sillə ilə vurdu, təhqir etdi. Sonra, Cümşüd Qasımov elə müstəntiqin otağındaca dəyənəklə məni vurdu. [...] Pənah bəy, mən o ifadəni verməmişəm, bunu cinayət-axtarış şöbəsinin rəisi

Cümşüd Qasımov edib.»

**Nəhayət QASIMOVA**

*(Qeyd: Şahid, Müsavat Partiyasının üzvüdür və seçkilərdə müşahidəçilik edirdi. 16 oktabr hadisələri zamanı Azadlıq Meydanında olmuşdur. O, əvvəlcə zərərçəkən hesab edilmiş və xəstəxanada dindirilmişdir. Daha sonra, şahid kimi dindirilmişdir.)*

«Mən, qara maskalı adamlar tərəfindən döyüldüm və huşumu itirdim, ertəsi gün özümə gələndə isə, M.Nağıyev adına xəstəxanada olduğumu başa düşdüm.»

Pənah HÜSEYNOV: «İlk dəfə Sizi harada sorğu-sual ediblər?»

Şahid: «Xəstəxanada.»

«Xəstəxanada üç gün qaldıqdan sonra evə getdim. Pis vəziyyətdə idim: gözlərimə qan gəlmişdi. Evə gəldiyim günün ertəsi, səhər polis işçiləri müstəntiq Cümşüd Qasımovla birgə evimə gəldi. Dedilər ki, mən onlarla getməliyəm. Onlara hərəkət edə bilmədiyimi dedim, ağladım, xahiş etdim ki məni aparmasınlar. Onlar buna məhəl qoymayıb, məni səhər saat 11-də aparacaqlarını dedilər. [...] Məni Hövsan qəsəbəsindəki polis şöbəsinə aparıb, 7-8 saat orada saxladılar. Orada baş verənləri deməyə utanıram. Cümşüd məni otağa aparıb, söyüş söyməklə, məndən ifadə almağa çalışırdı. [...] Mən, baş verənləri söylədikdə, o mənim üstümə qışqırdı və dedi ki, mən ifadəmdə bunları yazmayacağam, onun dediklərini yazacağam. O, mənə ən azı 12 il həbs cəzası veriləcəyini dedi. Mən qorxdum və onun dediklərini yazdım.»

Dövlət ittihamçısı: «Dindirilmə zamanı, müstəntiq C.Qasımov Sizə qarşı fiziki təzyiq tətbiq etmişdirmi?»

Şahid: «Fiziki deyil, psixoloji təsir olmuşdu. O mənim üstümə qışqıraraq, 'sən orada nə edirdin? Səni tutacaqlar' dedi.»

Dövlət ittihamçısı: «İfadənin hansı hissələri *(qeyd: sizə aid deyil)?*»

Şahid: «Təvəllüdüm barədə olan məlumatdan başqa, hər şey saxtadır, zor tətbiq edilməklə yazılmışdır. Mənə ən acı verəni isə odur ki, Cümşüd Məmmədov məni Müsavat Partiyasının binasına dəmir və taxta alətlərin gətirildiyini gördüyümü yazmağa məcbur etdi.»

**Nahid MƏMMƏDOV**

«Məni oktyabrın 15-də həbs edib, doqquz gün dustaqda saxladılar və yalnız hazırki işin materiallarına tikilmiş ifadəni yazmağa razı olduqdan sonra buraxdılar.»

«İfadəmdə, mənim guya Rauf Arifoğludan Mərkəzi Seçki Komissiyasına hücum etmək göstərişi aldığım göstərilir. »
*(Qeyd: şahid aşağıdakı sözlərlə Rauf Arifoğluna müraciət etdi: «Rauf bəy, onlar mənim atama təzyiq göstərirlər».)*

Dövlət ittihamçısı Bayramov: «Dindirilmə zamanı Sizə təzyiq göstərilibmi?»

Şahid: «İfadə verərkən təzyiq olunmayıb, lakin ondan əvvəl yanıma iki nəfər gəlmişdi. Onlar gecə saat təxminən 3-də gəlmişdi və içkili vəziyyətdə idilər. H.Qəmbərov mənə dedi ki, əgər

ifadə verməsəm, həbs ediləcəyəm.»

«İfadə vermək üçün məhkəməyə gəlməzdən əvvəl, məni Prokurorluğa dəvət ediblər. Hakimdən təhlükəsizliyimin təmin olunmasını xahiş etdim. Bilirəm ki, məhkəmə zalını tərk edən kimi, məni həbs edəcəklər. [...] Sığınacaq almaq üçün üç səfirliyə müraciət etmişəm. Təzyiq altında bu şəxslərə qarşı ifadə verdiyimə görə xəcalət çəkirəm.»

Rauf Arifoğlu: «Binəqədidə dindirilərkən, Sizə işgəncə edilibmi?»

Şahid: «Bəli. Atam müsavatçıdır və seçkilərdə də müşahidəçilik edirdi. Dörd gün sonra o, oraya gedib və məni axtarıb. [...] Onu, heç bir qanuni əsas olmadan tutub, beş gün həbsdə saxlayıblar. Həmin gün anam iflic vəziyyətinə düşmüşdür. [...] İki şəxs mənə işgəncə verirdi.»

*(Qeyd: Şahid cibindən 80 min manat çıxarıb hakimə göstərdi və bildirdi ki, bu pulları dünən ona prokurorluqda veriblər. Dinləmədən sonra, şahid jurnalistlərə demişdir ki, ona prokurorluqda Antalyaya (Türkiyə) səyahət və iki min dollar təklif olunub. Şahidin dediklərinə əsasən, onu səkkiz dəfə prokurorluğa çağırıb, hədələyiblər. Şahid onu da bildirdi ki, Avropa Şurasının Bakı Ofisində onları qəbul ediblər və bu məlumatlar Strasburqa göndərilib.)*

**Novhəl NAĞIYEV**

«Mən oktyabrın 18-də tutuldum və polis şöbəsinin rəisini təhqir etdiyimə görə 15 sutka həbs cəzasına məhkum edildim, halbuki mən həmin şəxsə heç bir şey deməmişdim. Səkkizinci gün məni azad etdilər. İbtidai istintaqda verdiyim ifadədən imtina etdim.»

Sual:

Şahid: «Onlar məni Rauf Arifoğluna qarşı ifadə verməyə məcbur edirdilər. Guya ki o, daş və taxta parçaları paylayırdı. İfadənin əksər hissəsi saxtalaşdırılıb. Mən, ittiham olunanlardan heç birini meydanda görməmişəm.»

«Ayağımda dəri xəstəliyi var idi və onu yumaq üçün mənə nə sabun, nə də su verirdilər. Onlar məni 14 il həbs cəzası ilə hədələyirdilər.»

«Mən bu izahatı yazmamışam. Mən, sadəcə olaraq, altda öz imzamı qoymuşam. Onlar məni buna məcbur ediblər.»

**Şəmsi QƏHRƏMANOV**

«Mən, Azərbaycan Demokrat Partiyasının üzvüyəm. 15 oktyabr 2003-cü il tarixdə keçirilən seçkilərdə müşahidəçilik edirdim. Oktyabrın 16-da meydanda idim. Elə həmin gün də evə, Ağstafaya yola düşdüm. Noyabrın 3-də Bakıya gətirildim və gecə saat 3-də məni 9-cu Polis Bölməsinə apardılar. Burada məni, onların dediklərini yazmadığıma görə, döydülər.»

«Məni, öz yazdıqlarını imzalamağa məcbur etdilər. Sonra, prokurorluğa apardılar. Həqiqəti orada söylədikdə, dedilər ki, məni polis bölməsinə geri qaytaracaqlar. Məni polis bölməsinə apardılar və işgəncələr yenidən başlandı. Ertəsi gün mənə anamın, atamın, bacımın və qardaşımın şəkillərini gətirib, onlar və ya deyilənləri yazmaq arasında seçim etməyi təklif etdilər. Onlar dediyi hər şeyi imzaladım.»

«Məni butulka ilə hədələyirdilər (Qeyd: bu, adətən istifadə edilən zorlama ilə hədələmə

metodudur), anama və bacıma da hədə-qorxu gəlirdilər.»

«Polis, Sərdar Cəlaloğluya qarşı ifadə verməyim üçün təzyiq və zorakılıqdan istifadə etməyə çalışırdı.»

Dövlət ittihamçısı: «Tribunada kimi görmüsünüz?»

Şahid: «Arif Hacılını, İbrahim İbrahimlini və İqbal Ağazadəni.[...]»

Dövlət ittihamçısı: «İzahatda nəyin doğru, nəyin isə səhv olduğunu göstərin.»

Şahid: «Demək olar ki, hər şey səhvdir.»

«Müstəntiqə işgəncəyə məruz qaldığımı dedikdə, o, buna fikir vermədi və məni 9-cu polis bölməsinə geri göndərdi. Orada mənə yenidən işgəncələr verdilər. [...]»

«Meydanda əskərlər silahlardan atəş açır və qazdan istifadə edirdilər. İqbal Ağazadə tribunadan nitq söyləmədi. O, sadəcə əlini yelləyirdi. İzdihamın üzərinə təxminən 30 it cumduruldu. İbtidai istintaq zamanı verdiyim ifadələrdən imtina edirəm, çünki onlar təzyiq altındı əldə olunmuşdur. Əsasən qabırğalarımdan və ayaqlarımdan zərbələr almışam.»

*(Qeyd: Şahildin ifadə verməsi lentə alınmışdı və bu yazı məhkəmə zalında nümayiş etdirilmişdir. Lakin materiallara əsasən, görüntü o qədər qaranlıq idi ki, nə ifadə verənin üzündə xəsarət izlərini görmək, nə də həmin şəxsin kimliyini müəyyənləşdirmək mümkün deyildi.)*

«Mənə işgəncə verən iki nəfər, çəkiliş aparılarkən, otağın başqa küncündə dayanmışdı və ona görə də lentə düşməyiblər. Məni dörd gün ac-susuz saxlayıb, işgəncə verirdilər.»

*(Qeyd: Şahid, işgəncələri təfsilatı ilə danışmaq məqsədilə, iclasda iştirak edən qadınlardan zalı tərk etməyi xahiş etdi.)*

**Şəfa SƏFƏROV**

«Mən astmadan əziyyət çəkirəm. Oktyabrın 16-da, seçkilərlə bağlı müşahidə qeydlərini təqdim etmək üçün Müsavatın Qərargahına gəldim. İzdihamın Azadlıq Meydanına doğru hərəkət etdiyini görən kimi, mən də onlara qoşuldum. Meydanda dövlət qüvvələri və qara maskalı adamlar məni döyməyə başladı. Meydandan məni Səbayel Rayon Polis İdarəsinə gətirdilər. Burada məni bir daha döydülər. Sonra məhkəmə mənə on sutka həbs cəzası verdi. Yeddi gündən sonra məni buraxdılar, on gün sonra isə prokurorluğa çağırdılar.»

Dövlət ittihamçısı tərəfindən sual:

«Dindirilmə zamanı mənə təzyiq göstərilirdi. [...] Onlar bir sənəd gətirib, dedilər ki, mən onu imzalamalıyam, əks təqdirdə məni yenidən döyməyə başlayacaqlar.»

Dövlət ittihamçısı: «Səfərov, ibtidai istintaqda izahatı özünüz yazmısınız?»

Şahid: «Xeyr, müstəntiq yazıb.»

Dövlət ittihamçısı: «Onu oxuyubsunuz?»

Şahid: «Xeyr, vəziyyətim ağırlaşmağa başladı. Nəfəs ala bilmirdim. Elə vəziyyətdə idim ki, onu oxumadan imzaladım. Mən heç latın hərflərini oxuya bilmirəm. [...]»

«Keçən həftə məni prokurorluğa çağırdılar və müstəntiq Rasim Hacıyev (sonradan isə Müstəcəb) mənə dedi ki, ibtidai istintaqda verdiyim ifadələri məhkəmədə də təsdiqləməliyəm. [...]»

«İbtidai istintaq zamanı verdiyim ifadədən imtina edirəm. O, təzyiq vasitəsilə əldə olunmuşdur.»

«Polis bölməsində mən, Müsavat Partiyasının üzvü olduğumu gizlətdim, çünki daha da çox döyüləcəyimdən qorxurdum. Mən əvvəllər də çox döyülmüşəm, çünki əslən Füzuli şəhərindənəm, İqbal Ağazadənin yerlisiyəm.»

**2. 15-ci Məhkəmə Prosesində işgəncə və pis rəftar iddialarının təhlili**

Öz hökmündə məhkəmə nə təqsirləndirilən şəxslərin, nə də şahidlərin işgəncə hallarına məruz qalmaları ilə bağlı iddiaları nəzərə almayıb.

Şahid **Kənan Rüstəmova** gəldikdə, məhkəmənin hökmündə Ağır Cinayətlərə dair İşlər üzrə Məhkəmənin Kənanla əlaqədar 5 mart tarixli hökmünə istinad olunmuşdur. Həmin məhkəmə, ifadə verməsi üçün təzyiqə məruz qaldığı barədə Kənanın irəli sürdüyü iddialarını qərəzsiz, ətraflı və təfsilatlı şəkildə araşdırdığını və onların yalan olduğunu elan etmişdir. Əvvəlki hökmdə 19 fevral 2004-cü il tarixdə 1№li Müvəqqəti Saxlama Təcridxanasından göndərilmiş məktuba istinad edilmişdi. Həmin məktuba əsasən, Kənan Rüstəmov 26 oktyabr 2003-cü il tarixdə 1№li saxlama təcridxanasına gətirilərkən, tibbi müayinədən keçirilmiş və bədənində xəsarət izləri aşkar edilməmişdir. Məktuba əsasən, 19 dekabr 2003-cü il tarixdə onun ağ ciyərləri müayinə edilmiş və heç bir patologiya aşkar olunmamışdır. Bu sənədə istinad edərək, 15-ci Məhkəmə Prosesini həyata keçirən məhkəmə əvvəlki hökm əsasında Kənanın işgəncə iddialarının ətraflı şəkildə araşdırıldığının aydın olduğunu bildirmiş və qeyd etmişdir ki, adıçəkilən sənədləri və Kənanın ibtidai istintaq zamanı öz vəkilinin iştirakı ilə ifadə verməsinin videoyazısını nəzərdən keçirərək, əvvəlki məhkəmə Kənan tərəfindən ifadənin heç bir kənar təzyiq və ya əvvəlcədən hazırlanmış mətn olmadan, azad şəkildə verildiyini, onun üzündə və ya əllərində hər-hansı bir xəsarət izlərinin olmadığını, əksinə, dindirilmə zamanı onun baş barmağı ilə intensiv şəkildə jestlər etdiyini göstərmişdi. 15-ci Məhkəmə Prosesini həyata keçirən məhkəmə əvvəlki hökmə istinad edərək bildirmişdir ki, əvvəlki məhkəmədə Kənanın ibtidai həbs zamanı işgəncələrə məruz qalması iddiaları tam şəkildə yoxlanılmış və onların həqiqətə uyğun olmadığı müəyyən edilmişdir. Məhkəmə, ilkin hökmün hələ də qüvvədə qaldığını və bu səbəbdən də, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinin 65 və 142-ci maddələrini rəhbər tutaraq, ilkin hökmün «preyudisial əhəmiyyət daşıyan qeyd-şərtsiz dəlil» kimi qəbul etdiyini bildirmişdir.

15-ci Məhkəmə Prosesini həyata keçirən məhkəmə tərəfindən şahid Rüstəmovun işgəncə iddialarının rədd edilməsi məhkəmənin məsələni diqqətlə araşdırmaq öhdəliklərindən imtina etməsinə bərabər idi. Şahidin iddia etdiyi işgəncələr zamanı onun üzərində heç bir müstəqil tibbi ekspertiza aparılmamışdır. 15-ci Məhkəmə Prosesini həyata keçirən məhkəmə, iddia edilən işgəncələrin lazımi şəkildə araşdırılıb-araşdırılmaması faktlarını təhlil etmədən, ilkin məhkəmənin nəticələrini qəbul etmişdir. Qənaətbəxş araşdırmalar aparmadığı aydın görünən əvvəlki məhkəmənin hökmünə qeyd-şərtsiz riayət edilməsi icraatda iştirak edən hakimlərin işgəncə hallarını ətraflı və səmərəli şəkildə araşdırmaq məsuliyyətindən azad etmir. Kənanın artıq təqsirləndirilən şəxs olmadığı və buna görə də məhkəmədə yalan danışmaqla şəxsi maraq güdmədiyi faktına məhkəmədə məhəl qoyulmamışdır. Bundan

başqa, 15-ci Məhkəmə Prosesini həyata keçirən məhkəmə faktları təkrar olaraq, habelə əvvəlki işin işgəncə hallarının törədildiyi istiqamətində üstünlük təşkil edən bütün digər dəlilləri nəzərə almaqla, araşdırmamışdır. Heç bir ədalətli məhkəmə, işgəncə iddialarını bir daha ətraflı təhqiq etmədən, Kənanın göstərdiyi faktları rədd etməzdi. Məhkəmənin işgəncə iddiaları ilə bağlı artıq həll olunmuş məsələ üzrə etirazlara yol verməmək doktrinasına əsaslanması (yəni, əvvəlki məhkəmənin hökmünə riayət etməyə məcbur olduğunu göstərməsi) icraatda olan iş kontekstində işgəncə iddialarını araşdırmaq öhdəliklərinin əməl olunmamasına bərabərdir. Məhkəmənin 15-ci Məhkəmə Prosesində Kənan tərəfindən bütün digər faktlar kontekstində təqdim olunmuş dəlilləri nəzərdən keçirməməsi süni fərqləndirməni təcəssüm etmişdir; Kənanın verdiyi dəlillərin məhkəmə tərəfindən əsassız və ədalətsiz şəkildə rədd olunduğunu hesab etmək olar. Bundan başqa, dəlillərlə çıxış edərkən, ona işgəncə faktları ilə bağlı yalan danışdığı deyilməmişdi. Bunun da nəticəsi olaraq, şahidə öz iddialarını müdafiə etmək və ya məhkəmənin onun çıxışına edə biləcəyi müdaxilələri cavablandırmaq imkanı verilməmişdir. Azərbaycanda cinayət prosesində, adətən, dövlət ittihamçısından ittiham tərəfinin qəbul etmədiyi şahid dəlillərini çəkişməyi tələb edilməməsi qəbul olunduğundan, məhkəmə işgəncə iddialarının araşdırılması üzrə öhdəliklərini yerinə yetirərkən, məsələyə müxtəlif baxılma qaydaları tətbiq olunur. Belə bir istintaq zamanı, şahidin iddialarla əlaqədar həqiqəti demədiyi bildirilərsə, dövlət ittihamçısının (və ya məhkəmənin) üzərinə həmin faktları şahidin diqqətinə çatdırmaq öhdəliyi düşür ki, bu da şahidə onun yalan danışdığına dair edilən replikanı cavablandırmaq imkanı verir.

**Qocayev Şahin Məhəmməd** oğlunun da dəlillərinə eyni baxılma qaydaları tətbiq olundu. Öz mühakiməsində, habelə 15-ci Məhkəmə Prosesindən dindirilərkən, Şahin öz ilkin ifadələrindən imtina etdi və onları verməyə məcbur edildiyini bildirdi. O, işgəncələrə məruz qaldığını, bədənində hələ də həmin işgəncənin izlərinin olduğunu dedi. Şahinin dediyinə görə, onun qabırğası və dişi sındırılmışdı. Yenə də, 15-ci Məhkəmə Prosesini həyata keçirən məhkəmə Şahini mühakimə edən məhkəmənin gəldiyi qənaətlərə geniş şəkildə əsaslanaraq, onun təqdim etdiyi dəlilləri yenidən nəzərdən keçirmədən, rədd etdi. 15-ci Məhkəmə Prosesini həyata keçirən məhkəmə, Şahinin aldığı yaraların xarakterinə dair onun məhkəməsində təqdim olunmuş tibbi rəyə istinad etdi. Bununla yanaşı, yenə də qeyd etmək lazımdır ki, bu rəy də müstəqil tibbi ekspert tərəfindən təqdim olunmamışdı və Şahinə özü seçdiyi həkim tərəfindən müayinə olunmaq imkanı verilməmişdi. 15-ci Məhkəmə Prosesində aydın oldu ki, sifariş edilmiş tibbi ekspertizalar məhkəmə tərəfindən verilmiş məhdud göstərişlər əsasında həyata keçirilmiş, çox zaman isə yalnız mütəhimlərin üzərində olan xəsarət izlərinin 15-16 oktyabr 2003-cü il tarixli iğtişaşlar zamanı alınması ehtimalını təsdiqləmək məqsədi daşımışdır. Müvafiq olaraq, tibbi rəy, xəsarətlərin şübhəli şəxs həbsə alındıqdan sonra işgəncə halları nəticəsində ortaya çıxması ehtimalının istisna edilməsi baxımından həlledici ola bilməz.

**Müşfiq Məmmədova** da eyni baxılma qaydaları şamil olunmuşdur. Müşfiq, həm öz mühakiməsində, həm də 15-ci Məhkəmə Prosesindən dindirilərkən, öz ilkin ifadələrindən imtina etdi və onları fiziki və psixoloji təzyiq altında verdiyini bildirdi. Yenə də, 15-ci Məhkəmə Prosesini həyata keçirən məhkəmə əvvəlki məhkəmənin hökmünə istinad etdi və hər-hansı bir yeni və ya təfsilatlı araşdırma aparmadan, işgəncə iddialarının əvvəlki məhkəmə tərəfindən obyektiv və dolğun şəkildə araşdırıldığını və təhlil edildiyini bildirdi. Bir daha, nə işin 15-ci Məhkəmə Prosesinin icraatında olması səbəbindən dəlillərin təkrar araşdırılması həyata keçirildi, nə də Müşfiqin artıq təqsirləndirilən şəxs olmadığından yalan danışmasının hər-hansı bir müsbət təsirinin olmaması faktı nəzərə alındı. Qısaca olaraq, 15-ci Məhkəmə Prosesini həyata keçirən məhkəmə əvvəlki məhkəmənin çıxardığı hökm ilə kifayətləndi və, işin öz icraatında olmasını nəzərə almaqla, dəlillərin lazımi təhlilini həyata keçirmədi.

15-ci Məhkəmə Prosesində işgəncə iddiaları ilə bağlı dəlillərlə çıxış edən digər şahid və təqsirləndirilən şəxslərə da eyni baxılma qaydaları şamil olunmuşdur. İcraatında olan işlə əlaqədar dəlilləri araşdırmadan, əvvəlki məhkəmənin qərarlarına istinad edən bu məhkəmə işgəncə halları ilə bağlı öz təfsilatlı və səmərəli araşdırma aparmaq öhdəliklərini yerinə yetirməmişdir. İşgəncə iddiaları ilə bağlı məsələləri müəyyən edərkən, 15-ci Məhkəmə Prosesini həyata keçirən məhkəmə təqsirləndirilən şəxslərin yaxşı reputasiyalarını və davranışlarını nəzərə almamışdır. İşgəncə halları, xüsusilə də Daxili İşlər Nazirliyinin Mütəşəkkil Cinayətkarlığa Qarşı Mübarizə Baş İdarəsində törədilmiş işgəncə hallari ilə bağlı 15-ci Məhkəmə Prosesinin icraatında olan işlə əlaqədar toplanılmış dəlillər, hər-hansı bir ədalətli məhkəmə tərəfindən işgəncə halları üzrə son dərəcə təsilatlı və səmərəli araşdırmaların aparılmasına səbəb olardı. Eyni zamanda, 15-ci Məhkəmə Prosesini həyata keçirən məhkəmə işgəncə iddiaları ilə bağlı düzgün və inandırıcı testlər də aparmadı. İşgəncə məsələsi açıq şəkildə həm təqsirləndirilən şəxslər, həm də şahidlər tərəfindən qaldırılmışdı və, müvafiq olaraq, düzgün yanaşmanın tətbiq olunması da ittiham tərəfinin üzərinə əllərində olan sübutların, heç bir şübhə yaratmadan, işgəncə və ya pis rəftar halları vasitəsilə almadıqlarını sübut etmək yükünü qoymuş olardı.

Müvafiq olaraq, işgəncə iddialarının araşdırılması məsələsi ilə əlaqədar məhkəmənin seçdiyi yanaşma yanlış olmuşdur. Beləliklə, sübutları ədalətli və düzgün şəkildə nəzərdən keçirdikdə, heç bir adil məhkəmə, şahidlərin və təqsirləndirilən şəxslərin irəli sürdükləri işgəncə ittihamlarının rədd edilməsi baxımından 15-ci Məhkəmə Prosesini həyata keçirən məhkəmənin gəldiyi nəticələrə gələ bilməzdi. Yalnız bu səbəbdən, 15-ci Məhkəmə Prosesində ittiham edilən tərəfin mühakiməsi əsaslı sayıla bilməz.

İşgəncə iddialarının müəyyən edilməsi ilə əlaqədar məhkəmənin davranışının digər bir aspektini də nəzərdən keçirək. Məhkəmənin ilkin mərhələlərində aydın olmuşdur ki, şahidlər və təqsirləndirilən şəxslər işgəncə halları ilə bağlı ciddi iddialar irəli sürür. Lakin, ittiham tərəfi öz işini qurtardıqdan sonra uzun müddət ərzində belə, məhkəmə şahidlər tərəfindən qaldırılmış məsələ üzrə hər-hansı bir müvafiq araşdırmanın aparılmasını rədd edirdi. Şahid və təqsirləndirilən şəxslərin ilk olaraq qaldırdıqları işgəncə iddiaları ilə bağlı təfsilatlı araşdırmanın aparılmasına dair təqsirləndirilən şəxslər və onların vəkilləri tərəfindən dəfələrcə müraciətlərin edilməsinə baxmayaraq, məhkəmə bundan imtina etmişdir. Şahidlərin işgəncə ilə bağlı iddia qaldırmasından həftələr sonra, məhkəmə, nəhayət ki, işgəncə verdikləri iddia edilənlərin məhkəmə və tərəflərin dindirməsi üçün çağırılmasına razılıq verdi. Bu yubatma, işgəncə iddialarını irəli sürən şahidlərin ifadələrinin doğruluğunu işgəncələrdə əli olduğu iddia edilən şəxslərin ifadələrilə münasibətdə məhkəmə tərəfindən düzgün təhlil olunmasını qeyri-mümkün etdi. İşgəncə halları ilə bağlı məsələlərin nəinki təqsirləndirilən şəxslər, habelə onlara qarşı ifadə verəcəklərinə ittiham tərəfinin son dərəcə inandığı şahidlər tərəfindən qaldırıldığını nəzərə alaraq, məhkəmə, elə həmin andaca, şahidlərin təqdim etdiyi sübutları düzgün qaydada və hüquqi yolla təhlil etmək üçün, bütün müvafiq şahidləri eyni vaxtda dindirərək, iddiaları təfsilatlı və səmərəli şəkildə araşdırmalı idi. Məhkəmə tərəfindən bunun edilməməsi, böyük ehtimalla, İşgəncə Əleyhinə Konvensiyanın 13-cü Maddəsinin pozulması kimi qəbul oluna bilər. Həmin Maddəyə əsasən, Dövlətlər işgəncəyə məruz qaldıqlarını iddia edən şəxslərin aidiyyatı orqanlara şikayət etmək və işlərinin həmin orqanlar tərəfindən qısa zaman ərzində və qərəzsiz şəkildə araşdırılması ilə bağlı hüquqlarını təmin etməlidir.

### 3. Əsaslı hökm almaq hüququ

Cinayət-Prosessual Məcəlləsində göstərilmişdir ki, məhkəmənin hökmü qanuni və tam əsaslandırılmış olmalıdır. Hazırki hesabatın mətnində (Fəsil 5.M.) qeyd olunduğu kimi, Məhkəmənin hökmünün qanuni hesab edilməsi üçün, o, Azərbaycan Respublikasının

Konstitusiyasının və Cinayət-Prosessual Məcəlləsinin tələblərinə cavab verməlidir. Xüsusən də, hökmün tam əsaslandırılmış olması üçün aşağıdakı dörd tələb də yerinə yetirilməlidir:

- kifayət edən sübutlara əsaslanmalıdır; [151]
- yalnız məhkəmə istintaqında tədqiq edilmiş sübutlara əsaslanmalıdır; [152]
- məhkəmə istintaqında tədqiq edilmiş sübutlarla uyğun gəlməldir; [153]
- məhkəmə prosesi tərəflərinin iştirakı bərabər əsaslarla təmin edilməklə tədqiq olunmuş sübutlarla əsaslanmalıdır. [154]

15-ci Məhkəmə Prosesinə gəldikdə, ATƏT müşahidəçiləri və müstəqil ekspert belə bir qənaətə gəlmişlər ki, təqsirləndirilən şəxslərin 16 oktyabr 2003-cü il iğtişaşlarını təşkil və idarə etdiklərinə və ya orada iştirak etmələrinə dair dəqiq nəticə çıxarmaq üçün məhkəməyə kifayət edən sübutlar təqdim olunmamışdır. Şahidlərin təqdim etdikləri dəlillər o qədər zəif və şübhəli idi ki, heç bir ədalətli məhkəmə, öz qərarını əsaslandırmaq üçün bunlara etibar etməzdi. Çıxardığı hökmdə məhkəmə ittiham tərəfinin dəvət etdiyi şahidlərdən bir çoxunun verdikləri ifadələrin böyük əksəriyyətinin bir-birinə uyğun gəlməməsi faktına (bu faktın özü təqsirləndirilən şəxslərin əleyhinə verilən həmin ifadələrin etibarlı hesab edilməsini qeyri-mümkün edir) lazımi diqqət yetirməmişdir.

Məsələn, məhkəmə üçün əsas olan suallardan biri, təqsirləndirilən şəxs İqbal Ağazadənin 16 oktyabr 2003-cü il tarixdə Azadlıq meydanında tribunadan çıxış edib-etməməsini müəyyənləşdirmək idi. Əgər məhkəmə ittiham tərəfinin şahidinin bu məsələ ilə bağlı verdiyi ifadələrin dolğunluğu və dəqiqliyindən razı qalmasa idi, həmin təqsirləndirilən şəxsə qarşı açılmış iş tamamilə müvəffəqiyyətsiz olardı və heç bir ədalətli məhkəmə onu mühakimə edə bilməzdi. İqbal Ağazadənin tribunadan nitq söylədiyini sübut edəcəyinə ittiham tərəfinin güvəndiyi şahidlərdən biri, İqbal Ağazadənin Meydana liman tərəfdən ağ maşında gəldiyini dedi.[155] Lakin, Məhkəmədə nümayiş etdirilən videoçəkilişdən aydın olmuşdur ki, təqsirləndirilən şəxslər İ.Ağazadə və P.Hüseynov Meydana qara Mersedesdə, özü də liman tərəfdən deyil, 'İnturist' Mehmanxanası tərəfindən gəlmişdir. [156] Məhkəmə bu məsələyə lazımi şəkildə yanaşmamış və şahidin ifadələrinə tətbiq olunacaq hər-hansı isbatlayıcı dəyəri təhlil edərkən, bunu nəzərə almamışdır. İş üzrə təqdim olunan bütün səbəbləri nəzərdən keçirərək, heç bir adil məhkəmə təqsirləndirilən şəxslər Ağazadə və ya Hüseynovun ittiham tərəfinin dediyi qaydada hərəkət etdiyi ilə razı olmazdı.

Təqsirləndirilən şəxs Etimad Əsədova gəldikdə, şahidlərdən biri Əsədovun izdihamın önündə qaçdığını gördüyünü dedi.[157] Lakin Əsədov şikəstdir; beləliklə də, onun izdihamın ön sıralarında qaçması ehtimalı son dərəcə ağlasığmazdır. Həmin şahid, ibtidai istintaqda verdiyi ifadədə Əsədovun tribunada olduğunu göstərmiş, məhkəmədə çıxış edərkən isə, təqsirləndirilən şəxsin tribunada olmadığını demişdir. Belə uyğunsuzluqları nəzərə alaraq və iş üzrə təqdim olunmuş bütün sübutlara əsaslanaraq, heç bir adil məhkəmə təqsirləndirilən şəxs Əsədovun ittiham tərəfinin dediyi qaydada hərəkət etdiyi ilə razı olmazdı.

İttiham tərəfinin dəvət etdiyi şahidlərin əksəriyyəti, ibtidai istintaq zamanı müstəntiqlərə eyni sözlərdən ibarət olan, hətta durğu işarələri və orfoqrafik səhvləri də eyni olan izahatlar

[151] CPM, Maddə 349
[152] CPM, Maddə 349
[153] CPM, Maddə 349
[154] CPM, Maddə 32
[155] Şahid Cəbrayıl Vəliyev, Binəqədi Rayon Polis İdarəsinin əməkdaşı.
[156] İttiham tərəfinin şahidlərindən digər biri isə (Vidadi Nağıyev), İ.Ağazadə və P.Hüseynovun Meydana ağ rəngli «Qaz-24»də gəldiyini demişdir. Həmin şahid onu da demişdir ki, İ.Ağazadə və P.Hüseynov meydana gəldikdə, orada çox az adam ver idi və tribunanın pillələrində 5-6 nəfər durmuşdu. Lakin, video çəkiliş aydın şəkildə göstərdi ki, adıçəkilən təqsirləndirilən şəxslər Meydana gələndə, artıq orada çoxlu nümayişçi var idi və tribunaya da çoxlu adam toplaşmışdı.
[157] Vidadi Nağıyev

vermişdir. Bu, müstəntiqlərin şahid tərəfindən verilən ifadəni dəqiqliklə yazmaq əvəzinə, izahatları özlərinin hazırladığına dair ciddi şübhə oyadır. [158] Narahatçılıq doğuran digər məsələ isə ondan ibarətdir ki, dindirilmə üzrə qeydlərdən müstəntiqin eyni tarixdə və zamanda bir yox, bir neçə şahidi dindirdiyi qənaətinə gəlmək olur. Deməli, bu, iki məna verə bilər: 1) dindirilmə qeydləri düzgün deyil, yaxud da saxtalaşdırılmışdır; və ya 2) əgər qeydlər düzgündürsə, o zaman şahidlər birlikdə dindirilmişdir ki, bu da Cinayət-Prosessual Məcəlləyə ziddir. Bunula bağlı hər-hansı bir qaneedici izahatın verilmədiyinə baxmayaraq, məhkəmə bu məsələni lazımi şəkildə araşdırmamış və sübutların isbatlayıcı dəyərini təhlil edərkən, bunu nəzərə almamışdır.

Təqsirləndirilən şəxslərin vəsatəti əsasında məhkəməyə böyük sayda şahid çağırılmışdır ki, onların da verdiyi ifadələr qəbul olunsa idi, təqsirləndirilən şəxslərə əsaslı yardım göstərmiş və ittiham işinə əsl şübhə salmış olardı. Lakin məhkəmə, müdafiə tərəfinin şahidlərinin təqdim etdiyi sübutları tamamilə qeyri-adekvat qaydada ümumiləşdirərək, öz hökmündə həmin faktları qəbul etməmiş və aşağıdakıları qərara almışdır:

*«Məhkəmə onların [təqsirləndirilən şəxslərin] vəsatəti əsasında dindirilmiş şahidlərin ifadələrini araşdıraraq müəyyən etmişdir ki, yuxarıda göstərildiyi kimi həmin şəxslər təqsirləndirilən şəxslərin rəhbər olduqları partiyaların üzvləri, işçiləri olmaqla, onlarla birgə işləməklə onlara tabe olan şəxslərdir və onlarla məsləkdaşdırlar. Onlardan bəzilərinin ifadələri belə ziddiyyətli olmuşdur. Belə ki, Nicat Hüseynov suallara cavab verərək gah tribunada çıxış edənlərin kütləni zorakılığa çağırmadığını, gah da o, tribunadan 70-100 metr aralı olub çıxışları eşitmədiyini, hətta kimin çıxış etdiyini görə bilmədiyini göstərdi. Nailə Yaqubova meydanda tək olduğunu, Elşad Paşayev isə meydanda Nailənin onunla birlikdə olmasını göstərdilər.*

*Bundan əlavə, onların göstərdiyi hallar hökmün yuxarıda göstərilən hissələrində ətraflı, mötəbər və biri digərini tamamlayan sübut növləri olan zərərçəkənlərin, şahidlərin ifadələri, videokassetlərin nümayişi, maddi sübutlar, qüvvədə olan məhkəmə hökmləri ilə təkzib edilmişdir. Ona görə də məhkəmə onların ifadələrini əsassız hesab edir.*

*Bu barədə iş materiallarından göründüyü kimi məhkəmədə də dindirilən çoxsaylı zərərçəkənlərin və şahidlərin ifadələri ilə, eləcə də 16 oktyabr 2003-cü il hadisəsinin gedişi zamanı sərbəst olaraq bir çox telekanalların çəkmiş olduğu və maddi sübut kimi məhkəmədə nümayiş etdirilən videokassetlərdən də görünür ki, onların bu göstərdiyi hallar əsassızdır.»*

Bu qısa hökm müdafiə tərəfinin təqdim etdiyi sübutlara kifayət qədər fikir verməyərək, müdafiə tərəfinin bir çox şahidlərinin təqdim etdiyi faktları saxta və qeyri-adekvat əsaslarla rədd etmişdir. Müdafiə tərəfindən çıxış edən şahidlərin sübutlarına məhkəmənin münasibəti qeyri-düzgün olmuş və onlara qarşı qərəzlilik və qeyri-obyektivlik nümayiş etdirmişdir. Müdafiə tərəfinin şahidlərinin təqdim etdiyi məlumatlar müdafiə işi üçün son dərəcə əhəmiyyətli idi, lakin bununla belə, öz qərarını çıxararkən, məhkəmə bu faktlara səthi yanaşmış və bütün şahidlərin təqdim etdiyi məlumatları rədd edərək, dəlillərin qəbul olunmaması əsaslarını ayrıca və ya təfsilatlı şəkildə bildirməmişdir.

[158] Misal üçün, şahidlər Nağıyev Vidadi və Babayev Rasimin ifadələrinə baxın.

## 5-Cİ ƏLAVƏ: 15-Cİ MƏHKƏMƏ PROSESİ İLƏ BAĞLI SORĞU FORMALARI[159]

| | |
|---|---|
| **Təqsirləndirilən şəxsin adı** | **HACILI ARİF MUSTAFA OĞLU** |
| **Vəkilinin adı** | OSMAN KAZIMOV |
| **Təqsirləndirilən şəxsə qarşı irəli sürülən ittiham** | Azərbaycan Respublikasının Cinayət Məcəlləsi: Maddə 220.1 (kütləvi iğtişaşlar), 315.2 (xidməti vəzifələrini yerinə yetirməsi ilə əlaqədar hakimiyyət nümayəndəsinə qarşı həyat və sağlamlıq üçün təhlükəli olan zor tətbiq etmə). |
| **Təqsirləndirilən şəxsin tutulduğu gün, yer və saat** | 24 oktyabr 2003-cü ildə öz təşəbbüsü ilə Daxili İşlər Nazirliyinə gedib. Daxili İşlər Nazirinin və Baş Prokurorun iştirakı ilə həbs edilib. |
| **Təqsirləndirilən şəxsin qohumlarına və vəkilinə onun tutulması faktı və saxlanıldığı yer haqqında məlumatın verildiyi gün və saat** | 24 oktyabr 2003-cü il |
| **İlk dindirmələrin keçirildiyi gün, yer və saat** | 24 oktyabr 2003-cü il. Azərbaycan Respublikası Baş Prokurorluğu Ağır Cinayətlərə Dair İşlər Üzrə İstintaq İdarəsi. |
| **Təqsirləndirilən şəxsin əsas hüquqlarının pozulması (xüsusən işgəncə, yaxud qeyri-insani və ya alçaldıcı rəftar) barədə iddiaların qısa məzmunu** | Qeyd: A. Hacılı 9 iyun 2004-cü il tarixdən təkadamlıq kameraya köçürülüb.<br>• rayon məhkəməsinin həbs qətimkan tədbiri seçilməsi haqqında qərarı heç bir qanuni əsasa söykənməyib – istintaq tərəfindən məhkəməyə ilkin sübut təqdim edilməyib;<br>• onun hakimin yanına gətirilməməsi – məhkəmə Hacılının və onun vəkilinin iştirakı olmadan 3 ay müddətinə həbs qətimkan tədbiri seçib;<br>• bü muddət məhkəmə tərəfindən heç bir qanuni əsas olmadan daha 3 ay müddətinə uzadılıb;<br>• o, 34 gun ərzində təkadamlıq kamerada saxlanılıb; ona kağız və qələm verilməyib;<br>• onun təqsirsiz olduğunu sübut etmək iqtidarında olan şahidlərin istintaq orqanı tərəfindən dindirilməsi haqqında vəkillərin vəsatətləri rədd edilib. |
| **Vəkillə ilk görüşün baş tutduğu gün, yer və saat** | 27 oktyabr 2003-cü il. Saat 16.00. |
| **Həbs qətimkan tədbirinin həyata** | 24 oktyabr 2003-cü ildə həbs edilib. 21 oktyabr 2003-cü il tarixdə Nəsimi rayon məhkəməsi qeyri-qanuni olaraq, qiyabi - Hacılının və vəkilinin iştirakı olmadan 3 ay |

[159] Bu sorğu formaları beynəlxalq ekspert Pol Qarlik tərəfəindən tərtib edilib və təqsirləndirilən şəxslərin vəkilləri tərəfindən doldurulub.

| | |
|---|---|
| **keçirildiyi gün, yer və saat** | müddətinə həbs qətimkan tədbiri seçib. |
| **Həbs qətimkan tədbirinin dəyişdirilməsi və zaminə buraxılma məsələsinin məhkəmədə baxışı tarixi və yeri** | Azərbaycan Respublikası Apellyasiya Məhkəməsi - 30 oktyabr 2003-cü il – rədd edilib. |
| **Prokurorun və məhkəmənin həbs qətimkan tədbirinin dəyişdirilmədən saxlanılması üçün gətirdiyi əsaslar** | Törədilən cinayətin xarakterini, ictimai təhlükəlilik dərəcəsini, törədilmə şəraitini, ağırlığını nəzərə alaraq.<br>Qeyd: Apellyasiya Məhkəməsinin qərarında da məhz həmin əsaslar göstərilib. |
| **Təqsirləndirilən şəxsləri oktyabr hadisələri üzrə digər təqsirləndirilən şəxslərdən ayıran 80365 saylı yeni cinayət işinin açıldığı tarix** | 1 mart 2004-cü il.<br>Qeyd: Elə həmin gün istintaqın başa çatması barədə qərar qəbul edilib. |
| **İş materiallarının təqsirləndirilən şəxslərə və onların vəkillərinə verildiyi tarix, habelə müdafiə tərəfinə verilən materialların qısa təsviri** | 6 mart 2004-cü il.<br>22 cildlik cinayət işi materialları, şahidlərin ifadəsi, dəyən zərər barədə məlumatlar, zərərçəkənlərin ifadəsi, hadisələri əks etdirən, adətən bir-birini təkrarlayan 22 ədəd videokaset. |
| **İttiham aktının tərtib edilib təsdiq olunması tarixi; cinayət işinin məhkəməyə göndərilməsi və təqsirləndirilən şəxslərə təqdim olunması tarixi**<br><br>**Məhkəmənin hazırlıq iclasının tarixi** | - 22 aprel 2004-cü ildə təsdiq edilib.<br>- 26 aprel 2004-cü ildə məhkəməyə göndərilib.<br>- 22 aprel 2004-cü ildə təqdim edilib.<br><br>7 may 2004-cü ildə başlayıb. |
| **Hazırlıq iclasına dair təqsirləndirilən şəxslərin şikayətləri (məsələn, müdafiə** | Müdafiənin təşkili üçün texniki vasitələrdən istifadəyə qadağa qoyulub. Məsələn, videoçəkilişlərin aparılması qanunvericiliyə zidd olaraq qadağan edilib. Qəbul edilmiş qərarların surətləri verilməyib, məsələn, müdafiə tərəfinin 31 vəsatət verməsinə baxmayaraq, cəmi 8 qərarın surəti |

| | |
|---|---|
| **tərəfinin qarşılaşdığı əngəllər)** | verilib. Təqsirləndirilən şəxslərin məhkəmə protokolu ilə tanış olmaq, məhkəmə materiallarının surətini almaq və s. barədə vəsatətləri rədd edilib. Vəkillər məhkəmə binası qarşısında döyülüblər. Prokuror təqsirləndirilən şəxsləri cinayətkar adlandırsa da, hakim ona irad bildirməyib. Prosesin 300 iştirakçısı (vəkillər, zərərçəkənlər, ittiham tərəfi və s.) olduğu halda, proses 46 nəfərlik zalda keçirilib. |
| **Müdafiə tərəfinin məhkəməyə təqdim etdiyi bütün vəsatətlərin qısa məzmunu və əgər vəsatətə baxılıbsa, məhkəmənin müvafiq qərarı** | 1. Prosessual hüquqpozmalarla bağlı cinayət təqibinə xitam verilməsi barədə vəsatət<br>2. Hakimlərə etirazla bağlı vəsatətlər. Məsələn, hakimlərdən birinin doğma qardaşı istintaq qrupunun üzvü olmuşdur. Məhkəmə sədrinin oğlu ittiham aktını imzalamış istintaq qrupu rəhbərinin tabeçiliyində işləyir.<br>- Rədd edilib.<br>3. Müdafiənin təşkili məqsədilə videoçəkilişin aparılması barədə vəsatət.<br>- Rədd edilib.<br>4. Həbs qətimkan tədbirinin dəyişdirilməsi barədə vəsatət.<br>- Rədd edilib.<br>5. Müdafiə tərəfinin şahidlərinin cinayət işindəki şahidlərin siyahısına daxil edilərək məhkəməyə dəvət edilməsi barədə vəsatət.<br>- Sonrakı mərhələdə müzakirə edilməsi barədə qərar qəbul edilib.<br>6. Müdafiə tərəfi hazırlıq iclasında sübut növü kimi videokaset təqdim etmişdi. CPM-in 299-cu maddəsinə əsasən, hakim məsələyə hazırlıq iclasında baxmalı və bunu məhkəmənin növbəti mərhələsinə saxlamamalıdır.<br>- qanunvericiliyə zidd olaraq məhkəmənin sonrakı mərhələsində bu məsələyə baxılacağı barədə qərar qəbul edilib.<br>Əsas: Hakim bildirib ki, biz kasetin məzmunu ilə tanış deyilik.<br>7. 15 oktyabr 2003-cü il seçkilərinə dair beynəlxalq təşkilatların (ATƏT, AŞ Parlament Assambleyası, Human Rights Watch və s.) hesabatları müdafiə tərəfindən təqdim edilib.<br>- Rədd edilib.<br>8. 15 oktyabr seçkilərinin nəticələrinin saxtalaşdırıldığını təsdiq edən MSK və digər seçki komissiyaları tərəfindən dərc edilmiş rəsmi sənədlərin təhlilini əks etdirən sənədlər.<br>- Rədd edilib.<br>9. 16 oktyabr 2003-cü il tarixdə A. Hacılının Azadlıq meydanındakı çıxışı dərc edilmiş qəzet məqaləsi.<br>- Qəbul edilib.<br>10. 16 oktyabr 2003-cü il tarixdə Xalçaçılıq muzeyi qarşısındakı meydanda mitinq keçirlməsinə qadağa haqqında Bakı ş. İcra Hakimiyyətinin qərarının tələb edilməsi barədə vəsatət.<br>- Rədd edilib.<br>11. Bakı ş. İcra Hakimiyyətinin başçısı, Daxili İşlər Naziri və |

| | |
|---|---|
| | digər vəzifəli şəxslərin məhkəməyə şahid qismində dəvət edilməsi barədə vəsatət.<br>- Rədd edilib.<br>12. 15-16 oktyabr hadisələrində iştirak etmiş hərbi hissə komandirlərinin məhkəməyə şahid qismində dəvət edilməsi barədə vəsatət.<br>- Rədd edilib.<br>13. Yolverilməz sübutların çıxarılması barədə vəsatət.<br>- sonrakı mərhələyə saxlanılıb. |
| **Məhkəmə prosesinə hazırlaşmaq üçün yaradılan imkanlara dair müdafiə tərəfinin şikayətlərinin qısa məzmunu** | Vəkillərlə birgə videokasetlərə baxılmasına şərait yaradılmayıb. Təqsirləndirilən şəxslərin hamısı əvvəlcə bir kamerada saxlandığı üçün bütün sənədlərin yalnız bir nüsxəsi təqdim edilmişdi. Onun sonradan məhkəmə baxışı ərəfəsində təkadamlıq kameraya köçürülməsi bu baxımdan problemlərə səbəb olub. |
| **İttiham tərəfinin müdafiəyə kömək edə biləcək hər hansı materialı açıqlamaması hallarının qısa məzmunu** | |
| **İnsan hüquqlarının /ədalətli məhkəmə hüququnun pozulması halları ilə bağlı digər şikayətlərin qısa məzmunu** | • Məhkəmə baxışı ərəfəsində təkadamlıq kameraya köçürülüb.<br>• Sübut növü kimi təqdim etdiyi sənədlərin əksəriyyəti qəbul edilməyib.<br>• Müdafiə tərəfinin şahidi kimi təqdim edilən şəxslərin siyahısı qəbul edilməyib.<br>• Qəbul olunmuş qərarların əksəriyyətinin surəti verilməyib.<br>• Prosessual pozuntular, o cümlədən işgəncələrlə bağlı vəsatətlər təmin edilməyib. |
| **Müdafiə tərəfinin ATƏT-in DTİHB-na bildirmək istədiyi digər müvafiq mülahizələr** | Xahiş edirik ki, ATƏT/DTİHB-nin dəvət etdiyi müstəqil hüquqşünas bu məhkəmə prosesini məhkəmə hökmü çıxarılanadək müşahidə etsin. Həmçinin ATƏT-in bu məhkəmə prosesi ilə əlaqədar hazırlayacağı hesabatın surəti Beynəlxalq Amnistiya təşkilatının London ofisinə təqdim edilsin. |

| | |
|---|---|
| **Təqsirləndirilən şəxsin adı** | **ƏSƏDOV ETİMAD SAVALAN OĞLU** |
| **Vəkilinin adı** | YAVƏR HÜSEYN |
| **Təqsirləndirilən şəxsə qarşı irəli sürülən ittiham** | Azərbaycan Respublikasının Cinayət Məcəlləsi: Maddə 32.4, 220.1 (kütləvi iğtişaşa təhrik etmə), 32.4, 315.2 (hakimiyyət nümayəndəsinə zor tətbiq etməyə təhrik etmə). |
| **Təqsirləndirilən** | 17 oktyabr 2003-cü ildə Mütəşəkkil Cinayətkarlığa Qarşı |

| | |
|---|---|
| **şəxsin tutulduğu gün, yer və saat** | Mübarizə Baş İdarəsinə çağırılaraq həbs edilmişdir. 10 gün müddətinə inzibati həbs verildikdən sonra cinayət işi başlanılmışdır. |
| **Təqsirləndirilən şəxsin qohumlarına və vəkilinə onun tutulması faktı və saxlanıldığı yer haqqında məlumatın verildiyi gün və saat** | Qohumlarına və vəkilinə onun tutulması faktı və saxlanıldığı yer haqqında məlumat verilməmiş, 26 oktyabr 2003-cü il tarixdə vəkil ilk dəfə onunla görüşə bilmiş və bundan sonra da saxlanılma yeri barədə dəqiq məlumat əldə olunmuşdur. |
| **İlk dindirmələrin keçirildiyi gün, yer və saat** | İlk dindirmə 20 oktyabr 2003-cü il tarixdə Azərbaycan Respublikası Baş Prokurorluğu Ağır Cinayətlərə Dair İşlər Üzrə İstintaq İdarəsində vəkilin iştirakı olmadan aparılmışdır. |
| **Təqsirləndirilən şəxsin əsas hüquqlarının pozulması (xüsusən işgəncə, yaxud qeyri-insani və ya alçaldıcı rəftar) barədə iddiaların qısa məzmunu** | İlkin sübutlar, ümumiyyətlə heç bir sübut olmadan tutularaq məsuliyyətə cəlb edilmiş, ayağının birini itirmiş əlil olmasına baxmayaraq fiziki və psixoloji təqiblərə məruz qalmışdır. Kamerada tək və ağır şəraitdə saxlanılmışdır. Bir çox hallarda bağlama qəbul olunmasından imtina edilmişdir. Təqiblərə görə E. Əsədov 2 dəfə 5-6 günlük aclıq aksiyası keçirmişdir. |
| **Vəkillə ilk görüşün baş tutduğu gün, yer və saat** | Vəkillə ilk dəfə 26 oktyabr 2003-cü ildə istintaq təcridxanasında görüşmüşdür. Yəni vəkil müdafiəçi qismində prosesə daxil olduğu gündən 6 gün sonra buna nail olmuşdur. |
| **Həbs qətimkan tədbirinin həyata keçirildiyi gün, yer və saat** | 20 oktyabr 2003-cü ildə barəsində 3 ay müddətinə həbs qətimkan tədbiri seçilib. 15 yanvar 2004-cü il tarixdə daha 3 ay müddətinə uzadılıb (20 aprel 2004-cü il tarixədək) |
| **Həbs qətimkan tədbirinin dəyişdirilməsi və zaminə buraxılma məsələsinin məhkəmədə baxışı tarixi və yeri** | Həbs qətimkan tədbirinin dəyişdirilməsi üçün müdafiə tərəfindən verilmiş bütün vəsatətlər rədd edilib. Belə bir vəsatət ilk dəfə 20 oktyabr 2003-cü il tarixdə, sonra isə 15 yanvar 2004-cü il və 25 iyun 2004-cü il tarixlərdə verilib. |
| **Prokurorun və məhkəmənin həbs qətimkan tədbirinin dəyişdirilmədən saxlanılması üçün gətirdiyi əsaslar** | Prokurorluq və məhkəmə həbs qətimkan tədbirinin dəyişdirilməsindən imtinanı təqsirləndirilən şəxsin istintaq və məhkəmədən qaçıb gizlənə biləcəyi ilə əsaslandırmağa çalışıb. |
| **Təqsirləndirilən şəxsləri oktyabr hadisələri üzrə digər təqsirləndirilən** | 01 mart 2004-cü ildə 80308 saylı cinayət işindən ayrılmışdır. |

| | |
|---|---|
| **şəxslərdən ayıran 80365 saylı yeni cinayət işinin açıldığı tarix** | |
| **İş materiallarının təqsirləndirilən şəxslərə və onların vəkillərinə verildiyi tarix, habelə müdafiə tərəfinə verilən materialların qısa təsviri** | Cinayət işinin materialları ilə müdafiə tərəfi 2004-cü ilin may ayında tanış olub. |
| **İttiham aktının tərtib edilib təsdiq olunması tarixi; cinayət işinin məhkəməyə göndərilməsi və təqsirləndirilən şəxslərə təqdim olunması tarixi**<br><br>**Məhkəmənin hazırlıq iclasının tarixi** | 22 aprel 2004-cü ildə ittiham aktı təsdiq edilərək Ağır Cinayətlərə dair İşlər üzrə Məhkəməyə göndərilib.<br><br>Məhkəmənin hazırlıq iclası 7 may 2004-cü ildən 15 iyun 2004-cü ilədək davam edib. |
| **Hazırlıq iclasına dair təqsirləndirilən şəxslərin şikayətləri (məsələn, müdafiə tərəfinin qarşılaşdığı əngəllər)** | Müdafiə tərəfinin qanunvericilikdə yol verilən şəkildə texniki vasitələrdən istifadə etməsinə icazə verilməmiş, vəkillər polis zorakılığına məruz qalmış, onların təhlükəsizliyinin təmin olunması üçün heç bir tədbir görülməyib. |
| **Müdafiə tərəfinin məhkəməyə təqdim etdiyi bütün vəsatətlərin qısa məzmunu və əgər vəsatətə baxılıbsa, məhkəmənin müvafiq qərarı** | Müdafiə tərəfindən 50-dək vəsatət verilib. Əsas vəsatətlər videoçəkilişin aparılmasına icazə verilməsi, əlavə şahidlərin dindirilməsi, zəruri sənədlərin, o cümlədən videokasetlərin surətlərinin verilməsi və s. barədə vəsatətlər də daxil olmaqla verilmiş bütün vəsatətlər rədd edilmiş, hətta vəsatətlərlə bağlı çıxarılmış qərarların müdafiə tərəfinə verilməsindən imtina edilmişdir. |
| **Məhkəmə prosesinə hazırlaşmaq üçün yaradılan imkanlara dair müdafiə tərəfinin şikayətlərinin qısa məzmunu** | Müdafiə tərəfi cinayət işi materialları ilə tanış ola bilmişdir (cinayət işinin ibtidai araşdırması başa çatdıqdan sonra). |
| **İttiham tərəfinin müdafiəyə kömək edə biləcək hər hansı** | İttiham tərəfinin sübutu olan 22 ədəd videokasetin surətləri, habelə telefon danışıqlarına qulaq asılması və çıxarışlar edilməsi barədə qərarlar (bu qərarlar məhkəmə tərəfindən qəbul olunmalıdır ki, belə qərarlar da olmamışdır). |

| | |
|---|---|
| **materialı açıqlamaması hallarının qısa məzmunu** | |
| **İnsan hüquqlarının /ədalətli məhkəmə hüququnun pozulması halları ilə bağlı digər şikayətlərin qısa məzmunu** | Təqsirləndirilən şəxsin işgəncələrə və qeyri-insani rəftara məruz qalması, əsassız həbs edilməsi, lehinə və ya əleyhinə ifadə vermiş şahidləri dindirməkdən məhrum edilməsi, müdafiə tərəfindən hüquqlarının qorunmasına lazımi şərait yaradılmaması, hüquq müdafiəsinin səmərəli vasitələrindən istifadə edilməsinə (o cümədən texniki vasitələrdən istifadə etməyə) icazə verilməməsi ilə Avropa Konvensiyasının 3, 5, 6 və 13-cü maddələrinin tələbləri pozulub. |
| **Müdafiə tərəfinin ATƏT-in DTİHB-na bildirmək istədiyi digər müvafiq mülahizələr** | İşə baxan hakimlər müstəqil olmamaqla hakimlərin siyasi sifarişini yerinə yetirdiklərindən onların ədalətli məhkəmə baxışı həyata keçirəcəkləri və ədalətli qərar çıxaracaqları da inandırıcı deyil. Bu fakt artıq göz qabağındadır. Təqsirləndirilən şəxslərin hüquq və azadlıqlarının müdafiə olunması, o cümlədən onların azadlığa buraxılmaları yalnız beynəlxalq hüquq müdafiə təşkilatlarının Azərbaycan hökumətinə təpkisi sayəsində mümkündür. |

| | |
|---|---|
| **Təqsirləndirilən şəxsin adı** | **İBRAHİMOV İBRAHİM MƏŞƏHİLAL OĞLU** |
| **Vəkilinin adı** | HADİ MİRİSMAYIL |
| **Təqsirləndirilən şəxsə qarşı irəli sürülən ittiham** | İlkin ittiham - CM-in 220.1 və 315.2-ci maddələri<br>Son ittiham – CM-in 32.3, 220.1 və 32.3, 315.2-ci maddələri |
| **Təqsirləndirilən şəxsin tutulduğu gün, yer və saat** | 17 oktyabr 2003-cü il saat 23 radələrində yaşadığı Bakı şəh. Hidayətzadə küç. 53 saylı evin 11-saylı mənzilində DİN MCQMİ-nin əməkdaşları tərəfindən tutulub. |
| **Təqsirləndirilən şəxsin qohumlarına və vəkilinə onun tutulması faktı və saxlanıldığı yer haqqında məlumatın verildiyi gün və saat** | 18 oktyabr 2003-cü ildə saat 18.00 radələrində vəkili Mirismayil Hadiyə məlumat verilmişdir. |
| **İlk dindirmələrin keçirildiyi gün, yer və saat** | 18 oktyabr 2003-cü il, saat 21-22 radələrində Baş Prokurorluğun ACDİÜ istintaq idarəsində |
| **Təqsirləndirilən şəxsin əsas hüquqlarının pozulması (xüsusən işgəncə, yaxud qeyri-** | 17 oktyabrda tutulan zaman sənəd təqdim olunmayib, tutulma protokolu tərtib edilməyib, tutulma qeydə alınmayıb, CPM-nin 153-ci maddəsində nəzərdə tutulan tutulmuş şəxsin hüquqları təmin edilməyib. 17- |

| | |
|---|---|
| **insani və ya alçaldıcı rəftar) barədə iddiaların qısa məzmunu** | 22 oktyabr tarixlərdə qanunsuz olaraq MCQMİ-də saxlanılıb. CPM-nin 157.3 maddəsi pozulub. Orada o ağır fiziki və mənəvi işgəncələrə məruz qalıb. Əl barmağı qapı arasında sıxılaraq sındırılıb, döyülmə nəticəsində kürək, böyrək nahiyələrində xəsarətlər alıb, dəyənək zərbələrindən qıç və ayaqlarının altında xəsarətlər yaranıb. 17-22 oktyabr tarixlərində MCQMİ-də vəkillə görüşməyə icazə verilməyib. |
| **Vəkillə ilk görüşün baş tutduğu gün, yer və saat** | 18 oktyabr 2003-cü il saat 21 radələrində Baş Prokurorluğun ACDİÜ istindaq idarəsinin binası. 24 oktyabra qədər görüşə icazə verilməyib. |
| **Həbs qətimkan tədbirinin həyata keçirildiyi gün, yer və saat** | 18 oktyabr 2003-cü il gecə saat 21.00 radələri. Nəsimi rayon məhkəməsində. |
| **Həbs qətimkan tədbirinin dəyişdirilməsi və zaminə buraxılma məsələsinin məhkəmədə baxışı tarixi və yeri** | 12 yanvar 2004-cü il<br>29 yanvar 2004-cü il<br>15 yanvar 2004-cü il |
| **Prokurorun və məhkəmənin həbs qətimkan tədbirinin dəyişdirilmədən saxlanılması üçün gətirdiyi əsaslar** | - cinayət prosesini həyata keçirən orqandan gizlənməsi ehtimalı;<br>- əməlin xarakteri və ağırlığı;<br>- istintaq hərəkətləri keçirmək üçün. |
| **Təqsirləndirilən şəxsləri oktyabr hadisələri üzrə digər təqsirləndirilən şəxslərdən ayıran 80365 saylı yeni cinayət işinin açıldığı tarix** | 01 mart 2004-cü ildə 80308 saylı işdən ayrılıb, 02 mart 2004-cü ildə ibtidai araşdırma başa çatıb. |
| **İş materiallarının təqsirləndirilən şəxslərə və onların vəkillərinə verildiyi tarix, habelə müdafiə tərəfinə verilən materialların qısa təsviri** | 05 mart 2004-cü ildən 06 aprelə kimi materiallar ləngimələrlə təqdim olunub. Vəkillərə, o cümlədən M. Hadiyə videokasetlərə baxmağa imkan verilməyib, maddi sübutlar təqdim olunmayıb. |
| **İttiham aktının tərtib edilib təsdiq** | - 22 aprel 2004-cü ildə ittiham aktı tərtib edilib.<br>- 26 aprel 2004-cü ildə məhkəməyə təqdim olunub. |

| | |
|---|---|
| **olunması tarixi; cinayət işinin məhkəməyə göndərilməsi və təqsirləndirilən şəxslərə təqdim olunması tarixi**<br><br>**Məhkəmənin hazırlıq iclasının tarixi** | 07 may 2004-cü il |
| **Hazırlıq iclasına dair təqsirləndirilən şəxslərin şikayətləri (məsələn, müdafiə tərəfinin qarşılaşdığı əngəllər)** | - Məhkəmə binası polislər tərəfindən əhatəyə alınıb;<br>- Polislər tərəfindən dəfələrlə vəkillərə qarşı fiziki güc tətbiq olunub, məhkəməyə daxil olmağa manecilik törədilib;<br>- Vəsatətlərlə bağlı qərarların sürətləri verilməyib, videokasetlərə baxmağa sərait yaradılmayıb. |
| **Müdafiə tərəfinin məhkəməyə təqdim etdiyi bütün vəsatətlərin qısa məzmunu və əgər vəsatətə baxılıbsa, məhkəmənin müvafiq qərarı** | 1. Videokasetlərə baxış keçirilməsi və surətlərinin çıxarılması barədə;<br>2. Prosessual qanun pozuntuları haqda;<br>3. Cinayət təqibinə xitam verilməsi haqda;<br>4. İşgəncələrlə bağlı;<br>5. Sübutların (müdafiə) siyahısı;<br>6. Yolverilməz sübutların xaric edilməsi;<br>7. Qərarların surətlərinin verilməsi;<br>8. Məhkəmə tərkibinə etirazlar;<br>9. Məhkəmə iclas protokolu ilə tanışlıq;<br>10. Videoçəkilişin aparılmasına icazə haqda və s. |
| **Məhkəmə prosesinə hazırlaşmaq üçün yaradılan imkanlara dair müdafiə tərəfinin şikayətlərinin qısa məzmunu** | 1. Videokasetlərə baxış və surətlərinin çıxarılmasına şərait yaradılmaması;<br>2. Qərarların surətlərinin verilməməsi;<br>3. İclas protokolu ilə tanışlığa icazə verilməməsi. |
| **İttiham tərəfinin müdafiəyə kömək edə biləcək hər hansı materialı açıqlamaması hallarının qısa məzmunu** | 1. Videokasetlər<br>2. Çıxarılan qərarların surətləri<br>3. Məhkəmə hazırlıq və baxışı iclasları protokolları; və s.<br>Həmçinin: Təqsirləndirilən şəxslərin cinayətkar adlandırılması, təqsirsizlik prezumpsiyasının pozulması. |
| **İnsan hüquqlarının /ədalətli məhkəmə hüququnun pozulması halları ilə bağlı digər şikayətlərin qısa məzmunu** | 1. Qanunsuz tutulma, saxlama, həbs, işgəncələr, müdafiə hüququnun pozulması;<br>2. Məhkəmənin müstəqil olmaması, aşkar keçirilməməsi;<br>3. Məhkəmə tərkibinin ittiham mövqeyini müdafiə etməsi, ittihamçı kimi çıxış etməsi;<br>4. Müdafiə tərəfinin bütün vəsatətlərini rədd etməsi;<br>5. Məhkəmənin çəkişmə prinsipinə əməl etməməsi; və s. |

| | |
|---|---|
| **Müdafiə tərəfinin ATƏT-in DTİHB-na bildirmək istədiyi digər müvafiq mülahizələr** | - ATƏT-in və digər beynəlxalq təşkilatların ədalətli məhkəmə keçirilməsi barədə tələblərini bir daha Azərbaycan hakimiyyəti qarşısında qaldırmaq;<br>- Məhkəmə baxışının ATƏT nümayəndələri tərəfindən aparılan monitorinqinin obyektiv nəticələrinin müvafiq təşkilatlara və dövlətlərə çatdırılması;<br>- Azərbaycan məhkəmələrində ədalətli məhkəmənin keçirilməsinin qeyri-mümkünlüyü. |

| | |
|---|---|
| **Təqsirləndirilən şəxsin adı** | **AĞAZADƏ İQBAL FEHRUZ OĞLU** |
| **Vəkilinin adı** | OSMAN KAZIMOV<br>MÜBARİZ QARAYEV |
| **Təqsirləndirilən şəxsə qarşı irəli sürülən ittiham** | Azərbaycan Respublikası Cinayət Məcəlləsi:<br>32.3, 220.1 – Kutləvi iğtişaşı təşkil etmə;<br>32.3, 315.2 – Hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etməni təşkil etmə. |
| **Təqsirləndirilən şəxsin tutulduğu gün, yer və saat** | 17 oktyabr 2003 saat $16^{00}$-$17^{00}$ Bakı şəhərində şəxsi evində zorakılıqla DİN MCMİ–nin 100 nəfərə yaxın silahlı dəstəsi tərəfindən tutularaq MCMİ-yə aparılıb. |
| **Təqsirləndirilən şəxsin qohumlarına və vəkilinə onun tutulması faktı və saxlanıldığı yer haqqında məlumatın verildiyi gün və saat** | Heç bir məlumat verilmədən, prokurorluq orqanının nümayəndəsinin iştirakı olmadan qəflətən basqın edilməklə tutulub. İ. Ağazadə ilə birlikdə qardaşı, qayınatası, əmisi oğlu, bacısının əri, həmçinin vəkili və jurnalistlər də qanunsuz olaraq tutulublar. |
| **İlk dindirmələrin keçirildiyi gün, yer və saat** | 17 oktyabr 2003, saat $19^{00}$–$21^{00}$ radələrində. Həmin gün saat $23^{00}$–$24^{00}$ radələrində Nəsimi rayon məhkəməsi qanunsuz və əsassız olaraq, barəsində həbs qətimkan tədbiri seçib. |
| **Təqsirləndirilən şəxsin əsas hüquqlarının pozulması (xüsusən işgəncə, yaxud qeyri-insani və ya alçaldıcı rəftar) barədə iddiaların qısa məzmunu** | Tutularkən özü və ailə üzvləri vəhşicəsinə döyülmüş, təhqir olunmuşlar, hədə və təhdidlərə məruz qalmışlar. Heç bir zərurət olmadığı halda MCMİ-nin üzü maskalı, qara paltarlı əməkdaşları tərəfindən avtomat silahlardan çoxsaylı atəşlər açılmış, həyətdə olan bütün şəxslər - qadınlar, uşaqlar jurnalistlər və vəkil də daxil olmaqla, yerə uzadılmış, onları yerlə sürümüşlər, silahların qundağı, dubinkalar və təpiklə döymüşlər.<br>İqbal Ağazadə ilə birlikdə tutulan qardaşı, qayınatası, əmisi oğlu, bacısının əri, vəkili tutulduqları yerdən MCMİ–yə aparılarkən avtomaşında da döyülmə, təhqir olunma, odlu silahla hədələnmə və s. qeyri-insani rəftara məruz qalmışlar.<br>Evdə qalan qadınlar və uşaqlar hədələnərək qorxudulmuşlar.<br>MCMİ–yə gətirildikdən sonra göstərilən şəxslər idarənin |

| | |
|---|---|
| | həyətində MCMİ – nin rəhbərliyinin iştirakı ilə yenidən yerə uzadılaraq əlləri qandallanmış, vəhşicəsinə döyülmüşlər, belə vəziyyətdə istehza olunaraq videolentə alınmışlar.<br><br>MCMİ–nin binasında, II mərtəbədə İqbal Ağazadə bir neçə saat ərzində ağır işgəncələrə məruz qalmış, döyülmüş, təhqir olunmuş, hədələnmiş, ailə üzvlərinin həbs ediləcəyi, işgəncələrə məruz qoyulacağı ilə hədələnmişdir, bədəninin müxtəlif hissələrinə xəsarətlər yetirilmişdir.<br><br>Qardaşı İlqar Ağazadə də işgəncələrə məruz qalmış, vəhşicəsinə döyülmüş, təhqir olunmuş, hamının gözü qarşısında üzərinə silah qoyulmuş, barəsində qondarma cinayət işi qaldırılmış, həbs olunaraq MCMİ-də saxlanılmış, işgəncələr və təhqirlər davam etdirilmişdir.<br><br>İşgəncələrə və təhqiramiz hərəkətlərə məruz qaldıqdan sonra İqbal Ağazadə dindirilməsi üçün prokurorluğa aparılmış, müstəntiqə bu barədə yazılı ifadə verməsinə baxmayaraq heç bir tədbir görülməmişdir. Onun barəsində həbs qətimkan tədbiri seçildiyinə və istintaq təcrildxanasına keçirilməli olduğuna baxmayaraq qanunsuz olaraq yenidən MCMİ-yə qaytarılmış, orada 6 gün saxlanılmış, bu müddət ərzində daha ağır işgəncələrə və qeyri-insani rəftara məruz qalmış, ac-susuz saxlanılaraq, qadın ailə üzvlərinin MCMİ-yə gətirilməsi ilə hədələnmişdir. Onu bu hədələr altında «ANS» telekanalına çıxaraq zorla ifadə verməyə məcbur etmişlər. Müsahibə telekanallar vasitəsilə qanunsuz olaraq efirə verilmişdir, halbuki MCMİ-də saxlanıldığı vaxt vəkili ilə görüşə belə icazə verməmişlər. |
| **Vəkillə ilk görüşün baş tutduğu gün, yer və saat** | MCMİ-də 6 gün saxlanılarkən vəkillə görüşə icazə verilməmişdir. Onunla birlikdə tutulan vəkili 6 saat qanunsuz olaraq MCMİ-də saxlanılmışdır.<br>İlk görüş 23 oktyabr 2003 tarixdə baş tutmuşdur. |
| **Həbs qətimkan tədbirinin həyata keçirildiyi gün, yer və saat** | 17 oktyabr 2003 tarixdə saat $23^{00}$ – $24^{00}$ radələrində Nəsimi rməhkəməsi heç bir əsas və zərurət olmadan, qanunsuz şəkildə həbs qətimkan tədbiri seçmişdir. |
| **Həbs qətimkan tədbirinin dəyişdirilməsi və zaminə buraxılma məsələsinin məhkəmədə baxışı tarixi və yeri** | - 17 oktyabr 2003 – Nəsimi rayon məhkəməsi<br>- 31 oktyabr 2003 – Apellyasiya məhkəməsi<br>- 15 yanvar 2004 - Nəsimi rayon məhkəməsi<br>- 29 yanvar 2004 - Apellyasiya məhkəməsi<br>- 17 dekabr 2003 - Nəsimi rayon məhkəməsi<br>Bu məsələ üzrə çıxarılmış bütün qərarlar qanunsuz, əsassız və qərəzli olmuşdur. |
| **Prokurorun və məhkəmənin həbs qətimkan tədbirinin dəyişdirilmədən saxlanılması üçün gətirdiyi əsaslar** | - istinad olunan əməlin xarakteri və ağırlığı;<br>- cinayət prosesini həyata keçirən orqandan gizlənmə ehtimalı<br>kimi şablon ifadələr. |
| **Təqsirləndirilən** | 80365 saylı cinayət işi 01 mart 2004 tarixdə ayrılmışdır. |

| | |
|---|---|
| **şəxsləri oktyabr hadisələri üzrə digər təqsirləndirilən şəxslərdən ayıran 80365 saylı yeni cinayət işinin açıldığı tarix** | Bundan əvəl 14 müxtəlif cinayət işi ayrılmış və 120 nəfər qanunsuz olaraq məhkum olunmuşdur. |
| **İş materiallarının təqsirləndirilən şəxslərə və onların vəkillərinə verildiyi tarix, habelə müdafiə tərəfinə verilən materialların qısa təsviri** | 06 mart 2004 tarixdə.<br>- 22 cild cinayət işinin materialları – şahid və zərərçəkənlərin ifadələri (əksəriyyəti polis işçiləri və əsgərlər olmaqla);<br>- 22 ədəd videokaset. |
| **İttiham aktının tərtib edilib təsdiq olunması tarixi; cinayət işinin məhkəməyə göndərilməsi və təqsirləndirilən şəxslərə təqdim olunması tarixi**<br><br>**Məhkəmənin hazırlıq iclasının tarixi** | - 22 aprel 2004 tarixdə təsdiq olunub;<br>- 26 aprel 2004 – məhkəməyə göndərilib;<br>- 22 aprel 2004 – təqsirləndirilən şəxslərə təqdim olunub.<br><br>12 may 2004 tarixdə başlamış, müxtəlif fasilələrlə təxminən 1,5 ay davam etmişdir. |
| **Hazırlıq iclasına dair təqsirləndirilən şəxslərin şikayətləri (məsələn, müdafiə tərəfinin qarşılaşdığı əngəllər)** | - 250 nəfərə yaxın proses iştirakçısı olduğu halda cəmi 50 nəfərlik iclas zalının ayrılması;<br>- hazırlıq iclasında müdafiə tərəfinə video və audio yazıdan istifadəyə əsassız olaraq icazə verilməməsi;<br>- müdafiə tərəfinin bütün qanuni və əsaslı vəsatətlərinin birmənalı şəkildə rədd olunması;<br>- zalda quraşdırılmış monitor vasitəsilə məhkəməyə gizli nəzarət olunması;<br>- məhkəmənin hazırlıq iclasında baxdığı vəsatətlərə dair çıxardığı hətta rəddolunma barədə qərarların sürətlərinin müdafiə tərəfinə verilməməsi; və s. |
| **Müdafiə tərəfinin məhkəməyə təqdim etdiyi bütün vəsatətlərin qısa məzmunu və əgər vəsatətə baxılıbsa, məhkəmənin müvafiq qərarı** | - 07 may 2004 – geniş zal və videoyazı barədə;<br>- 12-13 may 2004 – həbs qətimkan tədbirinin dəyişdirilməsi haqqında;<br>- işgəncə faktları və prosessual pozuntular barədə;<br>- cinayət işinə xitam verilməsi və saxtakarlığa yol vermiş şəxslərin cinayət məsuliyyətinə alınmaları, vurulmuş zərərə görə kompensasiya;<br>- iyun 2004 – sübut kimi yolverilməz materialların xaric olunması barədə;<br>- sübutlar siyahısı və əlavə şahidlərin çağırılması barədə;<br>- məhkəməyə etirazlar; və s. |

| | |
|---|---|
| **Məhkəmə prosesinə hazırlaşmaq üçün yaradılan imkanlara dair müdafiə tərəfinin şikayətlərinin qısa məzmunu** | Keyfiyyətli tanışlıq və hazırlıq üçün kifayət qədər imkan yaradılmamışdır. Cinayət işi materiallarının surətinin çıxarılmasında və maddi sübutlara, videokassetlərə baxışa istintaq orqanı tərəfindən süni maneələr yaradılmışdır. 22 ədəd videokaset ümumiyyətlə müdafiəçilərə baxış üçün təqdim olunmayıb. Halbuki 15-16 oktyabr 2003 hadisələri əvvəldən axıra qədər həmin kasetlərdə öz əksini tapıb. |
| **İttiham tərəfinin müdafiəyə kömək edə biləcək hər hansı materialı açıqlamaması hallarının qısa məzmunu** | Dövlət ittihamçısı tərəfindən 22 ədəd videokasetin surətlərinin çıxarılmasına və müdafiə tərəfinə təqdim edilməsinə əngəllər yaradılır, məhkəməyə açıq-aşkar təzyiq göstərilir. Təqsirləndirilən şəxsləri cinayətkar adlandıraraq təqsirsizlik prezumpsiyasını pozur, onları açıq-aşkar hədələyir, bəyan edir ki, kim ittihamın xeyrinə ifadə versə, məhkəmə onları nəzərə alacaq.<br><br>Məhkəmə ittilham tərəfi ilə eyni mövqedən çıxış edir, təqsirləndirilən şəxsləri cinayətkar adlandıraraq onları hədələyən prokurora qarşı heç bir irad bildirmir. |

| | |
|---|---|
| **İnsan hüquqlarının /ədalətli məhkəmə hüququnun pozulması halları ilə bağlı digər şikayətlərin qısa məzmunu** | Avropa Konvensiyasının 3, 5, 6 və s. maddələri kobud şəkildə pozulmuşdur:<br>- İqbal Ağazadə tutularkən və MCMİ-də saxlanarkən ağır işgəncələrə və qeyri-insani, ləyaqəti alçaldan davranışa məruz qalmışdır (3-cü maddə);<br>- qanunsuz tutulmaya və daha sonra qanunsuz həbsə məruz qalmışdır, siyasi baxışlarına və müxalif mövqeli millət vəkili olduğuna görə qanunsuz olaraq toxunulmazlıq hüququ əlindən alınaraq həbs olunmuşdur (5-ci maddə);<br>- təqsirini sübut edəcək heç bir dəlil yoxdur, sifariş əsasında hələ də həbsdədir;<br>- məhkəmə qərəzli və qeyri-obyektivdir, ittiham tərəfin mövqeyini açıq surətdə müdafiə edir, təqsirləndirilənlərin qanuni hüquqlarını pozur, müdafiə tərəfinin qanuni və əsaslı vəsatətlərinin hamısını, o cümlədən sübutlar siyahısı və əlavə şahidlərin dəvət olunması barədə vəsatətləri rədd edir.<br>Heç bir əsas olmadan məhkəmə prosesi yubadır və təxirə salır, təqsirləndirilən şəxslərin və müdafiəçilərin iştirakı olmadan qərarlar qəbul edir, məhkəmə baxışını təyin edir.<br>Hakimlərdən birinin qardaşı ibtidai istintaqı aparan istintaq qrupunun üzvü olub. Məhkəmə sədrinin oğlu ittihamı təsdiq edib imzalayan prokurorluğun idarə rəisinin tabeçiliyində çalışır və bilavasitə ona tabedir. |
| **Müdafiə tərəfinin ATƏT-in DTİHB-na bildirmək istədiyi digər müvafiq mülahizələr** | İqbal Ağazadə Azərbaycan parlamentinin üzvüdür, «Ümid» partiyasının sədridir. 15 oktyabr 2003–cü ildə keçirilmiş prezident seçkilərində müxalifətdə olan «Bizim Azərbaycan» Blokunun namizədi İsa Qəmbəri dəstəkləyib. Onun və ailəsinin başına gətirilənlər məhz bu faktorla bağlıdır, millət vəkili kimi parlamentin tribunasından etdiyi çıxışları ilə əlaqədardır.<br>Qardaşının üzərinə silah qoyularaq həbsə alınması, qondarma cinayət işinin bu gün də davam etdirilməsi yuxarıda göstərilənlərlə əlaqədardır.<br>İqbal Ağazadəyə münasibətdə Avropa Konvensiyasının çoxsaylı maddələri ilə yanaşı, Azərbaycan Respublikası Cinayət Prosessual Məcəlləsinin 1.2.2, 12.1, 12.6, 14.3, 15.2.1, 15.3, 21.1, 84.5.19, 85.3, 91.5.6, 84.5.20, 155.1.5, 155.2.2, 155.2.3, 162.5.1, 178.1, 91.5.8, 91.5.21, 92.9.2, 92.9.11, 95.6.7 125.2.1, 125.2.2, 125.2.7, 128.3.1, 150.2, 153.2.1, 153.2.2, 153.2.4, 153.2.5, 153.2.10, 155.1.1, 155.1.2, 155.1.3, 226.1, 227.3, 230.1.1, 230.2, 285.1 və s. maddələri kobud şəkildə pozulmuşdur.<br>İqbal Ağazadə barəsində saxta cinayət işi dərhal bəraətverici əsaslarla xitam olunmalı, onun bütün hüquqları və millət vəkili kimi statusu bərpa olunmalıdır. Qardaşı İlqar Ağazadə barəsində qaldırılmış qondarma cinayət işi də dərhal xitam olunmalı, ailəsinə qarşı bütün təzyiq və təqiblər dayandırılmalıdır.<br>İqbal Ağazadənin və ailəsinin təqiblərə, təzyiqlərə, işgəncələrə, qeyri-insani hərəkətlərə məruz qalmasında iştirak etmiş bütün şəxslər cinayət məsuliyyətinə cəlb |

| | |
|---|---|
| | edilməli, ona dyəmiş maddi və mənəvi zərərin əvəzi ödənilməlidir. |

| | |
|---|---|
| **Təqsirləndirilən şəxsin adı** | **HÜSEYN PƏNAH ÇODAR OĞLU** |
| **Vəkilinin adı** | YUSİF HACIYEV, TELMAN VERDİYEV, MİRİSMAYIL HADİ |
| **Təqsirləndirilən şəxsə qarşı irəli sürülən ittiham** | İbtidai istintaqda əvvəlcə CM-in 220.1 və 315.2 maddələri (yəni kütləvi ixtişaşlarda iştirakçılıq və hakimiyyət nümayəndəsinə zor tətbiq etmə).<br>Sonra CM-in 32.3, 220.1 və 32.3, 315.2 maddələri (kütləvi ixtişaşların təşkilatçısı, hakimiyyət nümayəndəsinə qarşı sağlamlığı və həyatı üçün təhlükəli zorakılığa təhrik etmə). |
| **Təqsirləndirilən şəxsin tutulduğu gün, yer və saat** | 18 oktyabr 2003-cü il saat $12^{10}$<br>Həmin tarixdə $11^{30}$ radələrində DİN MCQMİ-nin xüsusi təyinatlı dəstəsi Bakı şəhər Naxçıvani küç 27/47 ünvanda mənzilimə basqın edib. MCQMİ-də həbs edilmişəm. |
| **Təqsirləndirilən şəxsin qohumlarına və vəkilinə onun tutulması faktı və saxlanıldığı yer haqqında məlumatın verildiyi gün və saat** | 18 oktyabr 2003-cü il tarixdə vəkilim Yusif Hacıyevə $17^{30}$-da məlumat verilib. |
| **İlk dindirmələrin keçirildiyi gün, yer və saat** | 18 oktyabr 2003-cü il tarixdə saat $17^{30}$ radələrində MCQMİ-də dindirilməyə cəhd edilib. Həmin gün saat $17^{30}$ Baş Prokurorluğun ACDİÜ İİ-də dindirilmişəm. |
| **Təqsirləndirilən şəxsin əsas hüquqlarının pozulması (xüsusən işgəncə, yaxud qeyri-insani və ya alçaldıcı rəftar) barədə iddiaların qısa məzmunu** | 1. Mənzilimə DİN MCQMİ əməkdaşları tərəfindən heç bir sənəd təqdim edilmədən basqın edilib.<br>2. Qanunsuz olaraq, sənəd təqdim edilmədən, əvvəlcədən bildiriş göndərilmədən MCQMİ-də saxlanılmışam.<br>3. MCQMİ-də 18.10.2003-cü il tarixdə fiziki və mənəvi işgəncələrə məruz qalmışam.<br>4. 18.10.2003-cü il tarixdən 22.10.2003-cü il tarixədək MCQMİ-də qanunsuz saxlanmışam. Baxmayaraq ki, haqqımda 18.10.2003-cü il tarixdə həbs qətimkan tədbiri seçildiyindən mən 24 saat ərzində AR Ədliyyə Nazirliyi 1 saylı təcridxanasına göndərilməli idim. |
| **Vəkillə ilk görüşün baş tutduğu gün, yer və saat** | Vəkil Yusif Hacıyevlə ilk görüş 18.10.2003–cü il tarixdə saat 17.30-da Baş Prokurorluğun Ağır Cinayətlərə Dair İşlər Üzrə İstintaq İdarəsində olub. Sonra 5 gün ərzində vəkillə görüşə imkan verilməyib. Məhkəmə zamanı vəkilim polislər tərəfindən döyülüb. |
| **Həbs qətimkan tədbirinin həyata keçirildiyi gün, yer və** | 18.10.2003-cü il tarixdə Nəsimi rayon məhkəməsi saat 20-21 radələrində 3 dəqiqə ərzində belə bir qərar qəbul edilib. Bu zaman həbs üçün əsas olan materiallar mənə və müdafiəçimə təqdim edilməyib və işdə belə əsaslar |

| | |
|---|---|
| **saat** | olmayıb. |
| **Həbs qətimkan tədbirinin dəyişdirilməsi və zaminə buraxılma məsələsinin məhkəmədə baxışı tarixi və yeri** | 10.01.2004–cü il tarixdə və 02.04.2003-cü il tarixdə həbs qətimkan tədbirinin dəyişdirilməsi barədə məsələyə baxılb. Birinci dəfə Nəsimi rayon məhkəməsində, ikinci dəfə mənim iştirakım olmadan Ağır Cinayətlərə dair İşlər üzrə Məhkəmədə. Hər ikisi əsassız olaraq rədd edilib. |
| **Prokurorun və məhkəmənin həbs qətimkan tədbirinin dəyişdirilmədən saxlanılması üçün gətirdiyi əsaslar** | Prokurorluq tərəfindən mənə qarşı irəli sürülən ittihamın ağırlığı əsas kimi götürülüb. Həmçinin qaçıb gizlənmə ehtimalı da 15.01.2004-də həbsin uzadılması məsələsində əsas qismində əlavə edilib. 18 aprel 2004-cü ildən 02 iyun 2004-cü ilə kimi məhkəmə qərarı olmadan həbsdə saxlanılmışam. |
| **Təqsirləndirilən şəxsləri oktyabr hadisələri üzrə digər təqsirləndirilən şəxslərdən ayıran 80365 saylı yeni cinayət işinin açıldığı tarix** | 01 mart 2004-cü ildə 80308 saylı işdən aylılıb və 02 mart 2004-cü ildə ibtidai istintaqın tamamlanması elan edilib. |
| **İş materiallarının təqsirləndirilən şəxslərə və onların vəkillərinə verildiyi tarix, habelə müdafiə tərəfinə verilən materialların qısa təsviri** | 05 mart 2004-cü ildə iş materialları, daha sonra maddi sübutlar ləngimələrlə təqdim edilib və bu, 06 aprel 2004-cü ilə kimi davam edib. Lakin bu müddətin 2 həftəsi prokurorluq tərəfindən uzadılıb. Belə ki, maddi sübutları təqdim etməkdən imtina edilirdi. |
| **İttiham aktının tərtib edilib təsdiq olunması tarixi; cinayət işinin məhkəməyə göndərilməsi və təqsirləndirilən şəxslərə təqdim olunması tarixi**<br><br>**Məhkəmənin hazırlıq iclasının tarixi** | 22 aprel 2004-cü ildə ittiham aktı tərtib edilib və 26 aprel 2004–cü ildə məhkəməyə göndərilib.<br><br>07 may 2004-cü il. |
| **Hazırlıq iclasına dair təqsirləndirilən şəxslərin şikayətləri (məsələn, müdafiə tərəfinin qarşılaşdığı** | Məhkəmə yarıqapalı, polis mühasirəsində keçirilib, ictimaiyyətin məhkəməni müşahidəsinə əngəl törədilib. 300 rəsmi iştirakçısı olan proses 46 yerlik zalda keçirilir, hazırlıq iclasında irəli sürülən 31 vəsatətin heç biri (yalnız biri - videokasetlərə baxmaq istisna olmaqla) müsbət həll olunmayıb. |

| | |
|---|---|
| **əngəllər)** | |
| **Müdafiə tərəfinin məhkəməyə təqdim etdiyi bütün vəsatətlərin qısa məzmunu və əgər vəsatətə baxılıbsa, məhkəmənin müvafiq qərarı** | Mənim tərəfimdən 16 vəsatət təqdim olunub:<br>1) prosessual pozuntular haqqında<br>2) işgəncələrin təhqiqi haqqında<br>3) sübutlar siyahısı<br>4) yolverilməz sübutların xaric edilməsi<br>5) məhkəmə tərkibinə etiraz<br>6) qərarların surətinin verilməsi<br>7) prosesin videoçəkilişinin aparılması<br>8) protokollarla tanışlığa şərait yaradılması və s. |
| **Məhkəmə prosesinə hazırlaşmaq üçün yaradılan imkanlara dair müdafiə tərəfinin şikayətlərinin qısa məzmunu** | Faktiki olaraq müdafiəçinin işlə, o cümlədən maddi sübutlarla tanışlığına bəzi əngəllər törədilmişdir. |
| **İttiham tərəfinin müdafiəyə kömək edə biləcək hər hansı materialı açıqlamaması hallarının qısa məzmunu** | Dövlət ittihamçısı hazırlıq iclasında bəyan etmişdir ki, biz cinayətkarıq və o, bir prokuror kimi qərəzsiz ola bilməz. Yazılı sənədlər işlə tanışlıq zamanı təqdim edilmiş, lakin maddi sübutların surəti verilməmişdir. Məhkəmə iclası başladıqdan sonra aparılan prosessual hərəkətlər və qərarlar bizə təqdim edilməyib.<br>50 qərardan yalnız 8 qərarın surəti verilmişdir. Protokollarla (o cümlədən hazırlıq iclasının protokolu) tanışlığa imkan verilməyib. |
| **İnsan hüquqlarının /ədalətli məhkəmə hüququnun pozulması halları ilə bağlı digər şikayətlərin qısa məzmunu** | 1. Məhkəmə müstəqil deyil.<br>2. Hakimlər ittiham tərəfini müdafiə edir. Müdafiə hüquqlarımla bağlı bütün vəsatətlər (o cümlədən şahid və sübut siyahıları) ya rədd edilib, ya da baxılmamış saxlanıb. |
| **Müdafiə tərəfinin ATƏT-in DTİHB-na bildirmək istədiyi digər müvafiq mülahizələr** | 1. Məhkəmənin açıqlığı və aşkarlığı təmin edilsin, iclaslar normal şəraitdə geniş zalda keçirilsin.<br>2. Məhkəmə prosesi videolentə alınsın.<br>3. Təqsirləndirilən şəxsin barəsində əsassız həbs qətimkan tədbiri ləğv edilsin.<br>4. Məhkəmə prosesi süni surətdə uzadılmasın.<br>5. Müdafiə tərəfinə öz sübut və şahidlərini təqdim etmək və dindirmək, təhqiq etmək imkanı verilsin.<br>6. İctimaiyyətə məhkəmə prosesini müşahidə etmək imkanı verilsin.<br>7. Hökumət məmurlarının dindirilməsi təmin edilsin. |

| | |
|---|---|
| **Təqsirləndirilən şəxsin adı** | **MƏMMƏDOV SƏRDAR CƏLAL OĞLU** |
| **Vəkilinin adı** | HƏZİ MƏMMƏDOV, VÜQAR XASAYEV, NAMİZƏD SƏFƏROV |
| **Təqsirləndirilən şəxsə qarşı irəli sürülən ittiham** | Azərbaycan Respublikası Cinayət Məcəlləsi:<br>32.3, 220.1 – Kutləvi iğtişaş təşkil etmə;<br>32.3, 315.2 – Hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etməni təşkil etmə. |
| **Təqsirləndirilən şəxsin tutulduğu gün, yer və saat** | 18 oktyabr 2003-cü il<br>Bakı şəhəri Bül-bül prospekti 50, mən. 10, saat 18-19 radələrində |
| **Təqsirləndirilən şəxsin qohumlarına və vəkilinə onun tutulması faktı və saxlanıldığı yer haqqında məlumatın verildiyi gün və saat** | 18 oktyabr 2003-cü il saat 22 radələrində |
| **İlk dindirmələrin keçirildiyi gün, yer və saat** | 19 oktyabr 2003-cü il saat 12.30-da Baş Prokurorluğun Ağır Cinayətlərə Dair İşlər Üzrə İstintaq İdarəsi |
| **Təqsirləndirilən şəxsin əsas hüquqlarının pozulması (xüsusən işgəncə, yaxud qeyri-insani və ya alçaldıcı rəftar) barədə iddiaların qısa məzmunu** | Azərbaycan Respublikası Konstitusiyasının aşağıdakı maddələri pozulub:<br>33 – mənzil toxunulmazlığı;<br>46 – şərəf və ləyaqətin müdafiəsi;<br>63 – təqsirsizlik prezumpsiyası;<br>26 – insan və vətəndaş hüquqlarının müdafiəsi;<br>28 – azadlıq hüququ;<br>31 – təhlükəsiz yaşamaq hüququ;<br>60 – hüquq və azadlıqların məhkəmə təminatı;<br>61 – hüquqi yardım almaq;<br>62 – məhkəmə aidiyyətinin dəyişdirilməsinə yol verilməməsi;<br>67 – tutulan, həbsə alınan və cinayət törədilməsində ittiham edilənlərin hüquqları;<br>68 – zərərin ödənilməsini tələb etmək hüququ. |
| **Vəkillə ilk görüşün baş tutduğu gün, yer və saat** | 18 oktyabr 2003-cü il saat 22-də DİN MCQMİ |
| **Həbs qətimkan tədbirinin həyata keçirildiyi gün, yer və saat** | 19 oktyabr 2003-cü il saat 16 radələrində |
| **Həbs qətimkan tədbirinin dəyişdirilməsi və zaminə buraxılma məsələsinin məhkəmədə baxışı** | 28 oktyabr 2003-cü il – Apellyasiya Məhkəməsi<br>18 dekabr 2003-cü il – Nəsimi rayon məhkəməsi |

| | |
|---|---|
| **tarixi və yeri** | |
| **Prokurorun və məhkəmənin həbs qətimkan tədbirinin dəyişdirilmədən saxlanılması üçün gətirdiyi əsaslar** | Əməlin təhlükəlilik dərəcəsi;<br>İstintaqdan yayınma ehtimalı. |
| **Təqsirləndirilən şəxsləri oktyabr hadisələri üzrə digər təqsirləndirilən şəxslərdən ayıran 80365 saylı yeni cinayət işinin açıldığı tarix** | 1 mart 2004-cü il tarixdə 80365 saylı cinayət işi qanunsuz olaraq 80308 saylı cinayət işindən ayrılmışdır. |
| **İş materiallarının təqsirləndirilən şəxslərə və onların vəkillərinə verildiyi tarix, habelə müdafiə tərəfinə verilən materialların qısa təsviri** | 6 mart 2004-cü il.<br>22 cild cinayət işi materialları;<br>22 ədəd videokaset maddi sübut qismində. |
| **İttiham aktının tərtib edilib təsdiq olunması tarixi; cinayət işinin məhkəməyə göndərilməsi və təqsirləndirilən şəxslərə təqdim olunması tarixi**<br><br>**Məhkəmənin hazırlıq iclasının tarixi** | - 22 aprel 2004-cü ildə təsdiq edilib.<br>- 26 aprel 2004-cü ildə məhkəməyə göndərilib.<br>- 22 aprel 2004-cü ildə təqdim edilib.<br><br>7 may 2004-cü ilə təyin olunub, lakin məhkəmə tərəfindən qanunsuz olaraq 12 may 2004-cü ilə keçirilib. |
| **Hazırlıq iclasına dair təqsirləndirilən şəxslərin şikayətləri (məsələn, müdafiə tərəfinin qarşılaşdığı əngəllər)** | - məhkəmədə aşkarlığın təmin olunması;<br>- texniki vasitələrdən istifadə edərək müdafiə hüququnun təmin edilməsi (iclasın videoçəkilişi);<br>- vəsatət və şikayətlərimiz əsasında qəbul edilmiş qərarların surətlərinin verilməsi;<br>- məhkəmə iclasının protokolları ilə tanış olma və qeyd götürmə;<br>- hakimə və prokurora etirazlar;<br>- ibtidai istintaqda yol verilən prosessual pozuntular barədə qərar qəbul edilməsi. |
| **Müdafiə tərəfinin məhkəməyə təqdim etdiyi bütün** | - 12 may 2004 – hakimə etiraz;<br>- 12 may 2004 – məhkəmə aşkarlığı;<br>- 12 may 2004 – məhkəmədə müdafiə hüququnun təmin |

| | |
|---|---|
| **vəsatətlərin qısa məzmunu və əgər vəsatətə baxılıbsa, məhkəmənin müvafiq qərarı** | edilməsi;<br>- 12 may 2004 – cinayət işinə xitam verilməsi;<br>- 12 may 2004 – prosessual pozuntulara yol vermiş şəxslər haqqında tədbir görülməsi;<br>- 12 may 2004 – kompensasiya ödənilməsi;<br>- 28 iyun 2004 – saxta sübutların xaric edilməsi və günahkarlar haqqında tədbir görülməsi;<br>- 28 iyun 2004 – ekspertlərin çağırılması haqqında;<br>- 28 iyun 2004 – məhkəmə müdafiə hüququ haqqında;<br>- 28 iyun 2004 – şahidlərin çağırılması haqqında;<br>- 28 iyun 2004 – yolverilməz sübutların xaric edilməsi haqqında;<br>- 12 may 2004 – dövlət ittihamçısına etiraz;<br>- məhkəmənin hazırlıq iclasında verilmiş çoxlu sayda yazılı və şifahi vəsatətlər üzrə heç bir qərar qəbul edilməyib, edilsə də mənə təqdim edilməyib. 18 iyun 2004-cü ildə bu məsələ ilə bağlı vəsatət verilib. |
| **Məhkəmə prosesinə hazırlaşmaq üçün yaradılan imkanlara dair müdafiə tərəfinin şikayətlərinin qısa məzmunu** | Cinayət işi ilə tanışlıq müddəti çox qısa olub. 22 videokasetə baxışa çox çətinliklə razılıq verilib. Təkadamlıq kamerada saxlandıqları üçün təqsirləndirlən şəxslərin birgə müdafiəni təşkil etməsi mümkün olmayıb.<br>24 may 2004-dən 23 iyun 2004-ə qədər vəkillə görüşməyə imkan verilməyib. |
| **İttiham tərəfinin müdafiəyə kömək edə biləcək hər hansı materialı açıqlamaması hallarının qısa məzmunu** | Dövlət ittihamçısı özünün qərəzli mövqe tutmasını məhkəmənin hazırlıq iclasında elan edib və nə Azərbaycan Respublikası Konstitusiyasının, nə Prokurorluq haqqında Qanunun, nə CPM-in, nə də Avropa Konvensiyasının tələblərinə əməl edib. O, məhkəməni bizim hüquqlarımızı pozmağa sövq edir, bizim məhkəmədə müdafiə hüququmuzu pozur.<br>- vəsatət və şikayətlərlə bağlı qəbul edilən qərarlar;<br>- məhkəmə iclasının protokolları;<br>- məhkəmənin özünün qəbul etdiyi qərarlar. |
| **İnsan hüquqlarının /ədalətli məhkəmə hüququnun pozulması halları ilə bağlı digər şikayətlərin qısa məzmunu** | İnsan Hüquqları haqqında Avropa Konvensiyasının aşağıdakı maddələri pozulub:<br>• Maddə 3 - mən işgəncə və qeyri-insani və ləyaqəti alçaldan rəftara məruz qalıb;<br>• Maddə 5, 1c bəndi - heç bir əsaslı sübut olmadan həbs edilib;<br>• Maddə 5, 2-ci bənd – həbs edilərkən həbsin səbəbləri barədə məlumat verilməyib;<br>• Maddə 6 – Azərbaycanda məhkəmələr müstəqil deyil və siyasi sifariş əsasında qərəzli fəaliyyət göstərirlər. Məhkəmə baxışı süni surətdə uzadılır; məhkəmə baxışı 7 aydan sonra başlanıb, ədalətli şəkildə aparılmır. Mətbuatın iştirakı məhdudlaşdırılıb.<br>• Maddə 6, 2-ci bənd - 19 oktyabr 2004-cü ildə Milli Məclis hadisələr və günahkarlar barədə qərar qəbul edib. Səbail rayon polis idarəsinin rəisi məni cinayətkar adlandıraraq cəzalandırmaq istəyib. Dövlət ittihamçısı məni cinayətkar adlandırıb. Baş Prokuror televiziya ilə |

| | |
|---|---|
| | çıxışında günahımın guya sübuta yetirilidiyini bəyan edib. DİN-in yüksək rütbəli məmurları mənim təqsirli olduğumu bəyan ediblər.<br>• Maddə 6, 3a bəndi - həbs ediməyimin səbəbləri barədə mənə dərhal məlumat verilməyib. Müdafiəmin təşkili üçün bəzi əngəllər törədilib. 19-22 oktyabr 2003-də vəkilimlə görüşmək üçün imkan yaradılmayıb.<br>«d» bəndinin pozulması: məhkəmə mənim tərəfimdən çağırılan şahidlərin siyahısını qəbul etmyəib.<br>• Maddə 8 – məhkəmə və ya prokurorluğun qərarı olmadan MCQMİ-nin əməkdaşları mənzilimin pəncərəsini sındıraraq heç bir izahat vermədən evə daxil olmuşlar.<br>• Maddə 11 - Bakı ş. İcra Hakimiyyəti 11 oktyabr 2003-cü ildə mitinq keçirilməsi haqqında müraciəti təmin etməmiş və bununla da hadisələrin başqa məcrada inkişaf etməsinə şərait yaratmışdır. |
| **Müdafiə tərəfinin ATƏT-in DTİHB-na bildirmək istədiyi digər müvafiq mülahizələr** | Azərbaycan müstəqillik əldə etdikdən və Avropa Şurasının üzvü olduqdan sonra bir dəfə də olsun demokratik seçkilər keçirilməyib. Azərbaycan məhkəmələri siyasi sifariş əsasında həbsləri təsdiq edir, Azərbaycanda siyasi hüquqlar kobud şəkildə pozulur. İnsanlara işgəncə verilir, mətbuat susdurulur, beynəlxalq öhdəliklərə riayət olunmur. Konstitusiyada təsbit edilmiş hüquqlara faktiki olaraq əməl olunmur. Qanunlar məmurlar tərəfindən addımbaşı pozulur. QHT-lərin fəaliyyətinə əngəl yaradılır. |

| | |
|---|---|
| **Təqsirləndirilən şəxsin adı** | **ABBASOV RAUF ARİF OĞLU** |
| **Vəkilinin adı** | SƏMƏD PƏNAHOV |
| **Təqsirləndirilən şəxsə qarşı irəli sürülən ittiham** | Azərbaycan Respublikası CM-nin 32.3, 220.1 və 32.3, 315.2 maddələri (16 oktyabr 2003-cü ildə Bakı şəhərində kütləvi iğtişaşlar törədilməsini təşkil etmək və hakimiyyət nümayəndəsinə müqavimət göstərmə) |
| **Təqsirləndirilən şəxsin tutulduğu gün, yer və saat** | R. Abbasov 27 oktyabr 2003-cü il ildə AR Baş Prokurorluğunda saxlanılmış və həmin gün barəsində Nəsimi rayon məhkəməsi həbs qəti-imkan tədbiri seçmişdir. |
| **Təqsirləndirilən şəxsin qohumlarına və vəkilinə onun tutulması faktı və saxlanıldığı yer haqqında məlumatın verildiyi gün və saat** | Qohumlarına xəbər verilməsə də, bütün Azərbaycan ictimaiyyəti R. Abbasovun həbsini bilmişdir. |
| **İlk dindirmələrin** | 27 oktyabr 2003-cü ildə AR Baş Prokurorluğunun |

| | |
|---|---|
| **keçirildiyi gün, yer və saat** | ACDİÜ İstintaq İdarəsində. |
| **Təqsirləndirilən şəxsin əsas hüquqlarının pozulması (xüsusən işgəncə, yaxud qeyri-insani və ya alçaldıcı rəftar) barədə iddiaların qısa məzmunu** | R. Abbasov tək saxlanmaqla bütün informasiya almaq imkanlarından məhrum edilmiş, hətta kağız və qələm verilməmiş, dini ayinləri icra edə bilməmiş, anti-sanitar şəraitdə ac saxlanılmış və s. |
| **Vəkillə ilk görüşün baş tutduğu gün, yer və saat** | 27 oktyabr 2003-cü ildən görüşə yalnız bir dəfə icazə verilməmişdir. |
| **Həbs qətimkan tədbirinin həyata keçirildiyi gün, yer və saat** | 27 oktyabr 2003-cü ildə Nasimi rayon məhkəməsində barəsində həbs qəti-imkan tədbiri seşilmişdir. (27 yanvar 2004-cü ildə həbs müddəti 3 ay uzadılıb) |
| **Həbs qətimkan tədbirinin dəyişdirilməsi və zaminə buraxılma məsələsinin məhkəmədə baxışı tarixi və yeri** | Dekabr 2003-cü il tarixdə həbsin dəyişdirilməsi haqda vəsatət rədd edilmişdir. Məhkəmə prosesində bir neçə dəfə vəsatət qaldırılmış, lakin həbs qəti-imkan tədbiri qüvvədə saxlanmışdır. |
| **Prokurorun və məhkəmənin həbs qətimkan tədbirinin dəyişdirilmədən saxlanılması üçün gətirdiyi əsaslar** | İlkin sübutlar və R. Arifoğlunun məhkəmədən yayınması üçün heç bir arqument olmasa da, məhkəmədən yayınacağı əsas götürülərək həbs qüvvədə saxlanmışdır. |
| **Təqsirləndirilən şəxsləri oktyabr hadisələri üzrə digər təqsirləndirilən şəxslərdən ayıran 80365 saylı yeni cinayət işinin açıldığı tarix** | |
| **İş materiallarının təqsirləndirilən şəxslərə və onların vəkillərinə verildiyi tarix, habelə müdafiə tərəfinə verilən materialların qısa təsviri** | İş materialları R. Abbasovun vəkillərinə tanış olmaq üçün verilməmişdir. Məhkəmə məhkəmənin gedişində şərait yaratmağa söz versə də, bu, baş verməmişdir. |

| | |
|---|---|
| **İttiham aktının tərtib edilib təsdiq olunması tarixi; cinayət işinin məhkəməyə göndərilməsi və təqsirləndirilən şəxslərə təqdim olunması tarixi**<br><br>**Məhkəmənin hazırlıq iclasının tarixi** | 22.04.2004-cü ildə ittiham aktı tərtib olunmuş, 26.04.2004-cü ildə məhkəməyə göndərilmiş və 22.04.2004-cü il tarixdə R. Abbasova verilmişdir.<br><br>07 may 2004-də təyin olunmuş, lakin 12 may–iyun 2004-cü ildə hazırlıq iclası keçirilmişdir. |
| **Hazırlıq iclasına dair təqsirləndirilən şəxslərin şikayətləri (məsələn, müdafiə tərəfinin qarşılaşdığı əngəllər)** | Müdafiə tərəfinə iş materialları ilə tanış olmağa imkan verilməmiş, sübut təqdim etməyə imkan verilməmiş, qərarların surəti verilməmişdir. |
| **Müdafiə tərəfinin məhkəməyə təqdim etdiyi bütün vəsatətlərin qısa məzmunu və əgər vəsatətə baxılıbsa, məhkəmənin müvafiq qərarı** | İş materiallarının tanışlıq və video kasetlərlə tanış olma barədə, texniki vasitələrdən istifadə barədə, məhkəmənin açıq və böyük zalda keçirilməsi barədə, vəkillərin təhlükəsizliyinin təmin olunması barədə, yolverilməz sübutlar barədə, müdafiə tərəfinin sübutların təqdim olunması barədə bütün vəsatətlər rədd edilib. Bunlarla bağlı qərarların surəti verilməyib. |
| **Məhkəmə prosesinə hazırlaşmaq üçün yaradılan imkanlara dair müdafiə tərəfinin şikayətlərinin qısa məzmunu** | Müdafiəyə hazırlıq üçün heç bir şərait yaradılmamışdır. Bu barədə məhkəmədə yazılı və şifahi vəsatətlər verilsə də, nə cinayət işinin materialları, nə də hazırlaşmağa vaxt verilib. |
| **İttiham tərəfinin müdafiəyə kömək edə biləcək hər hansı materialı açıqlamaması hallarının qısa məzmunu** | Heç bir sənədin surəti verilməmişdir. |
| **İnsan hüquqlarının /ədalətli məhkəmə hüququnun pozulması halları ilə bağlı digər şikayətlərin qısa məzmunu** | Bu barədə vəsatətlər məhkəməyə verilir və nə qədər ki, məhkəmənin yekun qərarı yoxdur, şikayət verilə bilməz. Lakin qeyd edirəm ki, müdafiəçiyə iş materialları ilə tanış olmağa heç bir imkan verilməyib, müdafiə tərəfinin sübutları məhkəmə tərəfindən qəbul edilməmişdir. Belə bir vəziyyətdə ədalətli məhkəmədən və ya müdafiə hüququndan söhbət gedə bilməz. |

## 6-CI ƏLAVƏ: KONFRANSIN TÖVSİYYƏLƏRİ

KONFRANSIN TÖVSİYYƏLƏRİ
YENİ VƏKİLLƏR BİRLİYİNİN YARADILMASI:
VƏKİLLƏR VƏ VƏKİLLİK FƏALİYYƏTİ HAQQINDA QANUNUN TƏTBİQİ
Bakı, Azərbaycan
23-24 iyun 2004-cü il

Amerika Birləşmiş Ştatları, Amerika Hüquqşünaslar Assosiasiyasının Mərkəzi Avropa və Avrasiyada Hüquq Təşəbbüsü (ABA-CEELI) və Avropada Əməkdaşlıq və Təhlükəsizlik Təşkilatı (ATƏT) tərəfindən maliyyələşən və təşkil olunan iki günlük konfransın diqqəti bu yaxınlarda Milli Məclis tərəfindən qəbul edilmiş və hazırda Prezident İ. Əliyev tərəfindən imzalanması gözlənilən Vəkillər və Vəkillik fəaliyyəti haqqında Qanuna dəyişikliklər ətrafında cəmləşmişdi. Konfransın gündəliyinə vəkillərin yazılı imtahanları və şifahi müsahibələri, habelə daxili peşə intizamı qaydaları üzrə yeni standartlar kimi səciyyəvi mözular daxil edilmşdi. İştirakçılar hüquq toplumunun geniş təbəqələrini təmsil edən vəkillər, hüquq praktikası ilə məşğul olanlar, hakimlər, prokurorlar, hüquqşünas-alimlər, Prezident Aparatının, Ədliyyə Nazirliyinin və Milli Məclisin nümayəndələri idilər.

Polşadan, Rusiyadan, Gürcüstandan və ABŞ-dan olan həmkarların iki günlük təqdimatından, həmçinin iştirakçılar arasında gedən açıq müzakirələrdən sonra, Prezident İ. Əliyevə və müvafiq icra hakimiyyəti orqanına Vəkillər haqqında Qanunun tətbiqi ilə əlaqədar ilkin addımlara dair aşağıdakı tövsiyyələr verildi:

KONFRANSIN TÖVSİYYƏLƏRİ

Gələcəkdə Qanuna dəyişikliklər ediləcəyini anlayaraq və bu dəyişikliklərin nədən ibarət olduğunun fərqinə varmadan, Vəkillər haqqında Qanunun tətbiqinə dair aşağıdakı tövsiyələr təqdim edilir:

Təşkilat Komitəsi:

1. Qanunun qüvvəyə minməsindən ən geci üç (3) gün sonra Təşkilat Komitəsinə təyin ediləcək (Vəkillər Kollegiyasının bütün hazırki üzvləri və Ədliyyə Nazirliyindən qeydiyyatdan keçmiş bütün lisenziyalı hüquqşünaslar də daxil olmaqla) bütün mümkün namizədlərin siyahisi dərc edilir;

2. Qanunun qüvvəyə minməsindən ən geci iki (2) həftə sonra, Vəkillər Kollegiyası bütün üzvlərinin müzakirəsindən sonra Təşkilat Komitəsinə üç (3) üzv təyin edir;

3. Qanunun qüvvəyə minməsindən ən geci iki (2) həftə sonra, müvafiq icra hakimiyyəti orqanı bütün lisenziyalı hüquqşünasların təqdim etdiyi namizədlər siyahisindan Təşkilat Komitəsinin üzvlüyünə üç (3) lisenziyalı hüquqşünas təyin edir;

4. Qanunun qüvvəyə minməsindən ən geci bir (1) ay sonra Təşkilat Komitəsi Təsis Yığıncağına dəvət edilmiş üzvlərin siyahisini dərc edir;

5. Dəvət olunmuş üzvlərin siyahisinin dərc edilməsindən sonra ən geci iki (2) həftə ərzində, üzv olmaq istəyən, lakin adı həmin siyahıda olmayan şəxslər öz şikayətlərini Təşkilat Komitəsinə təqdim etməlidirlər;

6. Qanunun qüvvəyə minməsindən ən geci iki (2) ay sonra Təşkilat Komitəsi Təsis Yığıncağının keçirilmə tarixini və yerini dərc edir;

7. Qanunun qüvvəyə minməsindən ən geci üç (3) ay sonra Təsis Yığıncağı keçirilir;

8. Təşkilat Komitəsi yuxarıda göstərilən məlumatın dərc edilməsi üçün müvafiq maliyyə qaynağını tapmağa və Təsis Yığıncağının keçirilməsinə cavabdehdir.

**Vəkillərin yazılı imtahanları**

1. Yazılı imtahanda olan suallar yalnız biri doğru olan bir neçə variantda cavablarla birlikdə tərtib olunmalıdır;
2. İctimaiyyət tərəfindən İxtisas Komissiyasına təklif edilən imtahan suallarının təqdim edilməsi üçün ağlabatan vaxt ayrılmalıdır;
3. İxtisas Komissiyası Azərbaycan Respublikasında qüvvədə olan qanunlar haqqında biliklərə və onların tətbiqinə, habelə mövcud hüquq təcrübəsinə dair müvafiq suallar seçməli və bu yolla tərtib edilmiş ən azı 1000 mümkün sual toplumundan istifadə etməklə hər bir imtahanı təşkil etməlidir;
4. Mümkün imtahan suallarının toplumu dərc edilməli və imtahana ən azı qırx beş (45) gün qalmış hər bir namizədin onu əldə etmək imkanı olmalıdır; həmçinin imtahan vermək üçün ərizə təqdim etdikləri zaman vəkilliyə namizəd hər bir şəxsə imtahan sualları toplumunun bir nüsxəsi verilməlidir;
5. İmtahan günü əvvəlcədən dərc edilmiş imtahan sualları arasından kompüter tərəfindən təsadüfi seçim vasitəsilə faktiki imtahan sualları seçilir;
6. Yazılı imtahana müstəqil müşahidəçilər tərəfindən nəzarət edilir ki, imtahan verənlər tərəfindən kənar materiallardan istifadə edilməsin;
7. Apellyasiya və şikayətlərin təqdim edilmə proseduru birinci imtahanın keçirilməsindən əvvəl müəyyən edilməlidir.

**Şifahi müsahibələr**

1. Şifahi müsahibə zamanı verilən hər bir sual Azərbaycan Respublikasında qüvvədə olan qanunlar haqqında biliklərə və onların tətbiqinə, habelə mövcud hüquq təcrübəsinə aid olmalıdır;

2. İxtisas Komissiyası Azərbaycan Respublikasında qüvvədə olan qanunlar haqqında biliklərə və onların tətbiqinə, habelə mövcud hüquq təcrübəsinə dair müvafiq suallar seçməli və bu yolla ən azı qırx (40) mümkün sual toplumu tərtib etməlidir; şifahi müsahibə zamanı verilən hər bir sual həmin sual toplumundan seçilməlidir;

3. Mümkün imtahan suallarının toplumu dərc edilməli və imtahana ən azı qırx beş (45) gün qalmış hər bir namizədin onu əldə etmək imkanı olmalıdır; həmçinin imtahan

vermək üçün ərizə təqdim etdikləri zaman vəkilliyə namizəd hər bir şəxsə şifahi müsahibə sualları toplumunun bir nüsxəsi verilməlidir;

4. Hər bir şifahi müsahibə zamanı eyni zamanda ən azı iki ərizəçi/namizəd iştirak etməlidir;

5. Hər bir şifahi müsahibə müstəqil müşahidəçilər üçün açıq olmalıdır;

6. Hər bir şifahi müsahibənin gedişi müstəqil texniklər tərəfindən video- və ya audio lentə yazılmalıdır;

7. Apellyasiya və şikayətlərin təqdim edilmə proseduru birinci imtahanın keçirilməsindən əvvəl müəyyən edilməlidir.